Xalqın qəzeti!

# Xalq qəzeti

№ 129 (30823) 25 iyun 2025-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

## Azərbaycanda ən böyük enerji mərkəzi işə salındı



***Azərbaycan Prezidenti İlham Əliyevin Mingəçevirə səfəri zamanı cəmi 2 ilə tikintisi başa çatdırılmış ölkənin ən böyük Elektrik Stansiyası istifadəyə verilib. Açılış mərasimində inşatçı və energetikləri təbrik edən dövlət başçısı bildirib:***

– "8 Noyabr" Elektrik Stansiyasının açılışı çox gözəl hadisədir. Ümumilikdə, ölkəmizin enerji potensialını böyük dərəcədə gücləndirəcək bu stansiyanın yaradılması və qısa müddət ərzində bütün işlərin başa çatması ölkəmizin gücünü, potensialını, energetiklərimizin təcrübəsini, peşəkarlığını göstərir olaraq daha da gücləndirəcək, enerji sisteminin səmərəliliyini artıracaq və beləliklə, Mingəçevirin nəinki Azərbaycanın, bütövlükdə Cənubi Qafqazın energetika mərkəzi olan statusunu daha da gücləndirəcək.

Bu gün bu stansiyanın adının seçilməsi də çox vaxt aparmadı. Təklif edilən variantlar arasında "8 Noyabr"ı mən seçdim. Çünki bu, bizim şanlı Zəfərimizin tarixidir. Zəfər xalqımıza, dövlətimizə yaraşır. Əminəm ki, bu stansiyanın ömrü uzun və fəaliyyəti uğurlu olacaq.

**(ardı 2-ci səhifədə)**

## Güclü ordu – Güclü dövlət

*Zəfər təyinatlı Silahlı Qüvvələrimiz*

**Sabah Azərbaycanda 26 İyun Silahlı Qüvvələr Günü qeyd ediləcək. Özü də tam əzəməti və möhtəşəmliyi ilə. Ancaq otuz ilə yaxın müddətdə bu günü layiqincə dəyərləndirməyin məhrumiyyətini yaşamışıq. Əlbəttə, xalqımızın mərd və məğrur olduğunu, döyüşkən xarakterini, əzmkarlığını düşünmüşük. Fəqət, bütün bunlar yalnız təskinlik olub. Çünki nəticə vurğuladığımız fəxarət göstəricilərinin tam əksini göstərib. Beləcə, özümüzə qapılaraq susmuşuq. Bəzən də şəxsimizə bu sualın ünvanlanmasından qorxmuşuq: Necə igid xalqsınız ki, torpaqlarınız işğaldadır?**



ardı səhifə ⇨ 5

## Azərbaycan BMT-nin ekoloji bürosunun sədri seçilib

**İyunun 24-də BMT-nin Ətraf Mühit Proqramının Daimi Nümayəndələr Komitəsi çərçivəsində Azərbaycan ilk dəfə UNEP CPR Bürosunun sədri seçilib. Ölkəmizin quruma sədrliyi 2025-2027-ci illəri əhatə edəcək.**



UNEP CPR ətraf mühitlə bağlı məsələlər üzrə beynəlxalq müstəvidə prioritetləri müəyyən edən, 193 dövlətin üzv olduğu BMT-nin Ətraf Mühit Assambleyasının daimi fəaliyyət göstərən əsas orqanıdır. CPR Bürosu Assambleyanın qlobal ekoloji siyasət və normalar üzrə qərarlarının hazırlanmasında bir sıra mühüm funksiyaları yerinə yetirir.

Büroda Azərbaycan sədrliyini ölkəmizin Keniyadakı səfiri və UNEP-dəki daimi nümayəndəsi Sultan Hacıyev təmsil edəcək.

## Azərbaycan regionun ən böyük energetika dövlətidir

səhifə ⇨ 5

## İrəvan indi də Çinə üz tutur

*Paşinyanın "çoxvektorlu xarici siyasət"i qeyri-müəyyənlik doğurur*



**Ermənistan xarici işlər naziri Ararat Mirzoyan iyunun 25-27-də Çin Xalq Respublikasına rəsmi səfər edəcək. Ölkənin xarici işlər nazirliyinin yaydığı məlumata görə, səfər çərçivəsində Çinin xarici işlər naziri Van İ ilə görüş və digər müzakirələr nəzərdə tutulub.**

Qeyd edək ki, son illərdə Ermənistanın xarici siyasət kursunda nəzərəçarpacaq dəyişiklik müşahidə olunur. Əgər əvvəllər Hayastan tam şəkildə Rusiya Federasiyasına inteqrasiya olunmuşdusa, hazırda daha çox Qərblə, yəni Avropa İttifaqı və ABŞ-la yaxınlaşma siyasətini önə çıxarır. 2023-cü ildən başlayaraq baş nazir Nikol Paşinyan administrasiyası açıq şəkildə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını (KTMT) və Avrasiya İqtisadi Birliyini tənqid etməyə başladı.

ardı səhifə ⇨ 7

## Azərbaycan "yüksək insan inkişafı" dövlətləri sırasında

səhifə ⇨ 8

## Bakı sülhə sadiqdir, bəs İrəvan?

***Ermənistan hakimiyyətinin son davranışları onun riyakarlıqdan əl çəkmədiyini göstərir***



**Rəsmi İrəvan sülhə doğru aparan yolda, sanki, "bir addım irəli, iki addım geri" pinsupu ilə hərəkət edir. Sülh sazişini dərhal imzalamağa hazır olduğunu ən müxtəlif platformalarda bəyan edən Hayastanın baş naziri Nikol Paşinyan Bakının irəli sürdüyü məqbul şərtləri yerinə yetirmək əvəzinə, Türkiyəyə, Çinə üz tutur, kənardan özünə hansısa dəstəyi qazanmağa, daxildə laxladılan mövqeyini möhkəmləndirməyə çalışır. Amma bu zaman tarixi reallığı unudur və bu səbəbdən də özü-özünü təkzib edir. Dünən sülhə sadiq olduğuna təminat verir, bu gün isə riyakarcasına ona mane olmaq üçün bəhanələr axtarır.**

ardı səhifə ⇨ 6

# Azərbaycanda ən böyük enerji mərkəzi işə salındı

## Prezident İlham Əliyevin Mingəçevirə səfəri

### *“8 Noyabr” Elektrik Stansiyasının açılış mərasimi*





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 24-də Mingəçevirdə “Azərbaycan” İstilik Elektrik Stansiyasının ərazisində ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edib.**

Sonra dövlətimizin başçısı “8 Noyabr” Elektrik Stansiyasının açılış mərasimində iştirak edən qonaqlarla görüşüb, onlarla söhbət edib. Söhbət zamanı bu stansiya layihəsinin əhəmiyyəti vurğulanıb. İtaliya və Çin şirkətlərinin bu layihədə iştirakının önəminə toxunulub. İşlərin qısa müddət ərzində yekunlaşması məmnunluqla qeyd edilib.

Daha sonra “8 Noyabr” Elektrik Stansiyasının açılış mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə çıxış edib.



## Prezident İlham Əliyevin çıxışı

– Əziz dostlar, hörmətli qonaqlar, əziz mingəçevirlilər.

Bu gün ölkəmizin energetika sahəsində əlamətdar bir gündür. “8 Noyabr” Elektrik Stansiyasının açılışı çox gözəl hadisədir. Ümumilikdə, ölkəmizin enerji potensialını böyük dərəcədə gücləndirəcək bu stansiyanın yaradılması və qısa müddət ərzində bütün işlərin başa çatması ölkəmizin gücünü, potensialını, energetiklərimizin təcrübəsini, peşəkarlığını göstərir. Bu gün “8 Noyabr” Elektrik Stansiyası ölkəmizin ən böyük elektrik stansiyasıdır. 1880 meqavat gücündə bu stansiya bizim enerji potensialımızı, təbii olaraq, daha da gücləndirəcək, enerji sisteminin səmərəliliyini artıracaq və beləliklə, Mingəçevirin nəinki Azərbaycanın, bütövlükdə Cənubi Qafqazın energetika mərkəzi olan statusunu daha da gücləndirəcək. Hazırda bizim elektrik enerjisinin 40 faizindən çoxu Mingəçevirdə istehsal olunur və əlbəttə ki, görülmüş bütün bu işlər bir daha Azərbaycanın doğru yolda olduğunu göstərir.

Mingəçevir 1970-ci illərdə Azərbaycan energetika sektorunun mərkəzi rolunu oynamışdır. Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə 1974-cü ildə Mingəçevirdə “Azərbaycan” İstilik Elektrik Stansiyasının təməli qoyulmuşdur və Ulu Öndərin iştirakı ilə stansiyanın birinci bloku 1981-ci ildə istismara verilmişdir. Ondan sonra digər bloklar da istismara verilərək artıq o zaman hələ sovet dövründə bu stansiya Qafqazın önəmli energetika mərkəzlərindən birinə çevrilmişdir. Təbii olaraq müstəqilliyin ilk illərində bizdə enerji qıtlığı yaranmışdır. Orta və yaşlı nəslin nümayəndələri o illəri yaxşı xatırlayırlar ki, o vaxt hətta axşam saat 12-də televiziya verilişləri də dayandırılırdı. Çünki energetika sistemimiz lazım olan həcmdə elektrik enerjisini istehsal edə bilmirdi. Həm yanacaq nöqteyi-nəzərindən çətinliklər var idi, həm də enerji sistemimiz tam köhnəlmişdi. Yalnız Ulu Öndərin təşəbbüsü ilə yaradılmış Mingəçevir stansiyası hesabına müəyyən dərəcədə fasilələrlə olsa belə, insanlara və müəssisələrə elektrik enerjisi verilirdi. Yəni, Mingəçevirin tarixi energetika mərkəzi kimi zəngindir və burada formalaşmış güclü kadr potensialı, əlbəttə ki, bu gün də bizə əldə edilmiş uğurlara nail olmaq üçün imkan yaradır.

Biz son 20 il ərzində Azərbaycanın energetika sistemini demək olar ki, sıfırdan qurmuşuq. Ölkəmizin müxtəlif yerlərində yeni elektrik stansiyaları qurulmuşdur, eyni zamanda, Mingəçevirdə də yenidənqurma işləri aparılmışdır. Yadınızdadır, burada baş vermiş qəza nəticəsində ölkəmizin böyük hissəsi, demək olar ki, işıqsız qalmışdı. Ondan sonra praktiki tədbirlər görülməyə başlanmış və biz qısa müddət ərzində burada böyük uğurlara nail ola bilmişik.

2018-ci ildə “Azərbaycan” İstilik Elektrik Stansiyasının yenidən qurulmasının təməli qoyuldu və 2020-ci il iyunun 25-də - düz beş il bundan əvvəl burada stansiyaya yeni həyat verilmişdir. Hazırda “Azərbaycan” Elektrik Stansiyasının generasiya gücü 1800 meqavat, “8 Noyabr” Stansiyasının gücü 1880 meqavatdır, Su Elektrik Stansiyasının gücü isə 400 meqavatdan çoxdur. Beləliklə, Azərbaycanın elektrik enerjisinin 40 faizindən çoxu Mingəçevirdə istehsal olunur və qeyd etdiyim kimi, bu, nəinki Azərbaycanın, Cənubi Qafqazın əsas energetika mərkəzidir.

Bu layihənin qısa müddət ərzində icra edilməsi, - energetiklər bunu yaxşı bilirlər - rekord nəticə sayıla bilər. Çünki təxminən 2 min meqavatlıq elektrik stansiyasının inşa müddəti bir neçə il davam edir - bəlkə də üç il, dörd il, beş il, bəlkə daha da çox. Misal üçün, elə sovet dövründə Mingəçevirdə “Azərbaycan” İstilik Elektrik Stansiyasının inşası 1974-cü ildə başlamışdır və birinci blok 1981-ci ildə istismara verilmişdir. Yəni, yeddi ildən sonra 300 meqavat enerji əldə edilmişdir. Biz isə iki il ərzində təxminən 2 min meqavat enerji əldə etmişik və əlbəttə ki, bunun bir çox səbəbləri var. Təbii ki, buna burada mövcud olan energetika bazamız, təcrübəmiz, Azərbaycan energetiklərinin peşəkarlığı, bilikləri, təcrübələri və əlbəttə ki, bizim beynəlxalq tərəfdaşlarımızın da töhfəsi şərait yaratdı.

Mən xüsusilə bu gün burada iştirak edən İtaliyadan və Çindən olan qonaqları salamlamaq istəyirəm. Bu stansiyanın ərsəyə gəlməsində İtaliya və Çin şirkətlərinin böyük payı var. Azərbaycan energetikləri ilə birlikdə bu gözəl işi biz qısa müddət ərzində görə bildik.

Qeyd etməliyəm ki, həm İtaliya, həm Çin Azərbaycanın strateji tərəfdaşlarıdır. Strateji tərəfdaşlıq haqqında İtaliya ilə iki, Çinlə iki bəyannamə imzalanmışdır və mənim bu ölkələrə çoxsaylı səfərlərim nəticəsində bir sıra istiqamətlər üzrə çox gözəl nəticələr əldə edilmişdir. İtaliya Azərbaycanın birnömrəli ticarət tərəfdaşıdır. Çin də ticarət tərəfdaşlarımız arasında qabaqcıl yerlərdədir. Biz İtaliya ilə xüsusilə energetika sahəsində, xam neft, təbii qaz sahəsində uzunmüddətli və strateji əməkdaşlığa bir neçə il bundan əvvəl başlamışıq. Çinlə isə bu yaxınlarda daha çox bərpaolunan enerji layihələrini birgə icra etməyə başlayırıq. Mənim aprel ayında Çinə dövlət səfərim zamanı lazım olan razılaşmalar əldə edildi. Onu da bildirməliyəm ki, Azərbaycanda bu gün yaradılan yeni Günəş elektrik stansiyalarının təchizatı böyük dərəcədə Çin şirkətləri tərəfindən təmin edilir. Yəni, bu hər iki ölkə bizim üçün həm strateji tərəfdaşdır, həm də önəmli ticarət tərəfdaşımızdır. Qeyd etdiyim kimi, siyasi əlaqələr çox yüksək səviyyədədir və biz burada çox gözəl beynəlxalq əməkdaşlıq nümunəsini görürük.

“8 Noyabr” Stansiyasının istismara verilməsi bir çox məqsədləri təmin edəcək. Qeyd etdiyim kimi, enerji sistemimizin səmərəliliyi artırılacaq, potensial, generasiya gücümüz artacaq, eyni zamanda, şərti yanacaq sərfiyyatı kəskin aşağı düşəcək və beləliklə, bu, bizə təbii qaza qənaət etmək üçün imkan yaradacaq. Çünki hər kəs yaxşı bilir ki, Azərbaycan qazına bu gün dünya bazarlarında böyük tələbat var və nə qədər biz daxildə təbii qaza qənaət etsək, ixrac imkanlarımız da bir o qədər artacaq. Beləliklə, burada şərti yanacağın sərfiyyatının az olması bizə əlavə qazanc gətirəcək. Təbii olaraq, biz təbii qazın qənaətini, eyni zamanda, bərpaolunan layihələrdə görürük və görəcəyik. Azərbaycan bu istiqamətdə də qabaqcıl ölkələr sırasındadır. İmzalanmış, icra edilən və icra ediləcək bərpaolunan enerji layihələri 2030-cu ilə qədər bizə 6500 meqavat yaşıl enerji verəcəkdir və əgər bu gün bizim ümumi generasiya gücümüz 9000 meqavatdırsa, bu, nə deməkdir, bunu hər kəs başa düşə bilər. Eyni zamanda, bizə təbii qaza qənaət etmək üçün imkanlar yaradılacaq və belə olan halda təbii qazımızın ixracı daha da artacaq. Yəni, bir neçə məqsəd burada təmin edilir və əlbəttə ki, bütün bu işlərin təməlində bizim düşünülmüş siyasət dayanır. Çünki biz hər istiqamət üzrə düşünülmüş siyasət və proqramlar əsasında çalışırıq.

Energetika hər bir ölkənin milli təhlükəsizliyi məsələsidir. Bu gün dünyada, xüsusilə Avropa məkanında və digər bölgələrdə enerji xətlərinin təhlükə altında olmasının nə qədər böyük fəsadlara gətirib çıxardığını hər kəs öz gözləri ilə görə bilər. Bu gün Azərbaycan Avropanın enerji təhlükəsizliyini təmin edən ölkələr sırasındadır və təsadüfi deyil ki, Avropa İttifaqı tamamilə haqlı olaraq Azərbaycanı etibarlı tərəfdaş və Pan-Avropa qaz təchizatçısı adlandırır. Çünki bu gün Azərbaycan qazı 12 ölkəyə qaz kəmərləri vasitəsilə ixrac edilir. Onlardan 10-u Avropa ölkəsidir və məhz bu göstəriciyə görə, qaz təchizatımızın coğrafi əhatəsinə görə Azərbaycan bu gün dünya miqyasında qabaqcıl yerlərdədir. Əlbəttə ki, bir çox ölkə Azərbaycan qazından istifadə edib öz enerji təhlükəsizliyini təmin edir. Biz həm təbii qaz, həm xam neft, neft və neft-kimya məhsulları, müəyyən həcmdə elektrik enerjisini ixrac edirik. Ancaq qeyd etdiyim layihələr istismara veriləndən sonra biz müxtəlif elektrik kabelləri vasitəsilə yaşıl enerjini də ixrac edəcəyik. Beləliklə, ölkəmizin iqtisadi gücü, geosiyasi önəmi daha da artacaq, - halbuki bu gün də kifayət qədər yüksək səviyyədədir, - və Azərbaycan bu bölgədə sabitlik, inkişaf, tərəqqi məkanı kimi öz rolunu daha da gücləndirəcəkdir.

Bu gün dünyada gedən prosesləri hər kəs izləyir. Bizim ətrafımızda demək olar ki, münaqişələr səngimir, əksinə, yeni münaqişə zonaları açılır. Böyük fəlakətlərə və insan faciələrinə gətirən toqquşmalar, müharibələr gedir. Biz də müharibə nədir, yaxşı bilirik. Bizim torpaqlarımız uzun illər işğal altında olmuşdur və İkinci Qarabağ müharibəsində Ermənistan nəinki bizim şəhər-kəndlərimizi və yaşayış obyektlərini məqsədyönlü şəkildə atəş altında saxlayırdı, hətta buraya da - Mingəçevirə də öz raketlərini göndərməyi də unutmamışdı - əgər belə demək mümkündürsə. Bunun da məqsədi bizim enerji infrastrukturumuzu iflic vəziyyətinə salmaq idi. Hətta İkinci Qarabağ müharibəsindən əvvəl bizi hədələmək üçün bir neçə üsuldan istifadə edən Ermənistan, o cümlədən Mingəçeviri bombalamaq, burada su bəndini dağıtmaq və Mingəçevir Elektrik Stansiyasını sıradan çıxarmaq kimi təhdidlər də səsləndirirdi. Buraya, bu əraziyə düşən həm mərmilər, həm də ki, uzaqmənzilli raketlər bunun əyani sübutudur. Bu, dinc əhaliyə, mülki infrastruktura yönəlmiş təcavüz idi və hərbi cinayətdir. Ermənistanın hərbi cinayətləri təkcə bununla məhdudlaşmır. Həm Xocalı soyqırımını törədən, həm işğal dövründə bizim yaşayış məntəqələrimizi yerlə-yeksan edən, eyni zamanda, İkinci Qarabağ müharibəsi zamanı Gəncəni, Mingəçeviri, Bərdəni, Tərtəri, Ağdamı və münaqişə zonasından kifayət qədər uzaqda yerləşən bir çox yaşayış məntəqələrini atəşə tutan Ermənistan hərbi cinayətkar dövlətdir.

Yəni, bunu deməklə bir daha qeyd etmək istəyirəm ki, bu bölgənin, bu infrastruktur obyektinin ölkəmiz üçün nə qədər böyük əhəmiyyəti var. İndi isə biz sülh şəraitində yaşayırıq. Beş ildir ki, Azərbaycanda sülh tam təmin edilib və əlbəttə ki, hüdudlarımızın kənarında da nə qədər tez sülh təmin edilərsə, bir o qədər həm o ölkələr üçün, həm təbii olaraq, bizim üçün də yaxşı olacaq. Ancaq reallıq budur ki, bu gün bizim ölkəmiz sabitlik, inkişaf, tərəqqi məkanı kimi dünya miqyasında tanınır və bu adı biz öz əməyimizlə, zəhmətimizlə, düşünülmüş siyasətlə qazanmışıq. Bu gün bu stansiyanın adının seçilməsi də çox vaxt aparmadı. Təklif edilən variantlar arasında “8 Noyabr”ı mən seçdim. Çünki bu, bizim şanlı Zəfərimizin tarixidir. Zəfər xalqımıza, dövlətimizə yaraşır. Əminəm ki, bu stansiyanın ömrü uzun və fəaliyyəti uğurlu olacaq.

Bir daha sizin hər birinizi, hər birimizi bu gözəl hadisə münasibətilə təbrik edirəm. Sağ olun.

***

İtaliya Respublikasının şirkətlər və “Made in Italy” naziri **Adolfo Urso** çıxış edərək dedi:



– Bu gün burada olmağımdan və cənab Prezident İlham Əliyevlə birlikdə belə bir mühüm, elektrik enerjisi istehsal edən bu qurğunun açılışında iştirak etməkdən çox məmnunam.

Mingəçevir şəhərində tədbirdəyik. Yaxşı yadımdadır, iki il öncə şəxsən öz iştirakımla biz “Ansaldo Energia” şirkəti ilə, o cümlədən o şirkətin rəhbəri Fabbri ilə müqavilə imzaladıq və uzun vaxt çəkmədi ki, həmin layihə həyata keçirilməyə başlanıldı. Bu da bizim ölkələrimiz, müəssisələrimiz arasında əməkdaşlığın zirvəsinə çevrildi.

2000 meqavatlıq enerji imkanına malik olan bu qurğu keçmişlə müqayisədə havaya atılmaları 50 faiz azaldacaqdır. Bu, həmçinin ətraf mühitin qorunması deməkdir. Bu, olduqca vacib bir addımdır, çünki bizim energetika sahəsində olan əməkdaşlığımızı daha da gücləndirir və əlbəttə ki, bütün bunlar Azərbaycanın enerji baxımından inkişafına yönəlibdir.

Təbii ki, energetika sahəsində İtaliya ilə Azərbaycan arasında olan bu inkişaf göz qabağındadır. Cənab Prezident Əliyev elə indicə qeyd etdi ki, artıq 10 Avropa ölkəsinə Azərbaycanın təbii qazı çatdırılır. TAP boru kəməri strateji əhəmiyyətə malik boru kəməridir və qaz İtaliya ərazisindən Avropaya daxil olur. Hesab edirəm ki, bu, bizim, ümumiyyətlə, strateji tərəfdaşlığımızın enerji sahəsində olan mühüm bir hissəsidir. Bu gün bu qurğu artıq istismara verilir və bizim enerji sahəsində göstərdiyimiz daha böyük səylərimizin təzahürüdür. Bu, bizim ölkəmizə verdiyimiz töhfədir. Strateji addım atılaraq enerji təhlükəsizliyi gücləndirilir və təbii ki, bunun sayəsində, həmçinin digər sənaye və istehsal sektorlarında da inkişaf olacaqdır. Bizim liderlər - Prezident Əliyev və Baş nazir Ciorcia Meloni arasında başlanılmış strateji tərəfdaşlıq çərçivəsində bu işbirliyimiz baş tutur.

Düşünürük ki, belə bir əməkdaşlıq digər sahələrdə də olsun. Onların arasında metallurgiya, yaşıl texnologiya, xammal kimi sektorlar mövcuddur. Onlar hər iki ölkədə enerji keçidi baxımından çox əhəmiyyətlidir. Necə ki, bizim ölkədə və bütövlükdə Avropada biz buna çox sadiqik və düşünürük ki, biz, həmçinin mədəniyyət və elm sahələrində də əməkdaşlıq aparırıq. Biz bunu Bakıdakı İtaliya-Azərbaycan Universitetinin timsalında görürük. Təbii ki, həmin universitetdə gələcəkdə yeni mühəndislər formalaşacaq və Azərbaycanın inkişafına töhfə verəcəklər. Hesab edirəm ki, bu, ölkələrimiz arasında olan nəinki təhsil və mədəniyyət sahələrində, həmçinin digər sahələrdə, o cümlədən iqtisadi sahədə də əməkdaşlığa imkan yaradır.

Mən Prezident Əliyevə İtaliyaya diqqət yetirdiyinə görə təşəkkür edərək, bugünkü açılışdan çox məmnunluğumu bildirir, Baş nazir Ciorcia Meloninin salamlarını çatdırıram. Düşünürük ki, bundan sonra da hər iki ölkənin rifahı naminə əməkdaşlığımızı davam etdirəcəyik.

Mən Prezident Əliyevə Azərbaycanın bizimlə qurduğu əməkdaşlığa, bizim səfirliklə apardığı işə görə təşəkkürümü bildirirəm və səmimi-qəlbdən sizin hamınızı təbrik edirəm. Həmçinin istəyirik ki, sizin qonşu ölkədə - İranda baş verən münaqişə də səngisin, de-eskalasiya olsun. Çünki bu, olduqca vacibdir. Çünki düşünürük ki, münaqişələr nə qədər çox azalarsa, diplomatiya, dialoq daha çox olarsa, bir o qədər əməkdaşlıq üçün də imkanlar yaranar. Bütün bunlar elə məfhumlardır ki, hər bir ölkənin buna ehtiyacı var. Hesab edirik ki, Azərbaycan qonşuları üçün də bir nümunə ola bilər.

Çıxışımın sonunda sizi bir daha təbrik edirəm.

***

İtaliyanın “Ansaldo Energia” şirkətinin baş icraçı direktoru **Fabrizio Fabbri** çıxış edərək dedi:



– Zati-aliləri Prezident İlham Əliyev.

Cənab nazir Adolfo Urso.

Xanımlar və cənablar.

Bu gün Mingəçevirdə belə əlamətdar bir elektrik stansiyasının açılışını qeyd etmək məqsədilə burada olmaq mənim üçün böyük şərəfdir. Bu layihə Azərbaycanın enerji təhlükəsizliyinə, davamlı inkişafa və sənaye tərəqqisinə sarsılmaz sədaqətinin rəmzidir.

“Ansaldo Energia” üçün bu gün Azərbaycanla uzunmüddətli və etibarlı əməkdaşlığımızın mühüm mərhələsidir. Əməkdaşlığımız azad edilmiş ərazilərdə dörd yarımstansiyanın avadanlıqla təmin olunması ilə başladı və o gündən etibarən daha da güclənərək inkişaf edir.

Yeni “8 Noyabr” Elektrik Stansiyası bu gün ölkədə öz növündə ən böyük və ən strateji obyektə çevrilmişdir. Bu stansiya Azərbaycan Respublikasının enerji infrastrukturunu modernləşdirmək, daha təmiz, daha etibarlı və daha səmərəli texnologiyalar tətbiq etmək istiqamətində dinamik və uzaqgörən yanaşmasının bariz nümunəsidir. Stansiyada “Ansaldo Energia” tərəfindən təchiz olunmuş dörd ədəd müasir qaz turbini və generatorlar quraşdırılıb. Bu avadanlıqlar sayəsində karbon qazı emissiyalarında ciddi azalma və təbii qaz istehlakında böyük qənaət əldə olunacaq. Bu isə ətraf mühitin qorunmasına və enerji səmərəliliyinə əlamətdar töhfədir.

Bu mühüm layihə üçün “Ansaldo Energia”nın təmin etdiyi AE94.3A qaz turbinləri yüksək istismar çevikliyi, etibarlılığı və sərfəliliyi ilə fərqlənir. Bundan əlavə, bu turbinlər təbii qazla qarışıq şəkildə 40 faizə qədər hidrogen yandırmaq imkanına malikdir. Bu xüsusiyyət stansiyanı gələcək üçün hazırlıqlı edir. Həmçinin Azərbaycanın milli iqlim hədəflərinə, eləcə də aşağıkarbonlu gələcək qurmaq istiqamətindəki genişmiqyaslı məqsədlərinə töhfə verir. Bu layihə həm texniki, həm də çatdırılma baxımından çox iddialı və çətin bir təşəbbüs olmuşdur. Layihənin cəmi iki il ərzində tam şəkildə həyata keçirilməsi və aşağı dəyəri, aşağı xərci onu oxşar layihələrlə müqayisəolunmaz edir. Qarşıya çıxan bütün çətinliklər daimi əməkdaşlıq, ortaq problemin həlli və qarşılıqlı öhdəlik sayəsində uğurla dəf edildi.

Bu gün stansiya tam fəaliyyət göstərir və avadanlıq yüksək nəticə verir. Bu, ortaq uğurdur və biz bu nailiyyəti “AzərEnerji” ilə birlikdə Azərbaycanda qeyd etməkdən qürur duyuruq.

Bu əməkdaşlıq adi təchizatçı-müştəri münasibətlərindən xeyli genişdir. O, ortaq dəyərlərə və cənab nazir Adolfo Ursonun qeyd etdiyi kimi, uzunmüddətli baxışlara əsaslanır. “Ansaldo Energia” yalnız texnologiya təqdim etmir. Biz həm də qabaqcıl təlim proqramlarına və yerli potensialın gücləndirilməsinə sərmayə qoyuruq ki, bu da Azərbaycanın enerji keçidinə uzunmüddətli dəstək verəcək.

**(ardı 3-cü səhifədə)**

# Azərbaycanda ən böyük enerji mərkəzi işə salındı

## “8 Noyabr” Elektrik Stansiyasının açılış mərasimi




**(əvvəli 2-ci səhifədə)**

Tərəfdaşlığımızın gücü dövlətlər səviyyəsində də öz təzahürünü tapır. Azərbaycanla İtaliya arasında möhkəmlənən əlaqələr bunun sübutudur. Zati-aliləri Prezident İlham Əliyevlə Baş nazirimiz xanım Ciorcia Meloni arasında keçirilmiş son görüş bu strateji münasibətlərin əhəmiyyətini bir daha təsdiq edir. COP29 İqlim Konfransı çərçivəsində “Ansaldo Energia” və “AzərEnerji” arasında Anlaşma Memorandumu imzalanmışdır. Bu sənəd enerji təhlükəsizliyi, enerji keçidi strategiyaları və təlim sahəsində ortaq öhdəliyimizi rəsmiləşdirmişdir. Bu, əməkdaşlığımızın innovasiya, davamlılıq və birgə gələcək məsuliyyət üzərində qurulan yeni mərhələsinə keçidi simvolizə edir.

Azərbaycan Respublikası öz strateji mövqeyi, təbii ehtiyatları və ardıcıl enerji siyasəti sayəsində Avropanın enerji təhlükəsizliyində həlledici rol oynayır. Təbii qaz təchizatçısı kimi rolu və infrastrukturun modernləşdirilməsi sahəsindəki səyləri Azərbaycanı qlobal enerji əməkdaşlığında əsas oyunçulardan birinə çevirmişdir.

Xanımlar və cənablar, “Ansaldo Energia” Azərbaycan Respublikasının innovasiya yolunun bir parçası olmaqdan qürur duyur. Bu, yalnız qabaqcıl texnologiyalarla deyil, həm də enerjinin gələcəyi ilə bağlı ortaq baxışımızla mümkündür. Biz birlikdə həm təhlükəsiz, həm də davamlı texnologiyaya və insan amilinə əsaslanan enerji əməkdaşlığı modeli qururuq. Bu tərəfdaşlığın yaradacağı yeni imkanları səbirsizliklə gözləyirik. Bu gün bu, bir layihənin sonu deyil. Bu, ortaq yolumuzun yeni bir fəslinin başlanğıcıdır.

Prezident İlham Əliyevə, cənab nazir Adolfo Ursoya, “AzərEnerji”nin rəhbərliyinə və bu möhtəşəm nəticənin əldə olunmasına töhfə verən hər kəsə təşəkkürümü ifadə etmək istəyirəm. Bu sıraya mühəndislərdən sahə işçilərinə, layihə komandalarından ölkənin milli və yerli qurumlarına qədər hamı daxildir. Sizin peşəkarlığınız, əzmkarlığınız və fədakarlığınız bizi bu gün bu uğurun şahidi olmağa gətirib çıxardı.

Hamınıza təşəkkür edirəm.

***

Çinin “Dongfang Electric İnternational Corporation” şirkətinin İdarə Heyətinin sədri **Çen Qianq** çıxış edərək dedi:



– Möhtərəm cənab Prezident İlham Əliyev.

Hörmətli qonaqlar, xanımlar və cənablar.

Bu gün biz burada Azərbaycanın energetika tarixində əlamətdar bir mərhələyə - Mingəçevirdə yeni 1880 MVt gücündə elektrik stansiyasının tam istismara verilməsinə şahidlik etmək üçün toplaşmışıq.

Bu münasibətlə “Dongfang Electric İnternational Corporation” adından Azərbaycan Respublikasının Prezidentinə, dövlətinə, “AzərEnerji” Açıq Səhmdar Cəmiyyətinə və tikintidə iştirak edən bütün tərəfdaşlara ən səmimi təbriklərimi, dərin hörmət və ehtiramımı bildirirəm.

Mingəçevir su anbarının yaxınlığında yerləşən və Azərbaycanın ən böyük enerji istehsalı mərkəzi olan bu müasir elektrik stansiyası bərpaolunan enerji mənbələrinin inkişafı prosesində “şəbəkə stabilizatoru” kimi mühüm rol oynayacaq. “Dongfang Electric İnternational Corporation” olaraq, “AzərEnerji” ASC tərəfindən əsas avadanlıq təchizatçısı kimi bu mühüm layihənin bizə etibar edilməsindən böyük qürur duyuruq. Bu, bizim texniki imkanlarımıza verilən dəyərin göstəricisi olmaqla yanaşı, üzərimizə düşən böyük bir məsuliyyətdir.

“Dongfang” şirkəti ilə Azərbaycanın enerji sektoru arasında uzunmüddətli və geniş əlaqələr mövcuddur. On beş il əvvəl Mingəçevir Su Elektrik Stansiyası üçün əsas hidrogenerasiya bloklarını biz təmin etmişdik. İki il əvvəl isə Azərbaycanın ən böyük Günəş enerjisi layihəsində “Dongfang” şirkəti mühəndislik, təchizat və tikinti podratçısı olmuş, bu stansiyanın açılış mərasimində hörmətli cənab Prezident şəxsən iştirak etmişdi. Bu gün isə Azərbaycanın ən böyük elektrik stansiyasını inşa edərək Çin və Azərbaycan arasındakı əməkdaşlıqda yeni bir səhifə açırıq.

2022-ci ilin sonunda Bakıda “AzərEnerji” ASC ilə müqavilə imzalayarkən bu layihənin əhəmiyyətini bir daha anladım. Şirkətimiz bu layihəyə xüsusi önəm vermişdir. Sifarişçi komandanın peşəkarlığını, layihə üzrə keyfiyyət tələblərini və icra müddətini nəzərə alaraq, biz də layihələndirmədən istehsala, logistikadan quraşdırmaya və istismar mərhələlərinə qədər bütün işlər üçün ən peşəkar komandamızı səfərbər etdik.

İki il davam edən fasiləsiz əməyin nəticəsi olaraq, layihə planında əksini tapan bütün göstəriciləri birgə səylərlə, nəhayət, reallığa çevirməyə nail olduq. Bu xüsusda “AzərEnerji” komandasına öz təşəkkürümü ifadə etmək istərdim.

Buradan Azərbaycan dövlətinə “Enerji müstəqilliyi” strategiyası çərçivəsində göstərdiyi köməyə, Çin Hökumətinə isə “Kəmər və yol” təşəbbüsü çərçivəsində göstərdiyi dəstəyə görə dərin təşəkkürümü bildirirəm. Məhz bu kömək və dəstək sayəsində transsərhəd layihələr coğrafi məhdudiyyətləri aşaraq həyata keçirilə bilmişdir.

Əminəm ki, bu yeni stansiya regional enerji əməkdaşlığı üçün nümunəvi layihəyə çevriləcək.

Qeyd etmək istərdim ki, “Dongfang” şirkəti Azərbaycan bazarında fəaliyyəti çərçivəsində hidroenerji, Günəş, külək və qaz enerjisi istehsalı daxil olmaqla sənaye zəncirinin bütün mərhələlərində texnologiyalarla ölkənizin enerji keçidinə hərtərəfli dəstək göstərməyə, Çin ilə Azərbaycan arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin daha da genişləndirilməsi istiqamətindəki fəaliyyətlərinə davam edəcək.

Sonda “8 Noyabr” Elektrik Stansiyasının təhlükəsiz və dayanıqlı şəkildə işləməsini arzulayır, eyni zamanda, onun Azərbaycanın inkişafına güclü təkan verəcəyinə inanırıq. Çinlə Azərbaycan arasındakı enerji əməkdaşlığı çərçivəsində daha böyük nailiyyətlər əldə etməyimizi və dostluq münasibətlərimizin daha da dərinləşməsini arzulayırıq.

Təşəkkür edirəm, cənab Prezident Əliyev və hər birinizə minnətdaram.

***

“AzərEnerji” ASC-nin enerjinin istehsalı operatorunun direktoru **Üzeyir Yusifov** çıxış edərək dedi:



– Hörmətli möhtərəm cənab Prezident.

Hörmətli tədbir iştirakçıları.

Əvvəlcə möhtərəm cənab Prezident, icazə verin, bu gün ölkəmizin müstəqillik dövrünün ən böyük elektrik stansiyasının istifadəyə verilməsinin açılış mərasimində şəxsən iştirak etdiyinizə görə Azərbaycan energetikləri adından Sizə dərin təşəkkürümüzü və əməyimizi yüksək dəyərləndirərək hər zaman olduğu kimi, bizim üçün belə bir əlamətdar gündə də yanımızda olduğunuzdan qürur hiss etdiyimizi bildirim.

Tarix doğrudan da təkrar olunur. Cənubi Qafqazın hələ də ən böyük istilik elektrik stansiyası sayılan “Azərbaycan” İES-in birinci enerji bloku 1981-ci il oktyabrın 20-də məhz xalqımızın Ümummilli Lideri Heydər Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə işə salınaraq istifadəyə verilmişdir. Fəxr edirəm ki, həmin tədbirdə gənc mühəndis kimi iştirak etmək mənə də qismət olub. Oktyabrın 20-si Azərbaycan energetikasının inkişafında yeni bir mərhələnin əsasını qoydu və sonradan Zati-alinizin Sərəncamı ilə ölkəmizin energetiklərinin peşə bayramı günü kimi təsis edildi.

Keçmiş SSRİ miqyasında ümumxalq tikintisi səviyyəsində inşa edilən “Azərbaycan” İES-in mövcudluğu sovetlər birliyi dağılarkən müstəqil Azərbaycan dövlətinin enerji tələbatının əsas hissəsini qarşılaya bildi, ölkənin enerjisisteminin ən dayanıqlı və etibarlı müəssisəsi oldu.

Möhtərəm cənab Prezident, xoşbəxtik ki, Ulu Öndərin bu möhtəşəm yadigarını Sizin rəhbərliyinizlə biz energetiklər qoruyub saxlaya bildik.



2018-ci ilin iyul hadisələrindən - məlum qəzadan sonra Sizin tapşırığınızla qısa müddətdə hazırlanmış “Reabilitasiya Proqramı” çərçivəsində stansiyada yenidənqurma və əsaslı təmir işləri aparıldı, müəssisəyə ikinci nəfəs verildi. Ölkə əhalisi və iqtisadiyyatı üçün xüsusi əhəmiyyət daşıyan stansiya dayanmaq təhlükəsindən xilas edildi, ömrü ən azı 20 il uzadıldı, etibarlılıq və dayanıqlılığı təmin olundu, 620 MVt itirilmiş generasiya gücü bərpa edildi.

Ölkənin artan güc tələbatının qarşılanması, yaradılan böyük gücdə bərpaolunan enerji mənbələrinin enerjisistemə inteqrasiyasının balanslaşdırılması, enerjisistemin dayanıqlılığının təmin olunması məqsədilə tərəfimizdən daha səmərəli layihənin icrası təklifi verilmişdir. Bu məqsədlə “AzərEnerji” ASC-nin mütəxəssisləri tərəfindən faydalı iş əmsalı 35 faiz və 1 kVts elektrik istehsalına şərti yanacaq sərfiyyatı 340 qram olan “Azərbaycan” İES-in buxar turbinlərinə gücü 320 meqavat olan 4 qaz turbini inteqrasiya etməklə əlavə generasiya gücü yaratmaq, faydalı iş əmsalını 55 faizədək, şərti yanacağı isə 225 qram kilovat-saata qədər stansiyanın layihəsi hazırlandı. Zati-alinizin xeyir-duası ilə 2023-cü il fevralın 13-də “Azərbaycan” İES ərazisində əlavə 1280 MVt gücündə yeni elektrik stansiyasının tikintisinə start verildi.

44 ildən sonra Mingəçevir şəhərində ikinci dəfə böyük gücdə yeni elektrik stansiyasının tikintisində və açılış mərasimində iştirak etməkdən həqiqətən böyük qürur duyuram.

Yeni layihənin ümumi gücünün 1880 MVt-a çatdırılması məqsədilə mütəxəssislərimiz tərəfindən yeniliklər tətbiq edilmiş və texnoloji prosesin tam səmərəliliyinin təmin olunması üçün “Azərbaycan” İES-in iş prinsipinə toxunulmadan digər enerji bloklarını işlək vəziyyətdə saxlamaq şərti ilə 7-ci və 8-ci enerji bloklarının buxar turbinlərinin zəmanətli əsaslarla rekonstruksiya və modernləşdirmə işləri tam başa çatdırılmışdır. Avadanlıqlar yeniləri ilə əvəz edilmişdir. Dövretmə soyuducu su xətləri tamamilə yenilənmiş, nasoslar və soyuducu sutəmizləyici qurğular yeniləri ilə əvəz olunmuş, buxar turbininin idarəetmə, nəzarət və ölçü sistemləri tamamilə müasir texnologiyaya uyğun avadanlıqlarla təchiz edilmişdir.

Mövcud qaz turbin qurğularında ilk dəfə olaraq qaz turbinlərinin qaz təchizatında elektrik qaz kompressoru əvəzinə İtaliyanın “Franco Tosi” şirkətinin istehsalı olan iki ədəd turbokompressor qurğusundan istifadə edilir. Enerjisistemin avtomatlaşdırılması, SCADA və digər müasir idarəetmə sistemlərinin inteqrasiyası sayəsində stansiyanın təhlükəsiz, sabit və səmərəli fəaliyyəti təmin olunmuşdur.

İnteqrasiyanın nəticəsi olaraq yeni tikilən elektrik stansiyasının util qazanlarından çıxan buxar “Azərbaycan” İES-in 7 və 8 saylı buxar turbinlərinə verilir, nəticədə yeni stansiyanın şərti yanacaq sərfiyyatı “Azərbaycan” Elektrik Stansiyasının digər blokları ilə müqayisədə 115 qram azalmaqla 225 qram təşkil edir. Bu da istehsal həcmindən asılı olaraq illik 1 milyard kubmetr təbii qaza qənaət, 2 milyon tona yaxın karbon emissiyasının azalması deməkdir.

Qeyd etmək istərdim ki, yeni layihənin sınaq və işəsalma müddətində maksimal yükə çıxmadan artıq 250 milyon kubmetr təbii qaza qənaət edilmiş, istehsal olunan elektrik enerjisinin həcmi 2,8 milyard kilovat-saat təşkil etmişdir.



Layihənin ərsəyə gəlməsində milli podratçı “BCC-GROUP” və “Elektro İndustries”, İtaliyanın “Ansaldo Energia”, “AFRY” və “Franco Tosi”, Çinin “Dongfang” və “TBEA”, İspaniyanın “İDOM”, Rusiyanın “SRMZ”, Türkiyənin bir sıra aparıcı şirkətlərinin, yerli və xarici mütəxəssislərin xüsusi əməyi olmuşdur.

Dünyanın nüfuzlu enerji şirkətləri və müstəqil texniki ekspertlər – “TEPSCO” (Yaponiya), “McKinsey&Company” (ABŞ), “ABB” (İsveç), Azərbaycan Milli Elmlər Akademiyası, Enerjisistemin Texniki Şurası tərəfindən layihənin texniki-iqtisadi səmərəsi barədə müsbət rəylər verilmişdir.

Daha bir yenilik olaraq qeyd etmək istərdim ki, sınaq-sazlama tədbirləri zamanı mütəxəssislərimiz tərəfindən əlavə 100 ton buxarın yaranması müəyyənləşdirilmişdir. Belə böyük həcmdə buxardan səmərəli istifadə məqsədəuyğun hesab edilmiş və əlavə güc əldə olunması üçün 6-cı buxar turbininə inteqrasiyası tədbirlərinə başlanılmışdır.

Bununla da artıq qalan buxardan istifadə etməklə 1880 MVt-dan əlavə, 90 MVt güc əldə olunacaq və yeni stansiyanın gücü 1970 MVt təşkil edəcəkdir. Eyni zamanda, 6 saylı buxar turbininin inteqrasiyası enerjisistemi və stansiyanı yarana biləcək yük qıtlığından qoruyaraq, istehsal edilən elektrik enerjisinin şərti yanacaq sərfinin 10-15 qram azalmasına, yəni şərti yanacaq sərfinin 210-215 qr/kVt-saata düşməsinə səbəb olacaqdır. “AzərEnerji” ASC olaraq biz bu layihənin uğurla tamamlanmasından qürur duyuruq və əminik ki, bu stansiya uzun illər Azərbaycan xalqına xidmət edəcəkdir.

Möhtərəm cənab Prezident, şəxsən Sizin qüdrətli sərkərdəliyinizlə qazanılan və xalqımızın çoxəsrlik tarixinə qızıl hərflərlə yazılan şanlı Zəfər Günümüz olan 8 Noyabr tarixi adını yeni müəssisəmizə layiq bilməyiniz əməyimizə verdiyiniz ən yüksək qiymətin təzahürüdür və bu möhtəşəm ada hər zaman öz işimizlə layiq olacağımıza Sizi əmin edirik.

Bu əlamətdar hadisə münasibətilə hamını təbrik edir, “8 Noyabr” Elektrik Stansiyasının xalqımıza və dövlətimizə uğur və rifah gətirməsini arzu edirik.

Diqqətinizə görə təşəkkür edirəm.

***

Sonra “8 Noyabr” Elektrik Stansiyasının inşasına həsr edilmiş videoçarx nümayiş olundu.

***

Daha sonra Prezident İlham Əliyev və İtaliyanın şirkətlər və “Made in Italy” naziri Adolfo Urso stansiyanın açılışını etdilər.

Prezident İlham Əliyev və qonaqlar Vətən müharibəsi zamanı Ermənistan tərəfindən bu stansiyaya atılan raketin düşdüyü əraziyə baxdılar.

Qeyd edək ki, 2020-ci il oktyabrın 4-də stansiyanın ərazisinə böyük dağıdıcı qüvvəyə malik “Smerç” reaktiv yaylım atəşli raket atılıb. Raket 6-cı və 7-ci enerji bloklarının arasındakı sahəyə düşüb. Bundan başqa, 2020-ci il oktyabrın 11-də ikinci dəfə atılan raket isə İdarəetmə Mərkəzinin yaxınlığına düşüb.

Müvafiq müdafiə sistemlərinin qabaqlayıcı tədbirləri nəticəsində atılmış raketlər zərərsizləşdirilib.

Sonra dövlətimizin başçısı və açılışda iştirak edən qonaqlar stansiyanın ərazisini gəziblər.

***

Qeyd edək ki, Prezident İlham Əliyevin 2022-ci il oktyabrın 25-də imzaladığı sərəncamla enerji dayanıqlılığının təmin olunması, artan tələbatın qarşılanması, əlavə generasiya güclərinin yaradılması, ixrac imkanlarının artırılması, təbii qaza qənaət edilməsi və ətraf mühitin qorunması məqsədilə Mingəçevir şəhərindəki “Azərbaycan” İstilik Elektrik Stansiyasının (İES) ərazisində müstəqillik dövrünün ən böyük elektrik stansiyasının tikilməsinə qərar verilib. Azərbaycanın peşəkar mühəndislərinin təklifləri əsasında işlənilən layihənin icrasına dünyanın nüfuzlu enerji şirkətləri və müstəqil texniki ekspertləri də cəlb edilib.

Stansiyanın inşası üçün xarici ölkələrdən gəmilərlə 1500-ə yaxın konteyner mal-material gətirilib. Çinin “Dongfang” şirkətindən alınmış, ümumilikdə 40 min kubmetr həcmində 20 min ton çəkisi olan 4 ədəd Util Qazan Çindən gətirilib. Sifariş əsasında İtaliyanın “Ansaldo Energia” şirkəti tərəfindən hazırlanan, ümumi çəkisi 3 min tondan çox olan qaz turbinləri və generatorlar, o cümlədən köməkçi avadanlıq ikinci logistika marşrutu ilə İtaliyadan Bakı limanına çatdırılıb. Hər birinin çəkisi 300 və 400 tondan artıq olan yüklərin qabariti böyük olduğundan Mingəçevirə qədər yolboyu körpülərin altı qazılıb və keçid təmin ediləndən sonra yollar bərpa olunub.

“8 Noyabr” Elektrik Stansiyasının tikinti və quraşdırma işlərində 2500-dən çox xarici və yerli mütəxəssis çalışıb. Stansiyanın dayanıqlı qaz təchizatı üçün 10 kilometr uzunluğunda yeni qaz kəməri inşa edilib, iki yeni qazpaylayıcı və tənzimləyici stansiya tikilib, kompressor qurğuları quraşdırılıb.

“8 Noyabr” Elektrik Stansiyasının enerjisistemə inteqrasiyası üçün “Azərbaycan” İstilik Elektrik Stansiyasının 500 və 330 kV-luq yarımstansiyaları tam yenidən qurulub. Əlavə olaraq 65,6 kilometr uzunluğunda “Mingəçevir-Samux” ötürmə xətti inşa edilib və “Samux” yarımstansiyasında yenidənqurma işləri aparılıb. O cümlədən stansiyada yanğından mühafizə, havalandırma, rəqəmsal idarəetmə, monitorinq və digər zəruri infrastruktur yaradılıb.

Adətən, belə böyük stansiyaların tikintisi 3-5 ilə icra edildiyi halda, Azərbaycan bunu 2 il ərzində həyata keçirə bildi. Dünyanın bir çox ölkələrindəki bənzər layihələrə xərclənən vəsaitlə müqayisədə bu stansiyanın inşasına kifayət qədər az vəsait sərf olunub.

***AZƏRTAC***

# Prezident İlham Əliyevin Mingəçevirdə İtaliya heyəti ilə görüşü



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 24-də Mingəçevirdə İtaliya Respublikasının şirkətlər və "Made in Italy" naziri Adolfo Ursonun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

Söhbət zamanı dövlətimizin başçısının Adolfo Urso ilə görüşləri məmnunluqla xatırlandı.

Prezident İlham Əliyev Adolfo Ursoya "8 Noyabr" Elektrik Stansiyasının açılışında iştirakına görə minnətdarlığını bildirdi, gələcəkdə də birgə layihələrin həyata keçiriləcəyinə ümidvarlığını ifadə etdi.

Qonaq İtaliyanın "8 Noyabr" Elektrik Stansiyasının inşasında iştirakını ölkələrimiz arasında dostluğun və uğurlu əməkdaşlığın göstəricisi kimi dəyərləndirdi.

Azərbaycana dəfələrlə səfər etdiyini xatırlayan Adolfo Urso bu tədbirdə iştirakdan məmnunluğunu bildirdi. O, 2020-ci ildə Gəncə və Ağdam şəhərlərinə səfərinə toxundu.

Dövlətimizin başçısı Adolfo Ursonun işğaldan azad edilmiş torpaqlarımızda Avropa ölkəsini təmsil edən ilk xarici yüksəksəviyyəli şəxslərdən biri olduğunu vurğuladı və buna görə minnətdarlığını bildirdi.

Prezident İlham Əliyev işğaldan azad edilmiş ərazilərimizdə hazırda genişmiqyaslı quruculuq işlərinin aparıldığını və orada artıq 3 beynəlxalq hava limanının istifadəyə verildiyini dedi.

Söhbət zamanı münasibətlərimizin strateji xarakter daşıdığı bildirildi, siyasi əlaqələrimizin çox yüksək səviyyədə olmasından məmnunluq ifadə edildi. Azərbaycan-İtaliya əməkdaşlığının daha da genişləndirilməsində yüksəksəviyyəli qarşılıqlı səfərlərin roluna toxunuldu.

Görüşdə Hökumətlərarası Komissiyanın fəaliyyətinin vacibliyi bildirildi, enerji, o cümlədən bərpaolunan enerji, metallurgiya, kənd təsərrüfatı, əczaçılıq, elm, təhsil, mədəniyyət və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı, İtaliya şirkətlərinin işğaldan azad edilmiş ərazilərimizdə həyata keçirilən bərpa və quruculuq işlərində iştirakı qeyd edildi. "AzərEnerji" ilə "Ansaldo Energia" şirkəti arasında əməkdaşlığın perspektivlərinə dair məsələlər müzakirə olundu.

Sonra xatirə şəkli çəkdirildi.

# Dövlət başçısı Mingəçevirdə Çin şirkətinin rəhbərini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 24-də Mingəçevirdə Çinin "Dongfang Electric İnternational Corporation" şirkətinin İdarə Heyətinin sədri Çen Qianqı qəbul edib.**

Görüşdə "Dongfang Electric İnternational Corporation" şirkətinin "8 Noyabr" Elektrik Stansiyasının inşasında iştirakının roluna toxunuldu, Azərbaycanla Çinin bu şirkəti arasında əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Sonda xatirə şəkli çəkdirildi.

# Erməni vandallığına məruz qalmış "Qərbi Azərbaycan İrsi"

**Dünən "Qərbi Azərbaycan İrsi: Ermənistanda azərbaycanlıların maddi-mədəni irsinin – qəbiristanlıqların sistemli qaydada dağıdılmasının nəticələri və beynəlxalq hüquqi məsuliyyətə dair hesabat və materiallar" kitabının I cildinin təqdimat mərasimi keçirilib.**



Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev, xarici işlər nazirinin müavini Elnur Məmmədov, Baş prokurorun




müavini Elmar Camalov, rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Saməddin Əsədov, Milli Məclisin deputatı, Qərbi Azərbaycan İcması İdarə Heyəti sədrinin müavini Qaya Məmmədov, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini Gündüz İsmayılov, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov, AMEA-nın Tarix və Etnologiya İnstitutunun direktoru professor Kərim Şükürov, Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru, Qərbi Azərbaycan İcmasının Müşahidə Şurasının üzvü professor Gülçöhrə Məmmədova, Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Geodeziya və Kartoqrafiya üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Nazim İsmayılov və Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli təqdimatda çıxış edərək nəşrin mövzusunun əhəmiyyəti, məqsədi və aktuallığı barədə fikirlərini bölüşüblər.

Qeyd olunub ki, Ermənistan ərazisindən zorla çıxarılmış soydaşlarımızın beynəlxalq proses çərçivəsində təhlükəsiz və ləyaqətli şəkildə öz doğma torpaqlarına geriyə qayıtmaları, onların fundamental hüquqlarının bərpa və təmin edilməsi ölkəmizin prioritetləri arasındadır. Müxtəlif dövrlərdə soydaşlarımıza qarşı həyata keçirilən deportasiya nəticəsində onlara məxsus məscidlər və qəbiristanlıqlar kütləvi şəkildə dağıdılıb, yer adları dəyişdirilib. Qeyd edilən deportasiya siyasətinin son dalğası nəticəsində 300 minə yaxın insan öz dədə-baba torpaqlarından məcburi şəkildə çıxarılıb. Nəticədə ,Ermənistan regionda monoetnik dövlətə çevrilib.

Vurğulanıb ki, Qərbi Azərbaycandakı soydaşlarımıza qarşı beynəlxalq hüquqa zidd əməllərin cəzasız qalmasından ilhamlanan Ermənistan 30 ildən çox müddətə Azərbaycan torpaqlarını işğal altında saxlayıb. Ermənilər tərəfindən azərbaycanlılara qarşı yalnız etnik təmizləmə siyasəti həyata keçirilməyib, eyni zamanda, soydaşlarımıza məxsus maddi-mədəni irsin yer üzündən tamamilə silinməsinə yönəlik vandalizm aktları törədilib.

Mərasimdə Qərbi Azərbaycanla bağlı videoçarx nümayiş olunub.

Seriyanın 5 hesabatdan ibarət olması nəzərdə tutulub. I clddə 1991-ci ilə qədər Qərbi Azərbaycan – indiki Ermənistan ərazisində mövcud olmuş, indi isə yalnız xarabalıqları qalmış 700-dən çox azərbaycanlı qəbiristanlığının 201-nin əvvəlki və indiki vəziyyətindən bəhs edilir.

***XQ***

## Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 noyabr tarixli 1113 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 noyabr tarixli 1113 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 11, maddə 1820 (Cild I); 2024, № 5 (I kitab), maddə 529, № 6 (I kitab), maddə 654) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

**1. 5-ci hissə üzrə:**

1.1. 5.5-1–5.5-3-cü bəndlər müvafiq olaraq 5.5-2–5.5-4-cü bəndlər hesab olunsun və aşağıdakı məzmunda 5.5-1-ci bənd əlavə edilsin:

"5.5-1. Elektron kabinet verilmiş şəxsin kabineti aşağıdakı hallarda ləğv edilir və həmin şəxsin göstərmiş olduğu vasitələrdən biri ilə (elektron poçt ünvanı, mobil telefon nömrəsi, poçt ünvanı) ona 5 (beş) iş günü müddətində bu barədə məlumat göndərilir:

5.5-1.1. Azərbaycan Respublikası Prezidentinin müvafiq aktı ilə şəxsin bu Qaydanın 2.1-ci bəndində müəyyən edilmiş şəxslər kateqoriyasına aid olması halı ləğv edildikdə;

5.5-1.2. elektron kabinet verilmiş şəxsin bu Qaydanın 5.3.3-cü yarımbəndinə uyğun olaraq göstərdiyi, şəxsin bu Qaydanın 2.1-ci bəndində müəyyən edilmiş şəxslər kateqoriyasına aid olması barədə məlumatlarda təhrifetmə halları məhkəmə tərəfindən müəyyən olunduqda.";

1.2. 5.5-3-cü bəndin birinci cümləsində "5.5-1-ci" sözləri "5.5-2-ci" sözləri ilə əvəz edilsin;

1.3. 5.6-cı bənd üzrə:

1.3.1. birinci cümləyə "şəxs" sözündən sonra "(bu Qaydanın 2.1-ci bəndi ilə müəyyən edilmiş şəxslər kateqoriyasına sonradan aid olmadığı hal da daxil olmaqla)" sözləri əlavə edilsin;

1.3.2. aşağıdakı məzmunda dördüncü cümlə əlavə edilsin:

"Bu bəndin tətbiqi zamanı bu Qaydanın 5.5-1-ci və 6.2-1-ci bəndlərinin tələbləri nəzərə alınmalıdır.".

**2. 6-cı hissə üzrə:**

2.1. aşağıdakı məzmunda 6.2-1-ci bənd əlavə edilsin:

"6.2-1. "Güzəştli mənzil" sistemi vasitəsilə mənzil seçildikdən sonra onun dəyərini öz vəsaiti hesabına əldə etmək niyyətini bildirmiş ərizəçinin seçdiyi ödəniş üsulunun ipoteka krediti hesabına ödəniş üsuluna dəyişdirilməsinə yol verilmir.";

2.2. 6.5.1-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"6.5.1. bu Qaydanın 5.5-1.1-ci və 5.5-1.2-ci yarımbəndlərində göstərilən hallarda;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 24 iyun 2025-ci il**

# XİN məlumat verir




## XİN İsrail ilə İran arasında atəşkəsi alqışlayır

**İsrail və İran arasında atəşkəs elan edilməsini alqışlayırıq. Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) açıqlamasında qeyd edilib.**

Bildirilib ki, bu inkişaf regionda gərginliyin azaldılması və sabitliyin bərpası istiqamətində mühüm addımdır. "Azərbaycan atəşkəsin əldə olunmasında vasitəçilik edən bütün tərəflərin səylərini yüksək qiymətləndirir, daha çox insan itkisinin və iztirabların qarşısını almaq üçün ona tam şəkildə əməl edilməsinə çağırır. Biz regionda davamlı sülhün, təhlükəsizliyin və əməkdaşlığın möhkəmləndirilməsinə yönəlmiş təşəbbüsləri dəstəkləməyə hazırıq", – deyə XİN-in açıqlamasında vurğulanıb.

## Azərbaycan – BƏƏ diplomatik məsləhətləşməsi

**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə Birləşmiş Ərəb Əmirliklərinin xarici işlər naziri Abdullah bin Zayed Əl Nəhyan arasında telefon danışığı aparılıb.**

Telefon danışığı zamanı Azərbaycanla BƏƏ arasında tərəfdaşlıq, həm ikitərəfli, həm də beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələləri, habelə regional və beynəlxalq təhlükəsizlik vəziyyəti müzakirə olunub.

Tərəflər İsrail–İran toqquşması nəticəsində bölgədə yaranmış təhlükəsizlik vəziyyətindən ciddi şəkildə narahat olduqlarını bildirib, problemlərin diplomatik yollarla həllinin vacib olduğunu vurğulayıblar.

## Çinlə viza rejimi ləğv olunur

**Azərbaycan Xarici İşlər Nazirliyindən bildirilib ki Azərbaycanla Çin arasında viza rejiminin ləğvi ilə bağlı saziş iyulun 16-dan qüvvəyə minir.**



Sazişə əsasən, Azərbaycan Respublikasının etibarlı ümumvətəndaş pasportlarına malik vətəndaşları və Çin Xalq Respublikasının etibarlı ümumvətəndaş pasportlarına malik vətəndaşları digər ölkə ərazisinə daxil olmaq, oranı tərk etmək və yaxın tranzit keçmək üçün hər səfər ərzində otuz (30) gündən çox olmamaqla və hər yüz səksən (180) günlük dövr ərzində ümumilikdə doxsan (90) gün müddətini aşmamaqla viza tələbindən azad edilir.

***XQ***

# Azərbaycan regionun ən böyük energetika dövlətidir

## *Qarabağ Zəfərimizdən ad alan "8 Noyabr" Elektrik Stansiyası isə ölkəmizin yeni güc mərkəzidir*



**Prezident İlham Əliyevin dövlət başçısı olaraq fəaliyyətinin bütün mərhələlərində ölkəmizin elektroenergetika sisteminə, eləcə də paytaxtın elektrik şəbəkəsinə daim diqqət və qayğı göstərilib. Bu sahədə genişmiqyaslı islahatlar gerçəkləşdirilib, yenidənqurma, tikinti işləri böyük vüsət alıb. Dövlətimizin başçısının tapşırığı ilə hazırlanan Reabilitasiya Proqramı çərçivəsində energetika sistemi əsaslı şəkildə modernləşdirilib, "itirilmiş" generasiya gücləri bərpa edilib.**

Dövlətimizin başçısı çıxışlarının birində energetika sistemində görülən işləri yüksək qiymətləndirib, xüsusilə son illərdə həyata keçirilən tədbirlərin enerji təsərrüfatını tamamilə yeniləşdirdiyini, respublikamızı qonşu dövlətlərlə birləşdirən yüksək gərginlikli xətlər çəkildiyini, bir çox yerlərdə yeni yarımstansiyaların tikildiyini, transformatorların quraşdırıldığını bildirib: "Bölgələrə çoxsaylı səfərlərim çərçivəsində mən həmişə maraqlanıram və vətəndaşlardan soruşuram ki, enerji təminatı necədir? Son illər ərzində hər zaman müsbət rəylər eşidirəm. Bu, məni çox sevindirir. Bu, onu göstərir ki, "Azərenerji" və "Azərişıq" bu istiqamətdə çox böyük işlər görürlər...".

Bir sözlə, energetika sahəsində həyata keçirilən çox böyük layihələr sayəsində Azərbaycanda enerji təchizatı ilə bağlı bütün əsas problemlər, demək olar ki, həllini tapıb, respublikamız artıq enerji təminatçısına çevrilib. Belə ki, əvvəlki dövrlərdə ölkəmiz elektrik enerjisi üzrə idxaldan asılı idi. İndi isə həm daxili tələbat ödənilir, həm də bu istiqamətdə ixrac həyata keçirilir.

Prezident İlham Əliyevin iştirakı ilə iyunun 24-də "8 Noyabr" Elektrik Stansiyasının istifadəyə verilməsi də respublikada elektrik enerjisi təsərrüfatının fəaliyyətinin gücləndirilməsinin bariz ifadəsidir. Dövlətimizin başçısı bu mərasimdə çıxış edərək deyib: "Bu gün ölkəmizin energetika sahəsində əlamətdar bir gündür. "8 Noyabr" Elektrik Stansiyasının açılışı çox gözəl hadisədir. Ümumilikdə ölkəmizin enerji potensialını böyük dərəcədə gücləndirəcək bu stansiyanın yaradılması və qısa müddət ərzində bütün işlərin başa çatması ölkəmizin gücünü, potensialını, energetiklərimizin təcrübəsini, peşəkarlığını göstərir".

Dövlət başçısı çıxışında "8 Noyabr" Elektrik Stansiyasının respublikamızın ən böyük elektrik infrastrukturu olduğunu, 1880 meqavat gücündəki qurğunun Azərbaycanın enerji potensialını daha da gücləndirəcəyini, enerji sisteminin səmərəliliyini artıracağını və beləliklə, Mingəçevirin nəinki ölkəmizin, bütövlükdə Cənubi Qafqazın energetika mərkəzi olan statusunu daha da möhkəmləndirəcəyini qeyd edib. Prezident İlham Əliyev, eyni zamanda, hazırda Azərbaycanın elektrik enerjisinin 40 faizindən çoxunun Mingəçevirdə istehsal olunduğunu və görülmüş bütün bu işlərin bir daha Azərbaycanın doğru yolla irəlilədiyini göstərdiyini diqqətə çatdırıb.

Dövlətimizin başçısının 25 oktyabr 2022-ci il tarixli "Azərbaycan Respublikasında elektrik enerjisi təminatının yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlərin həyata keçirilməsi haqqında" sərəncamı da ölkənin elektrik enerjisi ilə fasiləsiz təminatını daha da gücləndirmək, təhlükəsizliyin maksimal səviyyədə əldə olunmasını şərtləndirmək baxımından mühüm önəm daşıyır.

Adıçəkilən sənəddə "Azərbaycan" İstilik Elektrik Stansiyasının modernləşdirilməsi respublikanın enerji dayanıqlığının təmin olunması, əlavə generasiya güclərinin yaradılması, enerji tələbatının qarşılanması, ixrac imkanlarının artırılması, ətraf mühitin qorunması, elektrik enerjisinin istehsalında təbii qaza qənaət edilməsi, iqlim dəyişiklikləri ilə bağlı baş verən kataklizmlərin qarşısının alınması və regionda yeni iş yerlərinin açılması baxımından xüsusi əhəmiyyətə malik olduğu bir daha diqqətə çatdırılır.

Reallaşdırılan layihələr nəticəsində hazırda "Azərbaycan" Elektrik Stansiyasının generasiya gücü 1800 meqavat, "8 Noyabr" Stansiyasının gücü 1880 meqavatdır, Su Elektrik Stansiyasının gücü isə 400 meqavatdan çoxdur. Beləliklə, Azərbaycanın elektrik enerjisinin 40 faizindən çoxu Mingəçevirdə istehsal olunur və bu, nəinki Azərbaycanın, Cənubi Qafqazın əsas energetika mərkəzidir.

Dövlətimizin başçısı çıxışında daha sonra deyib: "Bu layihənin qısa müddət ərzində icra edilməsi, – energetiklər bunu yaxşı bilirlər – rekord nəticə sayıla bilər. Çünki, təxminən, 2 min meqavatlıq elektrik stansiyasının inşa müddəti bir neçə il davam edir – bəlkə də üç il, dörd il, beş il, bəlkə daha da çox. Misal üçün, elə sovet dövründə Mingəçevirdə "Azərbaycan" İstilik Elektrik Stansiyasının inşası 1974-cü ildə başlamışdır və birinci blok 1981-ci ildə istismara verilmişdir. Yəni, 7 ildən sonra 300 meqavat enerji əldə edilmişdir. Biz isə iki il ərzində təxminən 2 min meqavat enerji əldə etmişik və əlbəttə ki, bunun bir çox səbəbləri var. Təbii ki, buna burada mövcud olan energetika bazamız, təcrübəmiz, Azərbaycan energetiklərinin peşəkarlığı, bilikləri, təcrübələri və əlbəttə ki, bizim beynəlxalq tərəfdaşlarımızın da töhfəsi şərait yaratdı".

Dövlətimizin başçısı çıxışında qeyd edib ki, "8 Noyabr" Stansiyasının istismara verilməsi bir çox məqsədləri təmin edəcək. Enerji sisteminin səmərəliliyi yüksələcək, potensial, generasiya gücü artacaq, eyni zamanda, şərti yanacaq sərfiyyatı kəskin aşağı düşəcək və beləliklə, bu, Azərbaycana təbii qaza qənaət etmək üçün imkan yaradacaq. Çünki hər kəs yaxşı bilir ki, Azərbaycan qazına bu gün dünya bazarlarında böyük tələbat var və nə qədər biz daxildə təbii qaza qənaət etsək, ixrac imkanlarımız da bir o qədər artacaq.

Beləliklə, burada şərti yanacağın sərfiyyatının az olması Azərbaycana əlavə qazanc gətirəcək. Təbii olaraq, ölkə təbii qazın qənaətini, eyni zamanda, bərpaolunan layihələrdə görür. Azərbaycan bu istiqamətdə də qabaqcıl dövlətlər sırasındadır.

Göründüyü kimi, energetika sektorunun müasir tələblər səviyyəsində inkişafı, vətəndaşların enerji resurslarına əlçatanlığının və məmnunluğunun təmin olunması Prezident İlham Əliyevin sosial-iqtisadi siyasət kursunun prioritet hədəfləri sırasındadır. Postkonflikt dövründə isə düşməndən təmizlənən ərazilərdə gedən bərpa-quruculuq işləri dövlətimizin başçısının xüsusi diqqətindədir.

Hazırda işğaldan azad edilən Qarabağ və ətraf bölgələrimizdə bərpa işləri sürətlə aparılır. Bu torpaqlarda infrastrukturun yenidən qurulması, energetika sisteminin yaradılması xüsusi diqqətdə saxlanılır.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında energetika sisteminin yaradılmasından bəhs edərkən, bir məsələni xatırlatmaq istərdik. Belə ki, dövlətimizin başçısı 2021-ci il mayın 3-də "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji" zonasının yaradılması ilə bağlı tədbirlər haqqında" sərəncam imzalamaqla respublikamızda "yaşıl enerji" zonasının qurulmasına start verib.

"Yaşıl enerji" zonası layihəsinin Qarabağ və Şərqi Zəngəzurda reallaşdırılmasını potensial imkanlarla bərabər, digər amillər də şərtləndirir. Belə ki, bu gün dünyanın ən qabaqcıl texnologiyaları alternativ enerjidən istifadənin stimullaşdırılmasına və ekoloji tarazlığın təmin edilməsinə yönəldildiyindən, adları çəkilən iqtisadi rayonların bərpayenidənqurma məsələlərində də bu istiqamət əsas götürülür.

Xatırladaq ki, Qarabağ və Şərqi Zəngəzurda "yaşıl enerji" zonası 10 min kvadratkilometr ərazini əhatə edir. Bura daxil olan bölgələr 7200 meqavat Günəş, 2000 meqavat külək enerjisi potensialına malikdir.

Ölkəmizin daxili su ehtiyatlarının isə, təxminən, 25 faizi, yəni illik 2 milyard 560 milyon kubmetri bu ərazilərdə formalaşır. Günəş enerjisi potensialı Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlıda, külək enerjisi potensialı isə Laçın və Kəlbəcərin dağlıq ərazilərində müşahidə olunur. Aparılan təhlilə əsasən, işğaldan azad edilmiş ərazilərdə bütövlükdə 10 min meqavata yaxın bərpaolunan külək və günəş-elektrik enerjisinin istehsalı mümkündür. Regionun Tərtərçay, Bazarçay, Həkəriçay kimi əsas çaylarının və digər kiçik çayların da böyük hidroenerji potensialı var. Həmçinin ilkin təhlillərə əsasən, Kəlbəcərdə günlük 3093 kubmetr, Şuşada isə günlük 412 kubmetr termal su ehtiyatlarının mövcud olması ehtimal edilir.

Yuxarıda qeyd edilənləri yekunlaşdırıb deyə bilərik ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə əldə olunan uğurlar enerji sektorunun inkişafında da özünü aydın şəkildə göstərir. Respublikanın sosial-iqtisadi tərəqqisinin təmin edilməsində mühüm elementlərdən olan bu sahənin inkişafına prioritet istiqamət kimi yanaşılaraq, elektrik enerjisi təsərrüfatında köklü islahatlar həyata keçirilir. Bu prosesin davamlılığı diqqətdə saxlanılır, enerji sisteminin etibarlılığının təmin olunması, bu sahədə mükəmməl infrastrukturun yaradılması üçün ardıcıl və kompleks tədbirlər davam etdirilir.

***V.BİNYATOĞLU***
***XQ***

# Güclü ordu – Güclü dövlət

**(əvvəli 1-ci səhifədə)**

Bəli, məhz bu sualı eşitməkdən yayındığımız, onun ağırlıq yükünün çiyinlərimizdə lövbər salmasından ehtiyatlandığımız üçün Silahlı Qüvvələr Gününün qeyd edilməsinə böyük ölçüdə o qədər maraq göstərməmişik. İndi isə durum fərqlidir. 44 günlük Vətən müharibəsi təkcə hər bir azərbaycanlının özünün özünə deyil, eyni zamanda, ətraf aləmin ona münasibətinə ciddi dəyişiklik edib. Zəfərimiz bizi, obrazlı desək, göylərə yüksəldib. Ordumuzun şanlı tariximizə yeni qəhrəmanlıq salnaməsi həkk etməsi sayəsində artıq heç bir suala cavab verməkdə çətinlik çəkmirik.

"Bizim ordumuz XXI əsrin müharibəsini apardı – müasir, dəqiq, planlı və tam texnologiya üzərində qurulmuş bir müharibə". Bu fikir Prezident İlham Əliyevə məxsusdur. Dövlətimizin başçısının müxtəlif vaxtlarda bildirdikləri fikirlər Silahlı Qüvvələrimizin təkcə döyüş meydanında deyil, planlaşdırmada, koordinasiyada və texnoloji tətbiqdə də dünyaya nümunə göstərdiyinin əyani sübutları ilə zəngindir. Əlbəttə, Prezidentin Şuşa əməliyyatına münasibət baxımından dilə gətirdiyi məqamlar tam fərqli ovqat yaradır. Dövlətimizin başçısının dedikləri ruhumuzun kəhkəşanı kimi səslənir: "Şuşanın azad olunması dünya hərb tarixində bənzəri olmayan unikal əməliyyatdır. Əsgərlərimiz yalın əllə, dağlarla, sıldırım qayalarla döyüşə-döyüşə şəhərə daxil oldular".



Şuşaya qədər isə Ordumuzun Hadrut zəfəri olmuşdu. Ümumən, 44 günlük müharibənin hər günü müstəsna şücaət və qəhrəmanlığa şahidlik edib. Eləcə də 2023-cü ilin sentybarın 19-da başlamış və cəmi 23 saat 45 dəqiqə davam etmiş lokal xarakterli antiterror tədbirləri üç il əvvəlki Zəfər ruhunun tərənnümü kimi yadda qalıb. 2023-cü ildə Qarabağa sahibləndik, ərazi bütövlümüzü və suverenliyimizi tam bərpa etdik. Prezident İlham Əliyevin həmin vaxt bildirdiyi fikirlər də xalqa müqəddəs Zəfərimizin növbəti təntənə anlarını yaşatdı, Ordumuza inamı daha da artırdı: "Antiterror əməliyyatı çox uğurla, peşəkarlıqla keçirilmişdir, hərbçilərimiz böyük qəhrəmanlıq göstərmişdilər. Deyirlər ki, əməliyyat 23 saat neçə dəqiqə çəkmişdir, amma əslində, daha qısa müddət ərzində tamamlanmışdır. Biz bütün nəzərdə tutduğumuz mövqelərə çıxdıq, bütün kommunikasiyalara sahib olduq, bütün təpələri götürdük və faktiki olaraq separatçıların təslim olmaları qaçılmaz idi, labüd idi, təslim olmasaydılar məhv olacaqdılar... Əməliyyat hərb elmi nöqteyi-nəzərindən də çox uğurlu idi. Şuşa əməliyyatına oxşar bir əməliyyat idi. Əlbəttə, Şuşa əməliyyatı xüsusi peşəkarlıq tələb edən əməliyyat idi, amma bu da çox uğurlu idi. Yəni, bütün vəzifələr yerinə yetirildi və beləliklə, separatçılığa son qoyuldu".

Lokal xarakterli antiterror tədbirləri regionda sülhün bərqərar olmasına misilsiz töhfə verdi. Azərbaycanın inamlı qələbəsi bir daha sübut etdi ki, ölkəmizlə ultimatum dilində danışmaq olmaz. Tam qətiyyətlə demək olar ki, Azərbaycanın Qarabağın timsalında öz doğma torpağına sahiblənmək əzmi müasir dünyada görünməmiş haldır.

Ordumuz mütləq qələbə qazanmaq xarakteri ilə nəinki ölkəmizin, bütövlükdə dünyanın hərb tarixində özünün layiqli yerini tutub. Nəzərə alaq ki, dünya gücün dünyasıdır. Güclüsənsə haqlısan və sair bu kimi deyimlərin də əslində, beynəlxalq hüquq normalarından qat-qat üst mövqeyə sahibləndiyini görürük. Bu acı reallığa təəssüflənsək də, ölkəmizin ona münasibətdə adekvat davranmaq bacarığından qürur və fəxarət hissi keçiririk. Ordumuzun rövnəqləndirdiyi bu hissin memarı isə Prezident İlham Əliyevdir.

Bəli, İlham Əliyevin lider obrazı xalqımızın yaddaşında yalnız Prezident yox, həmçinin Müzəffər Ali Komandandır. İlham Əliyev əsl sərkərdədir və onun bu xarakteri özünü həm hərbi, həm də siyasi-diplomatik müstəvidə göstərir. Bu günün Azərbaycan Ordusu İlham Əliyevin xarakteri ilə uzlaşmış yenilməz peşəkar komandadır. Bu komanda üçün Vətən torpağının hər qarışı doğmadır. Bu komanda Vətən torpağının hər qarışını qanla suvarmağa hazır mütəşəkkil birlikdir. Elə bir birlik ki, onun beynəlxalq aləmə səs saldığı Qarabağ nidası təkcə bir xalqın yenilməzlik düsturu yox, həm də beynəlxalq aləm üçün böyük rəşadət nümunəsidir.

Əlbəttə, Ordumuzun və Silahlı Qüvvələrimizin peşəkarlığı barədə çox fikirlər səslənib. Onların hamısının üzərində dayanmaq istəməzdik. Amma yalnız bir məqamı vurğulayaq ki, İkinci Dünya müharibəsindən sonrakı hərbi qarşıdurmalarda və müharibələrdə heç bir tərəf mütləq qələbə qazanaraq haqqı olana sahiblənməyi bacarmayıb. Bunu bacaran tək ölkə Azərbaycandır.

Prezident İlham Əliyevin siyasi xətti "güclü ordu-güclü dövlət" formuluna əsaslanır. Müasir, döyüşqabiliyyətli, texniki cəhətdən yüksək səviyyədə təchiz olunmuş Orduya əsaslanmış bu formul, eyni zamanda, ölkəmizin, əsas strateji yanaşmasını təşkil edir. Hazırda dünyada baş verənləri nəzərə alsaq, mövcud yanaşmanın daha əməli tədbirlərlə zənginləşməsinə ciddi ehtiyac duyulmaqdadır və Azərbaycan dövləti bu ehtiyacı dəyərləndirir.

Ölkəmizin rəhbərliyi Ordu quruculuğu prosesini daim dərinləşdirir ki, mövcud dəst-xətdə başlıca halqanı həyata keçirilən tədbirlərin vətənpərvərlik prinsipləri əsasında aparılması təşkil edir. Elə buna görə də Prezident İlham Əliyev bildirib ki, Azərbaycan Ordusu təkcə döyüş meydanında yox, mənəviyyatda da qalib ordudur. Əminik ki, xalqımızın yüksək mənəviyyat daşıyıcılarının simvoluna çevrilmiş Ordumuzun yüksəklərə qaldırdığı Vətənimiz Azərbaycan daha böyük uğurlara imza atacaqdır.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# İqtisadi Şuranın iclası keçirilib



İyunun 24-də İqtisadi Şuranın növbəti iclası keçirilib.

Nazirlər Kabinetindən bildiriblər ki, İqtisadi Şuranın sədri, Baş nazir Əli Əsədovun rəhbərliyi ilə keçirilən iclasın gündəliyində Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 27 dekabr tarixli 268 nömrəli Fərmanından irəli gələrək Hökumətə verilən tapşırıqların icra vəziyyəti və görülmüş işlər, o cümlədən sahibkarların dövlət qurumlarına müraciətinin elektronlaşması və xidmətlərin rəqəmsallaşması, "Mygov Biznes" altsisteminin yaradılması və rəqəmsallaşmayan dövlət xidmətlərinin "ASAN xidmət"də göstərilməsi, dövlət xidmətlərinin və alınan ödənişlərin optimallaşdırılması, xidmət haqlarının məbləğinə və hüquqi əsasına baxılması və digər cari məsələlər ətraflı müzakirə olunub.

Gündəlikdə olan məsələlər üzrə iqtisadiyyat naziri Mikayıl Cabbarovun məruzəsi dinlənilib.

Sonra ədliyyə naziri Fərid Əhmədov, rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev Azərbaycan Respublikası Prezidentinin fərmanından irəli gələn tapşırıqlarla bağlı çıxış ediblər.

Təqdim olunan iqtisadi gündəliyə dair İqtisadi Şuranın üzvləri tərəfindən geniş müzakirələr aparılıb.

İclasın yekununda İqtisadi Şuranın üzvlərinin rəy və təklifləri nəzərə alınmaqla qərarlar qəbul olunub və aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilib.

***XQ***

# Yunanıstanlı diplomatlar da İrandan Azərbaycana keçiblər

**"Astara" dövlət sərhədinin buraxılış məntəqəsində xarici ölkə vətəndaşlarının təxliyəsi uğurla davam edir. Son təxliyə əməliyyatlarında Yunanıstanın İrandakı diplomatik nümayəndəliyinin əməkdaşları da yer alıblar.**

Təhlükəsizlik tədbirlərinin tam şəkildə təmin olunduğu təxliyə prosesi əvvəlcədən razılaşdırılmış beynəlxalq prosedur və qaydalara uyğun şəkildə həyata keçirilib. Yunanıstanlı diplomatlar "Astara" dövlət sərhədinin buraxılış məntəqəsində Azərbaycan tərəfindən nəzakətlə qarşılanıb, onların sənədləri yoxlanılıb, ilkin tibbi nəzarət aparılıb və daha sonra xüsusi nəqliyyat vasitələri ilə Bakı şəhəri istiqamətində yola salınıblar.



Qeyd edək ki, Azərbaycan son günlərdə bir sıra ölkələrin vətəndaşları və diplomatik nümayəndələrinin İrandan təhlükəsiz təxliyəsini təmin etməklə beynəlxalq ictimaiyyətin etimadını bir daha qazanıb. Bu proses Azərbaycanın humanitar prinsiplərə sadiqliyini və regional sabitliyə verdiyi töhfəni nümayiş etdirir.

***XQ***

# Milli Məclisin növbəti iclası



**İyunun 24-də Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin növbədənkənar sessiyasının növbəti plenar iclası keçirilib. Gündəlikdə yer alan 12 məsələ müzakirə edilib.**

İlk 4 məsələnin üçüncü oxunuşda qanun layihələri olub. Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov "İstilik təchizatı haqqında", Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "İcra məmurları haqqında", "İcra haqqında" və "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" qanunlarında dəyişiklik edilməsi, Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov Vergi Məcəlləsində, "Bələdiyyələrin statusu haqqında", "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında", "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında", "Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında" və "Bələdiyyələrin vergi xidməti orqanı haqqında Əsasnamənin təsdiq edilməsi barədə" qanunlarda dəyişiklik edilməsi, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov isə İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə qanun layihələri haqqında məlumat veriblər. Müzakirələrdən sonra hər 4 qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Növbəti məsələ "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım haqqında Müqavilə"nin təsdiq edilməsi barədə qanun layihəsi olub. Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov bu məsələ barədə məlumatı təqdim edib. Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Sonrakı 7 məsələ isə birinci oxunuşda qanun layihələri olub. İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini diqqətə çatdırıb. Bildirilib ki, qanun layihəsi gömrük borcunun ödənilməsi sahəsində məsul subyektlərin dəqiq müəyyənləşdirilməsi məqsədini daşıyır. Elm və təhsil komitəsinin sədri Anar İsgəndərov "Təhsil haqqında" və "Məktəbəqədər təhsil haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsinə dair məlumat verib.

Aqrar siyasət komitəsini sədri Tahir Rzayev Torpaq Məcəlləsində, Mülki Məcəllədə, Mənzil Məcəlləsində, Şəhərsalma və Tikinti Məcəlləsində, "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında", "Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında Əsasnamənin təsdiq edilməsi barədə" və "Daşınmaz əmlakın dövlət reyestri haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim edib.

İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fazil Mustafa "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" və "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi barədə məlumat verib. Komitə sədri bildirib ki, layihədə nəzərdə tutulan dəyişikliklər qeyri-hökumət təşkilatı tərəfindən xidmətlərin göstərilməsi və işlərin görülməsinə dair qüvvədə olan mövcud tələblərin daha da təkmilləşdirilməsi və şəffaflaşdırılması məqsədi daşıyır.

Mülki Prosessual Məcəllədə, Cinayət-Prosessual Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini deputat Kamal Cəfərov təqdim edib. O bildirib ki, qanun layihəsinin əsas məqsədi milli qanunvericiliyi beynəlxalq standartlara uyğunlaşdırmaq, hüquqi boşluqları aradan qaldırmaq və bir sıra normativləri təkmilləşdirməkdir.

"Büdcə sistemi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi ilə bağlı deputat Vüqar Bayramov məlumat verib. O bildirib ki, layihə "Büdcə sistemi haqqında" Qanunun tətbiqi təcrübəsi, həmçinin dövlət büdcəsinin icrası ilə bağlı qanun layihələrinə dair Hesablama Palatasının rəyləri nəzərə alınmaqla büdcə qanunvericiliyinin təkmilləşdirilməsi məqsədilə hazırlanıb.

Sonuncu məsələ olan "Dövlət borcu haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı məlumatı da Vüqar Bayramov diqqətə çatdırıb. Bildirilib ki, sənəddə dövlət büdcəsindən verilən büdcə ssudalarının həmin ssudaları alan təşkilatlar tərəfindən geri qaytarılmaması halında qeyd olunan ssudaların Dövlət Borcu və Zəmanəti üzrə Öhdəliklərin Təminat Fondu hesabına bağlanılması (ödənilməsi) nəzərdə tutulur.

Qanun layihələri səsə qoyularaq birinci oxunuşda qəbul olunub.

***XQ***

# Bakı sülhə sadiqdir, bəs İrəvan?

(əvvəli 1-ci səhifədə)

İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlər Azərbaycana torpaqların işğaldan azad edilməsi işində daim siyasi-diplomatik dəstək veriblər. Türkiyə və Pakistan, beynəlxalq təzyiqlərə baxmayaraq, 44 günlük müharibə zamanı Azərbaycanın haqq işini müdafiə etməkdən çəkinmədilər. Səudiyyə Ərəbistanı, Pakistan, Özbəkistan, Türkiyə Ermənistanla diplomatik əlaqələri bu gündə tam bərpa etməyiblər.

İƏT-in İstanbulda keçirilən 51-ci sessiyasında Ermənistan–Azərbaycan normallaşma prosesini təhdid edən çağırışlardan ətraflı danışılıb. Təkilata üzv ölkələrin XİN rəhbərləri çıxışlarında İƏT coğrafiyasında artan geosiyasi gərginliyin fonunda meydana gələn siyasi, iqtisadi, humanitar, ətraf mühit və təhlükəsizlik çağırışları, onlarla mübarizədə əməkdaşlıq, habelə postmünaqişə dövründə regional vəziyyətdən bəhs ediblər. Tədbirdə, həmçinin dünyada artan islamofobiya meyillərinin narahatlıq doğurduğu, Azərbaycanın bu təhdidin bütün forma və təzahürlərini qətiyyətlə pislədiyi, bu zərərli tendensiyaya qarşı mübarizədə İƏT çərçivəsində göstərilən təşəbbüsləri dəstəklədiyi nəzərə çatdırılıb.



Üstündən bir gün keçməmiş Ermənistan XİN-in İstanbul qətnamələri ilə bağlı təhrif və saxtakarlıqla dolu açıqlaması yayıldı. Həmin bəyanatı hazırlayanların özlərinin belə orada sadalanan yalan və dezinformasiyaya inanmadıqları şəksizdir. "Ermənistanın sülhə sadiqlik iddiası onun hərəkətləri ilə uyğun gəlmir". Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Ermənistan XİN-in bəyanatını şərh edərkən diplomatik cəhətdən olduqca dəqiq ifadə seçib. O, şərhində birmənalı şəkildə bildirir ki, Azərbaycan ardıcıl olaraq, ərazi bütövlüyü və suverenliyə qarşılıqlı hörmət əsasında sülh sazişinin tərəfdarı olduğu halda, Ermənistan dəfələrlə kritik məsələlərə yanaşmada qeyri-konstruktiv mövqe nümayiş etdirməklə tərəqqiyə mane olub.

"İƏT-in Ermənistanı gecikmədən sülh sazişinin imzalanmasına maneələri aradan qaldırmağa çağırması beynəlxalq ictimaiyyətin Cənubi Qafqazda davamlı sabitliyi təmin edən həll üzrə gözləntiləri ilə üst-üstə düşür" – deyilən açıqlamada Ermənistanın İƏT-in prinsipial mövqeyini siyasiləşdirmək və öz hərəkətlərinə görə məsuliyyətdən yayınmaq cəhdlərinin Azərbaycanı ədalətli və davamlı sülh əldə etmək səylərindən çəkindirməyəcəyi vurğulanır. XİN rəsmisinin şərhi bu sölərlə bitir: "Ermənistanı revizionist ritorikasından əl çəkməyə və tarixi məsuliyyətini etiraf etməyə çağırırıq".

***

Həqiqətən də, vəziyyətin paradoksallığı heyrət doğurur. 700 mindən artıq azərbaycanlını köçkün vəziyyətinə salan və 2023-cü ildə Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpası ilə yekunlaşan münaqişə məhz işğalçı tərəfin günahı ucbatından özünün məntiqi sonluğuna – sülh anlaşmasına çata bilmir. Azərbaycan ərazilərinin Ermənistan tərəfindən təxminən 30 il davam edən qanunsuz işğalı kontekstini nəzərə alsaq, bu gün İrəvanın 2023-cü il antiterror tədbirlərini tərsinə yozmaq cəhdi eyni dərəcədə əsassızdır. Bu faktı təkcə İƏT üzvü olan müsəlman ölkələri deyil, bütün dünya bilir.

Azərbaycan İƏT-in fəal üzvlərindən biridir. Təşkilat İslam dünyasını narahat edən məsələləri daim gündəmə gətirir. Rəsmi Bakı Yaxın Şərqdəki gərginliklə bağlı da obyektiv mövqe göstərib. İstanbul Bəyannaməsində Azərbaycan və Ermənistan arasında normallaşma prosesində əldə olunan irəliləyişlər alqışlanıb. Bəyannamədə Azərbaycanın Qarabağda bərpa-yenidənqurma işlərinə və minatəmizləmə səylərinə dəstək də ifadə edilib. Bu istiqamətdə fəaliyyətin davam etməsi dünyada işğala, etnik təmizləməyə, soyqırımlara qarşı beynəlxalq təpkini də gücləndirə bilər.

Bu gün Azərbaycan işğal illərində ermənilərin Qarabağda, Şərqi Zəngəzurda viran qoyduqları yurd yerlərinin bərpası, Ermənistanın törətdiyi cinayətlərin izlərini aradan qaldırmaqla məşğuldur. İƏT-in İstanbul toplantısında qəbul etdiyi "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzünün nəticələrinin aradan qaldırılması" adlı qətnamə konkret olaraq bu məsələyə həsr edilib. Sənəddə Ermənistanın ölkəmizə qarşı nəticələrinin hələ də davam etdiyi təcavüzü bir daha qətiyyətlə pislənib, münaqişədən sonra azad edilmiş ərazilərdə Azərbaycanın apardığı bərpa və yenidənqurma işləri dəstəklənib. Yəni, İƏT bununla həm də müsəlman ölkələrinin işğaldan sonrakı dövrdə Azərbaycanın gördüyü işləri təşviq etməklə yanaşı, ona yardım məsələsini gündəmə gətirib.

***

Azərbaycanın işğaldan azad edilmiş torpaqlardakı problemlərindən biri də ərazilərin minalardan təmizlənməsidir. Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin məlumatına əsasən, ikinci Qarabağ müharibəsindən sonra mina qurbanlarının sayı 388-ə çatıb. Onlardan 70-i həlak olub, 318-i isə xəsarət alıb.

"Sakit terror"un nəticəsinin aradan qaldırılması ilə bağlı məsələ də İƏT-in sessiyasının qətnaməsində öz əksini tapıb. "Azərbaycan Respublikasına iqtisadi dəstək" adlı sənəddə üzv dövlətlər, habelə İslam maliyyə institutları Azərbaycanın yenidənqurma, habelə minatəmizləmə fəaliyyətinə dəstək göstərməyə çağırılıb.

Onu da qeyd edək ki, ilkin hesablamalara əsasən, Ermənistan işğal dövründə Azərbaycan ərazilərindəki tarix və mədəniyyət abidələrinə 177 milyard dollardan çox ziyan vurub. Bunun üzərinə torpağımıza, meşələrimizə, çaylarımıza, havamıza vuduqları zərəri də gəlmək lazımdır.

Beləliklə, İƏT-in XİN Şurasının İstanbul sessiyası işğaldan sonrakı dövrdə Azərbaycanın üzləşdiyi problemlərin beynəlxalq ictimaiyyətə, o cümlədən İslam dünyasına çatdırılması baxımından bir fürsət oldu. Bu toplantıda qəbul olunan qətnamələr işğaldan azad olunan Azərbaycan ərazilərində müsəlman dövlətlərinin quruculuq, yenidənqurma və bərpa işlərində fəaliyyət göstərmələri üçün çağırışdır.

***İmran BƏDİRXANLI***
***XQ***

## Ekspert rəyi

**Rasim MUSABƏYOV,**
**Milli Məclisin deputatı, politoloq**



– Bu gün Ermənistan hər cəhətdən məyusdur. Həm hökumət, həm cəmiyyət, həm də bir toplum kimi. Bu məyusluq təkcə İstanbulda İƏT-in qəbul etdiyi qətnamələrlə bağlı deyil. Axı, onların İrana ümidləri böyük idi. Yəni, cənub qonşusuna arxalanıb, Azərbaycana qarşı məlum inadkarlığını davam etdirə biləcəyinə bel bağlayırdı. Amma bütün bu gözləntilər özlərinin gözü qarşısında dağıldı.

İslam Əməkdaşlıq Təşkilatının da öz növbəsində müsəlman ölkəsi olaraq Azərbaycana dəstək verməsi Ermənistan hakimiyyətinin kefini əməlli-başlı pozub. Söhbət heç də ondan getmir ki, bu qətnamələrin nəticəsində rəsmi İrəvan əvvəlki qeyri-konstruktiv siyasi xəttindən imtina edəcək. Sadəcə, onların hər tərəfdən, hətta umduqları və gözlədikləri ölkələrdən də dəstəkləri yoxdur. İrəvana nə ABŞ-dan, nə də İrandan köməklik göstərilir. Axı, İrəvan Tehranla münasibətlərini yumşaltdığına görə Vaşinqtonun əvvəlki hərbi-siyasi dəstəyinə bel bağlaya bilməz. Hazırda Paşinyan hökumətinin Rusiya ilə də münasibətləri olduqca neqativ müstəvidədir. Yəni, reallıq ondan ibarətdir ki, bu gün Moskvanın özü heç kəsə köməklik göstərmək iqtidarında deyil. Pərakəndə vəziyyətə düşmüş Avropa İttifaqının isə Ermənistana siyasi ritorikadan savayı, verməyə heç nəyi yoxdur. Bütün bunlar göz qabağındadır.

Azərbaycanın müstəqil və ardıcıl siyasəti Ermənistanı irəli sürdüyümüz şərtləri yerinə yetirməyə vadar edib. Həmin şərt və tələbləri daha da kəskinləşdirmədiyinə görə İrəvan Bakıya təşəkkür etməlidir. Axı, onlar 30 il müddətində işğalda saxladıqları torpaqlarımızı viran qoymuş, insanlarımıza zülm vermişdilər. Bu cinayətlərə görə onlara güzəştə getmək deyil, cəza tədbirləri tətbiq edilməlidir. Bəli, hayların törətdikləri cinayətlərlə müqayisədə Azərbaycanın tələbləri kifayət qədər yumşaqdır. Ağıllarını başlarına yığıb həmin yumşaq şərtləri qəbul etsələr, münaqişəni sülhlə tamamlaya bilərlər.

İƏT-in Azərbaycanın mövqeyinə və baxışlarına dəstək nümayiş etdirməsi tam təbiidir. İrəvan bu barədə ciddi düşünməlidir. Bu, Bakının haylara ünvanladığı növbəti çağırışdır. Təki düzgün qiymətləndirsinlər.

# İki dost, qardaş və müttəfiq



III MƏQALƏ

## Dostluq və qardaşlıqdan strateji müttəfiqliyə

Dövlətlərarası münasibətlərə hər şeydən öncə prinsipial, ciddi və syasi-nəzəri təməli hüquqi tənzimlənən fenomen kimi baxılmalıdır. Söhbət dövlətdən gedirsə, hər bir emosional məqam arxa plana atılmalıdır. İki müstəqil dövlət tarix, din, dil, mədəniyyət, dünyaduyumu, birgəyaşam tərzi və başqa vacib sosial-mədəni, mənəvi, psixoloji sferalar üzrə yaxın olsalar da, dövlət kimi münasibətlərin öz qaydası vardır. Burada hər bir dövlətin maraqları və strateji inkişaf təsəvvürləri ciddi olaraq nəzərə alınmalıdır. Əgər iki dövləti müstəqil qəbul edib, onları mürəkkəb, açıq sistem kimi təsəvvür ediriksə, onda onların qarşılıqlı münasibətlərini fəlsəfi anlamı olan "kommunikativ münasibətlər" kateqoriyasına aid edə bilərik. Bu anlamda müasir fəlsəfi, siyasi, nəzəri, elmi yanaşmaların qənaətləri prizmasından baxanda bir maraqlı məqamı görmək mümkündür.

## Münasibətlərin nəzəri dərki

Talkot Parsons sosial fəaliyyətin baza mənasını izah edərkən yazırdı ki, hər bir kommunikativ situasiya kontingent xarakterlidir. Yəni istənilən halda iki və daha çox obyektin sosial qarşılıqlı təsiri iştirakçıların heç birindən tam asılı olmayaraq formalaşan situasiyadır. Bu situasiyanın kontentləri (yəni təşkiledici faktorları) olur. Nəticədə hər bir anda obyektlər (subyektlər, sistemlər, insanlar, cəmiyyətlər, dövlətlər və s.) arasında münasibətlərdə qeyri-müəyyənlik məqamı mövcud olur. Dərketmə hadisəsi olaraq Maykl Polani bu cür vəziyyəti hər zaman müəyyən qeyri-aşkar biliyin mövcud olması səbəbi ilə əlaqələndirir. Yəni istənilən situasiyada onun iştirakçılarının tam dərk edə bilmədiyi məqamlar mütləq surətdə var olur.

Belə olan halda subyektlər arasında münasibətlərdə həmişə bir qeyri-müəyyənlik olmalıdır. Vəziyyətdən müsbət anlamda çıxış yolu münasibətlərin dialoq formasına üstünlük verməklə bağlıdır. Lakin burada N.Lumanın da ümumnəzəri səviyyədə vurğuladığı "ikiqat mesaj" faktoru özünü göstərir (çox sayda tanınmış alim bundan istifadə etmişdir, məsələn, Qreqori Beytson "zəkanın ekologiyası"ndan həmin bağlılıqda bəhs etmişdir və s.). Deməli, insan idrakı prinsipial olaraq heç zaman hər hansı situasiyanı tam aydın qavraya bilmir.

Dialoq bu baxımdan münasibətlərin pozitiv və ortaq nəticə əldə etmək üçün ən yaxşı kommunikasiya metodudur. Politoloqlar, beynəlxalq münasbətlər üzə araşdırmaçılar, strateqlər ümumelmi yanaşmadan gələn bu qənaətləri dövlətlərarası münasibətlərə tətbiq edirlər (və ya reduksiya edirlər).

## Dövlətlərarası münasibətlərdə öhdəlik və məsuliyyət

Ümumi nəzəri yanaşmadan belə alınır ki, dövlətlərarası münasibətlərdə iştirakçıların özündən asılı olmayaraq həmişə tam aydınlaşmayan informasiyalar, təsirlər və biliklər olacaqdır. Deməli, burada söhbət dövlətlərarası münasibətlərin tənzimlənməsi və neqativ təsirlərə müqavimət ciddi rol oynayır. Münasibətlərin tənzimlənməsi səmimi dialoqa, müqavimət isə qeyri-müəyyən situasiyalara (qeyri-aşkar informasiyalara, biliklərə və s.) ortaq maraqların təmini prinsipinə əməl etməklə reaksiya verməyə əsaslanmalıdır.

Belə alınır ki, dövlətlərarası münasibətlərin əsl strateji xarakteri onlar arasında hansısa qeyri-müəyyənliyin heç zaman meydana gəlməməsi ilə deyil, hər zaman meydana çıxa biləcək qeyri-müəyyənliklərə qarşı maksimum dirəniş göstərmək, dost və qardaş dayanışması nümayiş etdirmək və ortaq maraqların təmin edilməsinə istiqamətlənməklə bağlıdır.

Bu baxımdan hər hansı sualın və ya anlaşılmazlığın meydana gəlməsi təşviş yaratmamalı, ondan ayrılıqçı nəticələr çıxarılmamalı və dost olmaq istəməyən dairələrə əlavə şans verilməməlidir.

Lakin dövlətlərarası münasibətlər üçün burada bir vacib xüsusiyyət də vardır. Məsələ onunla bağlıdır ki, strateji müttəfiqliyin siyasi-hüquqi təmini rəsmən təsbit edilməlidir ki, tərəflər ona praktikada əməl etsinlər. Yəni rəsmi imzalanmış hüquqi xarakterli sənəd həm də məsuliyyətdir, verdiyi sözlərə əməl etmək öhdəliyidir. Vədlər, öhdəliklər, hüquqlar, məhdudiyyətlər və s. dövlətlərarası münasibətlərin elementləri kimi münasibətlərin tənzimlənməsinə aid olan konkret sənədlərdə aydın və dəqiq ifadə edilməlidir.

## Şuşa Bəyannaməsi – müttəfiqlik zirvəsi

Bu, müasir dövrdə bir sıra baxımdan tarixi əhəmiyyəti və özəlliyi olan siyasi-hüquqi sənəddir. O, iki müstəqil dövlət arasında münasibətləri tənzimləyən və beynəlxalq hüququn bütün qaydaları üzrə hazırlanmışdır. Şuşa Bəyannaməsinin məzmunu, mahiyyəti və məqsədləri onun strateji müttəfiqliyə aid olduğunu təsbit edir. Yəni Şuşa Bəyannaməsi elə məzmun və məqsəddə hazırlanmışdır ki, iki müstəqil dövlət arasında münasibətləri strateji olaraq müttəfiqlik kateqoriyasına aid etmək mümkündür. Məhz bu anlamda Azərbaycan-Türkiyə strateji müttəfiqliyi özündə hər iki ölkənin cəmiyyətlərindən qaynaqlanan dostluq və qardaşlığın institusional özəlliklərini ehtiva etməkdədir.

Belə alınır ki, Şuşa Bəyannaməsində toplumlardan gələn dostluq və qardaşlıqdan siyasi müttəfiqliyə məntiqi keçid olduğu kimi, sənədin hüquqi ruhu kontekstində strateji müttəfiqlikdən qardaşlıq və dostluğa keçid mövcuddur. Bu qarşılıqlı bağlılıq dünya təcrübəsində dostluq, qardaşlıq və siyasi müttəfiqliyə özəl məna və məzmun verməkdədir. Həmin məqam hələ öyrənilməlidir. Biz burada sənəddəki bir neçə müddəadan çıxış edərək strateji müttəfiqliyin Azərbaycan-Türkiyə nümunəsinə "Qəhrəmanmaraş tezis"i fonunda nəzər salmağa çalışacağıq.

## Dostluq və qardaşlığa sadiqlik

Bəyannamədə vurğulanır ki, Azərbaycan və Türkiyə dostluq və qardaşlığa əsaslanaraq və Qars müqaviləsinə sadiq qalaraq sənədi imzalayırlar. Bu o deməkdir ki, Şuşa Bəyannaməsi dostluq, qardaşlıq və hüquqiliyin üzərində bərqərar olmuş dövlətlərarası münasibətlərə aid sənəddir.

Onun üç sütun prinsipinin ikisi türklüklə bağlıdırsa, münasibətlərin tənzimlənməsində başlıca şərt hüquqiliyin təminidir. Əlbəttə, dostluq və qardaşlıq bütövlükdə iki dövlət arasında münasibətlərin "tarixi, mədəni, ideoloji, dəyər, siyasi kompası" rolunu oynamalıdır. İki türk dövlətinin münasibətlərini həmin çərçivə daxilində qurmaları şərtdir. Bununla yanaşı, dövlət olaraq münasibətlərin tənzimlənməsi beynəlxalq hüquqi zəminə əsaslanır. Qars müqaviləsinin burada xüsusi yer tutması müasir müstəqil dövlətçiliyin mövcud ola bilmə şərtləri ilə bağlıdır. Türkiyə ilə münasibətlərdə həmin şərtlərin hüquqi məzmununu Bəyannamədə vurğulandığı kimi "9 fevral 1994-cü il tarixində imzalanmış "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında dostluq və hərtərəfli əməkdaşlığın inkişafı barədə Müqavilə"ni və "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında əməkdaşlıq və qarşılıqlı yardım haqqında Protokol"u, eləcə də 16 avqust 2010-cu il tarixində imzalanmış "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında Müqavilə"ni rəhbər" tutmaq təşkil edir.

Bununla Bakı və Ankara dəqiq hüquqi çərçivədə dostluq və qardaşlığa əsaslanan münasibətlərin Qars müqaviləsindən başlayan, 1994-cü il və 2010-cu il sənədləri ilə müasir şərtlərə uyğunlaşan siyasi-hüquqi münasibətlər sisteminə keçmişlər.

Prezident İlham Əliyevin "Qəhrəmanmaraş tezis"inin yeni tarixi mərhələdə mənasının ana xəttini bu bağlılıq təşkil edir. Azərbaycan lideri yığcam şəkildə dostluq və qardaşlığı hüquqi anlamda müttəfiqliklə eyni məntiqi bucaq altında ifadə edə bilmişdir.

## Ölkə və xalqların qardaşlığı

Şuşa Bəyannaməsində bir məqam da tam yerində vurğulanmışdır. Orada yazılmışdır: "İki ölkə və onun xalqları arasındakı dostluq və qardaşlıqdan çıxış edərək Azərbaycan Respublikası və Türkiyə Respublikası arasındakı münasibətlərin keyfiyyətcə yeni, müttəfiqlik səviyyəsinə qaldırılmasının iki ölkə və onların xalqlarının maraq və mənafelərinə xidmət etdiyini vurğulayaraq...". Məhz bu fundamental məqam "Qəhrəmanmaraş tezis"ində çox yığcam və konkret ifadə edilmişdir: Azərbaycan-Türkiyə strateji müttəfiqliyi dostluq və qardaşlığa dayanan birlik nümunəsidir.

Burada Prezidentin yeni tezisində daxili məntiqi ifadə edilmiş və Şuşa Bəyannaməsində ayrıca qeyd edilən iki məqama çıxış vardır.

## Ümumi maraqların qorunması

Birincisi, hər iki dövlət ümumi maraqların qorunmasını öhdələrinə götürürlər. Sənəddə bu məqam aşağıdakı kimi ifadə edilmişdir: "Ümumi maraqların qorunmasında hər iki ölkənin siyasi, iqtisadi, müdafiə, mədəni, humanitar, səhiyyə, təhsil, sosial, gənclər və idman sahələrindəki imkan və potensiallarının birləşdirilməsinin mühüm əhəmiyyətini dərk edərək", münasibətlər qururlar. Yəni vurğulanan anlamda öhdəliyin dəqiq məna əsası mövcuddur.

## Beynəlxalq hüquq

İkincisi, "Beynəlxalq hüququn prinsip və normalarına, o cümlədən də Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə uyğun olaraq qlobal və regional sülh, sabitlik və təhlükəsizliyin təmin edilməsində birgə səylərin davam etdirilməsinin vacibliyini vurğulayaraq", tərəflər fəaliyyət göstərəcəklər. Bu əlamət hazırda özünü tam gücü və əhatəsi ilə göstərir.

Beləliklə, "Qəhrəmanmaraş tezis"inin yeni tarixi mərhələ üçün vacib prinsipial strateji hədəfinin ümumi siyasi-nəzəri cizgisi tam aydınlaşır: dostluq, qardaşlıq, ortaq maraqlar və beynəlxalq hüquqa dayanan müttəfiqlik! Digər bütün əməkdaşlıq və birlik istiqamətləri bu dörd faktorun siyasi və məntiqi çətiri altında məzmun almışdır! Onların yekun siyasi, geosiyasi və dövləti sinerjisi "müttəfiqlik" terminində ifadə edilir. "Dostluq", "qardaşlıq", "ortaq maraqlar" və "beynəlxalq hüquq" isə münasibətləri tənzimləmənin, yəni müttəfiqliyin praktiki aspektinin nizamlama parametrləridirlər!

Vurğulanan məna çalarlarına əsasən, "Qəhrəmanmaraş tezis"ini yeni tarixi mərhələdə strateji müttəfiqliyin dərinləşməsinin "yol xəritəsi" hesab etmək olar. Bütün hallarda həmin tezisdə ehtiva olunan siyasi, diplomatik, geosiyasi və politoloji məqamlar Azərbaycan-Türkiyə strateji birliyinin Türk Dövlətləri Təşkilatında (TDT) inteqrativ trendlərin reallaşması üçün nüvə model rolunu oynaya biləcəyinə əminlik vardır. Deməli, növbəti mərhələdə "dostluq, qardaşlıq, müttəfiqlik" triadasının Türk dünyası miqyasına proyeksiyası nəzəri və praktiki aspektlərdə daha da aktuallaşacaq!

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

# İrəvan indi də Çinə üz tutur

*Paşinyanın "çoxvektorlu xarici siyasət"i qeyri-müəyyənlik doğurur*






(əvvəli 1-ci səhifədə)

Hökumət nümayəndələri açıq şəkildə Rusiya ilə iqtisadi əməkdaşlıqdan yararlandıqları halda siyasi dəstəyin səviyyəsindən narazılıq edir, Avropa strukturları ilə yeni siyasi əməkdaşlıq mexanizmləri qurmağa can atırlar. Belə bir dönəmdə Ermənistan xarici işlər nazirinin Çinə rəsmi səfərə yollanması bu ölkənin xarici siyasətində yeni istiqamət axtarışlarının əlaməti kimi qiymətləndirilə bilər. Maraqlıdır, Qərblə yaxınlaşmağa çalışan, Rusiya ilə siyasi münasibətlərin səviyyəsini aşağı salan Ermənistan indi Çinlə nələri müzakirə edəcək? Yoxsa, bu da, sadəcə, növbəti siyasi manevr, tərəfdaş axtarışıdır?

Regiondakı həssas geosiyasi şəraitdə bu səfər diqqəti cəlb edir. Məlumdur ki, Ermənistan İran və İsrail arasında davam edən hərbi qarşıdurmasında Tehranın tərəfini saxlayıb. Çin də İsrailin hərbi əməliyyatlarını kəskin şəkildə pisləyib. Göründüyü kimi, Pekin və İrəvanın bu məsələdə mövqeyi üst-üstə düşür. Bu yanaşma isə maraq doğurur.

A.Mirzoyanın Çinə səfərinə Ermənistan daxilində də münasibət birmənalı deyil. Erməni ekspertləri bildirirlər ki, səfər Ermənistan tarixində adi hadisə deyil. Onlar öz fikirlərini bununla əsaslandırırlar ki, Ermənistan–Çin münasibətləri hər zaman "soyuq neytrallıq" şəraitində olub. İki ölkə arasında diplomatik münasibətlər 1992-ci ildə qurulsa da, bu günə qədər siyasi əməkdaşlıq strateji səviyyəyə keçməyib. Rəsmi İrəvan bu dəfə Çini iqtisadi və texnoloji əməkdaşlıq baxımından prioritet istiqamət kimi təqdim edir. Ermənistan mediasında səfər öncəsi yayılan məlumatlarda bildirilir ki, gündəmdəki əsas mövzularından biri "Bir kəmər, bir yol" təşəbbüsündə Ermənistanın iştirakının dərinləşdirilməsi, infrastruktur layihələri və texnologiya sahəsində əməkdaşlıq olacaq. Lakin burada Ermənistanın Çin üçün nə qədər önəmli olması sualı meydana çıxır. Çünki bu faktdır ki, Çin son illərdə Cənubi Qafqazda əsasən Azərbaycan və Gürcüstanla əməkdaşlığa üstünlük verir. Xüsusilə Bakı ilə Pekin arasında iqtisadi layihələri, ticarət dövriyyəsi və nəqliyyat bağlantıları sürətlə artıb. Prezident İlham Əliyevin 2025-ci il aprelin 22-24-də Çinə etdiyi dövlət səfəri zamanı "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat" imzalanıb. Hazırda Çinin bölgədə əsas tərəfdaşı məhz Azərbaycandır. Bakı–Tbilisi–Qars dəmir yolu, Orta Dəhliz və Zəngəzur dəhlizi kimi layihələr Pekin üçün daha funksionaldır. Belə bir zamanda Ermənistanın Çinlə yüksək səviyyəli əlaqələr qurması çətin görünür. İrəvanın Pekinə təklif edə biləcəyi ciddi nəqliyyat infrastrukturunun və ya tranzit imkanlarının olmaması bu əməkdaşlığın reallığına kölgə salır. Digər tərəfdən, bu səfər, bəlkə də, rəsmi İrəvanın Rusiyaya alternativ tərəfdaşlarının ola biləcəyinə dair bir mesajıdır. Dolayısı ilə səfər həm də daxili auditoriyaya və Kremlə ünvanlanmış siyasi jest kimi görünə bilər. Yəni, İrəvannın bu kontekstdəki rolu yalnız "alternativ tərəfdaş" imitasiyası ilə məhdudlaşa bilər.

Onu da bildirək ki, A.Mirzoyan son aylarda verdiyi bəyanatlarda Ermənistanın "müstəqil və çoxvektorlu" xarici siyasət yürütmək niyyətində olduğunu vurğulayıb. O, 2024-cü ilin payızında Avropa Parlamentindəki çıxışında demişdi: "Ermənistan artıq heç bir regional gücün forpostu rolunu oynamayacaq". Onun bu sözləri birbaşa şimal qonşumuza yönəlmiş mesaj kimi qiymətləndirildi. Mirzoyan həmçinin qeyd etmişdi ki, Ermənistanın maraqları yalnız bir blokla deyil, müxtəlif tərəfdaşlarla tarazlanmalıdır. 2023-cü ilin sonunda "Armenpress"ə verdiyi açıqlamada isə belə demişdi: "Çin Ermənistan üçün mühüm texnoloji və iqtisadi tərəfdaş ola bilər". Lakin bu yanaşma, təcrübədə real mexanizmlərlə deyil, daha çox niyyət bəyanatları ilə müşayiət olunur. Mirzoyanın səfər öncəsi fikirlərində də konkret layihələr deyil, daha çox "strateji baxışlar" diqqət çəkir ki, bu da səfərin simvolik xarakter daşıdığını göstərir.

Mirzoyanın səfəri daha çox Ermənistanın beynəlxalq arenada tərəfdaş tapmaq üçün atdığı görüntü xarakterli addım təsiri bağışlayır. Çin xarici işlər naziri və digər rəsmi şəxslərlə rəsmi foto-çəkilişlər, birgə bəyanat, bir neçə memorandum imzalanması İrəvana daxildə siyasi dividendlər qazandıra bilər, amma real əməkdaşlıq perspektivi çox uzaqdır. Ermənistan dünya siyasətində təsirli olmaq istəyirsə, o zaman əvvəlcə regional reallıqları qəbul etməlidir. Çin İrəvanın deyil, sabitliyin, resursların və real potensialın olduğu tərəflə əməkdaşlığa üstünlük verir. Belə bir tərəf isə Azərbaycandır.

**Mövzu üzrə fikirlərini XQ ilə bölüşən Beynəlxalq Avrasiya Mətbuat Fondunun vitse-prezidenti, siyasi şərhçi Oğuz Mirzəyev** bildirdi ki, Azərbaycan Prezidentinin bu ilin aprelin Çinə etdiyi dövlət səfəri Cənubi Qafqazın geosiyasi düzənində yeni mərhələnin başlanğıcı oldu. Onun sözlərinə görə, bu səfər zamanı iki ölkə arasında münasibətlər hərtərəfli strateji tərəfdaşlıq səviyyəsinə yüksəldildi. Çin diplomatiyasında bu, yalnız sabitlik və etimad təklif edən ölkələrlə qurulan yüksək əməkdaşlıq formatıdır: "Çin bu qərarı ilə regionda sabit və məsuliyyətli aktor kimi Azərbaycanı önə çıxardı. Bu, nə diplomatik nəzakət, nə də simvolik jest idi. Bu, Pekinin Bakı ilə uzunmüddətli və nəticəyə əsaslanan münasibət qurmaq istəyinin rəsmi ifadəsi idi. Azərbaycanın bu səviyyəyə çatmasının arxasında ardıcıl və reallıqlara əsaslanan siyasəti dayanır. Ölkə enerji təhlükəsizliyinin təminatçısı, beynəlxalq nəqliyyat dəhlizlərinin kəsişmə nöqtəsi və Cənubi Qafqazda sabitliyin əsas dayağıdır. Qlobal miqyasda isə Azərbaycan balanslı, müstəqil və çevik diplomatiyası ilə BMT, Qoşulmama Hərəkatı, Türk Dövlətləri Təşkilatı və qlobal iqlim gündəliyi kimi platformalarda söz sahibi mövqeyinə malikdir".

O.Mirzəyev dedi ki, Bakı–Pekin münasibətləri yalnız bəyanatlarla deyil, konkret layihələrlə inkişaf edir: "Orta Dəhliz, yaşıl enerji, rəqəmsal texnologiyalar və logistika bu əməkdaşlığın real sütunlarıdır. Bu fonda Ermənistanın xarici işlər nazirinin Pekinə gözlənilən səfəri diqqət çəkir. Lakin burada iki vacib fərq var. Birincisi, Azərbaycanla Çin arasında təmas dövlət başçıları səviyyəsində qurulub, Ermənistan isə sadəcə, XİN rəhbəri səviyyəsində əlaqə yaratmağa çalışır. Diplomatiyada təmsilçilik səviyyəsi mövqe göstəricisidir və Pekin bu nüansları təsadüfən müəyyən etmir. İkincisi, Ermənistan təşəbbüskar deyil. Sadəcə, Azərbaycanın formalaşdırdığı istiqaməti təqib etməyə çalışır. Bakı Çinə konkret gündəm, sabitlik modeli, iqtisadi imkan və siyasi etimad təklif etdi. İrəvan isə Azərbaycanın bu addımlarının nəticə verdiyini gördükdən sonra həmin trayektoriyaya daxil olmağa çalışır. Amma diplomatiyada liderlik vaxta, qərara və iradəyə əsaslanır; oxşama deyil, orijinallıq qazanır".

Siyasi ekspert bildirdi ki, Ermənistanın bugünkü səyi, əslində, Azərbaycan diplomatiyasının təsirini etiraf etməkdir. Lakin bu təsirin təkrarına yox, yeni keyfiyyətə ehtiyac var: "Çin isə öz tərəfdaşlarını təkcə sözlə yox, nəticə ilə seçir. Ermənistan hələ də daxili ziddiyyətlər, revanşist təmayüllər və regional qeyri-sabitlik fonunda özünü inandırıcı aktor kimi təqdim edə bilmir. Azərbaycan isə artıq bu mərhələni keçib. Bakı Çinlə strateji gündəm qurdu və onu konkret sahələrdə tətbiq etməyə başladı. Rəsmi İrəvan isə hələ həmin xəritədə yer axtarır. Məncə, Pekin bu regionda artıq öz tərəfdaşını seçib və bu seçim prosesə kimin liderlik etdiyini açıq şəkildə göstərir".

*Səxavət HƏMİD*
*XQ*

# Azərbaycan "yüksək insan inkişafı" dövlətləri sırasında

## *Bu məsələ önəmli milli prioritetdir*

**Müstəqillik illərində respublikamızın beynəlxalq aləmə inteqrasiyası, o cümlədən Birləşmiş Millətlər Təşkilatı (BMT) ilə əməkdaşlıq çərçivəsində birgə layihələrin həyata keçirilməsi ölkəmizin dünyada nüfuzunu artırıb, iqtisadi potensialını gücləndirib. Bütün bunlar isə əhalinin rifahının daha da yüksəlməsini şərtləndirib. Nəticədə, Azərbaycan yoxsulluğun yarıya qədər azaldılması öhdəliyini götürən 128 ölkə arasında bu təşəbbüsü gerçəkləşdirən 18 ölkədən biri olub, "orta insan inkişafı" statusuna malik dövlətlər qrupundan çıxaraq "yüksək insan inkişafı" kateqoriyasında yer alıb.**



Respublikamız bütün bu uğurlara əsaslanaraq və BMT-nin Minilliyin Bəyannaməsinin davamı olaraq "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"dən irəli gələn Dayanıqlı İnkişaf Məqsədlərinə (DİM) qoşulub. Ötən illər ərzində DİM-in icrası ölkəmizdə uğurla davam etdirilib, bu istiqamətdə dünyada 10 ölkədən biri, regionda isə ilk ölkə olan Azərbaycan tərəfindən BMT-nin Yüksək Səviyyəli Siyasi Forumuna 3 hesabat təqdim edilib, növbəti hesabatın isə bu il təqdim olunması nəzərdə tutulub.

Hazırda Minilliyin İnkişaf Məqsədlərinin uğurlu icrası nəticəsində Azərbaycanda yoxsulluq səviyyəsi 49 faizdən 5 faizə enib, İnsan İnkişafı İndeksində isə göstəriciləri 30 faiz artıb.

İqtisadiyyat Nazirliyi, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının Katibliyi və Birləşmiş Millətlər Təşkilatının (BMT) Azərbaycandakı Rezident Əlaqələndiricisinin ofisinin birgə təşkilatçılığı ilə keçirilən DİM-ə həsr olunan 6-cı xüsusi sessiyada yuxarıda vurğulanan məsələlər barədə ətraflı danışılıb. Eyni zamanda, dayanıqlı inkişafa nail olunmasında insan kapitalının inkişafı, daim öyrənmə və müasir bacarıqlara yiyələnmənin rolu, eləcə də bu istiqamətlərdə görülən işlər müzakirə olunub.

Toplantıda iqtisadiyyat nazirinin müavini Sahib Ələkbərov BMT ilə səmərəli əməkdaşlığı vurğulayıb, Azərbaycanın regionda və Müstəqil Dövlətlər Birliyi məkanında BMT-yə 4 Könüllü Milli Hesabat təqdim edən yeganə ölkə olduğunu bildirib. Xatırladılıb ki, BMT-nin İqtisadi və Sosial Məsələlər üzrə Departamentinin 2025-ci il üzrə Könüllü Milli Hesabatlar nəşrində ölkəmizdə DİM-lərin icrasının maliyyələşməsi üçün tətbiq olunan innovativ yanaşmalar müsbət qiymətləndirilib və üzv ölkələrə bu yanaşmanın tətbiqi tövsiyə edilib.

Sessiyada ölkəmizin 2030-cu ilədək 5 milli prioritetindən biri olan və DİM-lərlə sıx uzlaşan rəqabətqabiliyyətli insan kapitalının formalaşdırılması istiqamətində daim öyrənmənin, müasir biliklərin və rəqəmsal bacarıqların artırılmasının rolu vurğulanıb. Rəqabətqabiliyyətli insan resurslarının formalaşdırılmasında müasir dövrün tələblərinə uyğun təhsilin önəmi qeyd edilib.

Bu gün dünya qarşısında duran çağırışlar – iqlim dəyişmələri, sürətli texnoloji transformasiyalar yalnız texniki biliklərlə kifayətlənməyi deyil, yeni bacarıqlara sahib olmağı zəruri sayır. Tənqidi düşüncə, yaradıcılıq, komanda işi kimi bacarıqlar müasir dövrdə əsas ixtisaslar qədər önəm daşıyır. Sessiyada Azərbaycanda insan kapitalının inkişafı istiqamətində görülən işlər barədə məlumat verilib. Ölkəmizdə istedadlı gənclərin üzə çıxarılması, peşəkar kadrlar bankının yaradılması istiqamətində mühüm işlər görüldüyü qeyd edilib.

İnsan kapitalının inkişafı məqsədilə İqtisadiyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi tərəfindən Elm və Təhsil Nazirliyinin Təhsilin İnkişafı Fondu və ABŞ-ın "Coursera" şirkəti ilə birgə "4Sİ (Dördüncü Sənaye İnqilabı) Akademiyası" təşkil edildiyi, layihədən minlərlə vətəndaşın faydalandığı diqqətə çatdırılıb. Ölkəmizdə rəqəmsal iqtisadiyyata keçidi sürətləndirmək üçün dördüncü sənaye inqilabı texnologiyaları sahəsində bilik və bacarıqların inkişaf etdirilməsi və əmək bazarında bu sahə üzrə ixtisaslı kadrların hazırlanmasına dəstək olmaq üçün "4Sİ Akademiyası" çərçivəsində başlayan milli proqram layihəsinin icrası diqqətdə saxlanılıb.

Bu il aprel ayından başlayan layihə çərçivəsində bir il ərzində on minlərlə vətəndaşa 300-dən çox universitet və onlarla aparıcı texnologiya şirkətinin təqdim etdiyi 8 mindən çox təlimdən ödənişsiz yararlanmaq imkanı yaradılıb. BMT-nin respublikamızdakı rezident əlaqələndiricisi Vladanka Andreeva Azərbaycanın DİM məqsədlərinə çatmaq istiqamətində gördüyü işləri təqdir edib, davamlı inkişaf üçün daim öyrənmənin əhəmiyyətinə dair fikirlərini bölüşüb.

"McKinsey & Company" şirkətinin nümayəndəsi Gözde Kızılırmak qlobal tendensiyalar və daim təhsilin iqtisadi inkişafda əhəmiyyəti barədə danışıb. Beynəlxalq Əmək Təşkilatının eksperti Özge Berber-Agtaş və ADA Universitetinin dosenti Anar Vəliyev təqdimatlarla çıxış edərək inklüziv məşğulluq siyasətləri və müasir bacarıqların formalaşmasına təsir göstərən qlobal trendlər barədə məlumat veriblər.

Toplantı interaktiv müzakirələrlə davam etdirilib, daim təhsilin iqtisadi artımda və rəqabətqabiliyyətli insan kapitalının inkişafında rolu ilə bağlı fikir mübadiləsi aparılıb. Qeyd edək ki, indiyədək 5 "DİM Dialoqu" təşkil olunub. Dialoqlar çərçivəsində hökumət nümayəndələri, BMT təmsilçiləri, vətəndaş cəmiyyəti, özəl sektor və akademik dairələrin ekspertləri arasında bir sıra aktual mövzular üzrə müzakirələr aparılıb.

Yeri gəlmişkən, DİM-in respublikamızda indiyədək keçirilən toplantılarında Azərbaycanın 30 il ərzində erməni işğalında qalan ərazilərinin azad edildiyi və 1 milyona yaxın qaçqının qayıtması üçün böyük quruculuq işlərinin həyata keçirildiyi və bu istiqamətdə reallaşdırılan bərpa-quruculuq layihələrinin DİM-ə uyğun şəkildə aparıldığı bildirilib. Bu fikrin təsdiqi olaraq vurğulayaq ki, qlobal proseslər nəzərə alınaraq azad edilən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında "ağıllı" kənd salınıb, bu regionun enerji təminatı əsasən, "yaşıl" enerji istehsalı hesabına ödənilib.

Bu məqamda xatırlatmaq yerinə düşər ki, Azərbaycanda müxtəlif dövlət qurumları tərəfindən irəli sürülərək həyata keçirilən 40 təşəbbüs DİM layihəsinə uyğunlaşdırılıb və beynəlxalq əhəmiyyət daşıması baxımından yüksək dəyərləndirilib. Bundan başqa 2022–2026-cı illər üzrə "Azərbaycan Respublikasının Sosial-İqtisadi İnkişafı Dövlət Proqramı"nda 4 əsas sahəyə ("yaşıl" enerji, qida, infrastruktur və ekologiya) investisiya qoyulması nəzərdə tutulub.

Hazırda ölkəmizdə icrası diqqətdə saxlanılan layihələrdən biri "yaşıl" iqtisadiyyatın inkişaf etdirilməsi ilə bağlıdır. Azərbaycanın regionda ilk dəfə BMT-nin forumuna təqdim etdiyi 3 könüllü milli hesabatda "yaşıl artım"a nail olunması ilə bağlı öhdəlik götürməsi də bu məqsədin prioritetliyindən irəli gəlir.

Azərbaycanın "yaşıl" iqtisadiyyata önəm verməsi, eyni zamanda, respublikamızın bununla əlaqədar Paris sazişinə qoşulması ilə bağlıdır. Qeyd edək ki, həmin sənədə əsasən, baza ili 1990-cı il olmaqla 2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyasının 35 faiz azaldılması əsas məqsəd kimi qarşıya qoyulub və artıq bu öhdəlik 40 faizə çatdırılıb.

Xatırladaq ki, 2050-ci ilə qədər xalis "sıfır emissiya"ya çatmaq üçün 2030-cu ilə qədər bərpaolunan enerji, texnologiya və infrastruktura ildə 4–6 milyon ABŞ dolları vəsaitin cəlb edilməsi nəzərdə tutulub.

Dayanıqlı İnkişaf Məqsədləri sırasında təhlükəli tullantıların saxlanılması və utilizasiyası, o cümlədən neft qalıqlarının təmizlənməsi də xüsusi yer tutur. Təhlükəli tullantıların idarə edilməsi, təmizlənməsi və saxlanılması xidmətlərini reallaşdıran müəssisələrin tikintisi və istismarı, o cümlədən neft qalıqlarının təmizlənməsi, burada yığılmış neft məhsulunun qalıqlarının müvafiq neft qalıqları təchizatçısına qaytarılması, yaxud bərk tullantı yanacağa çevrilməsi imkanları var.

İqtisadiyyat Nazirliyi tərəfindən artıq bu istiqamətdə fəaliyyətə başlanılıb. Bununla bağlı BMT-nin İnkişaf Proqramının Azərbaycan ofisi inteqrə edilmiş maliyyə çərçivəsində müştərək proqramın icrasına üstünlük verib. Bu proqram çərçivəsində investisiyaların ekosistemə müsbət təsirinin tədqiqi məqsədilə hesabatlar hazırlanıb.

# Dəmir Yolu turizmlə əməkdaşlıq qurur




**"Azərbaycan Dəmir Yolları" QSC ilə Azərbaycan Turizm Bürosu arasında turizm sahəsində əməkdaşlığa dair saziş imzalanıb. Sənədi ADY-nin sədr müavini Arif Ağayev və ATB İdarə Heyətinin sədr müavini Rəşad Əliyev imzalayıblar.**

Saziş çərçivəsində turizmdə əlçatanlıq və infrastrukturun inkişafı, turizm məhsulları və təcrübələrin təkmilləşdirilməsi, rəqəmsallaşma və marketinq sahələrində birgə fəaliyyət nəzərdə tutulur. Əməkdaşlıq, həmçinin turizm sənayesinin inkişafı və keyfiyyət standartlarının artırılmasını hədəfləyir.

ADY sədrinin müavini Arif Ağayev bildirib ki, saziş çərçivəsində müəyyənləşdirilmiş istiqamətlərin keyfiyyətli icrası üçün hər iki qurum koordinasiyalı fəaliyyət göstərəcək. O, həmçinin əməkdaşlığın regionlarda turizmin əlçatanlığını artıracağını, turizm sektorunun müxtəlif sahələrinin bir-biri ilə daha sıx əlaqələndiriləcəyini və yeni iş yerlərinin yaradılmasına töhfə verəcəyini vurğulayıb.

Birgə fəaliyyət planına əsasən, dəmiryol stansiyalarında turizm məlumat məntəqələri və lövhələrinin quraşdırılması, turizm resursları barədə məlumatlılığın artırılması və bu məlumatların daha əlçatan edilməsi planlaşdırılır. Eyni zamanda, regionlarda turist axınının rahatlığını təmin etmək məqsədilə qrup biletlərinin əlçatan edilməsi də nəzərdə tutulur.

Azərbaycan Turizm Bürosunun İdarə Heyətinin sədr müavini Rəşad Əliyev qeyd edib ki, bu tərəfdaşlıqla dayanıqlı turizmin inkişafına, regionlara səyahətin asanlaşdırılmasına və turistlərə unudulmaz təcrübələrin təqdim olunmasına töhfə vermək hədəflənir. Əməkdaşlıq çərçivəsində turizm sənayesi nümayəndələri ilə mütəmadi görüşlər, korporativ əməkdaşlığın genişləndirilməsi və qatar marşrutlarının tanıtımına dair çəkilişlərin təşkili də planlaşdırılır.

Azərbaycan Turizm Agentlikləri Assosiasiyasının İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Göydəniz Qəhrəmanov çıxışında sazişin əhəmiyyətindən danışıb. O bildirib ki, bu saziş, sadəcə iki qurum arasında sənəd mübadiləsi deyil, həm də ölkəmizin turizm və nəqliyyat infrastrukturunun daha sistemli şəkildə inkişaf etdirilməsi yolunda atılan önəmli addımdır.

Deputat vurğulayıb ki, belə təşəbbüslər Azərbaycanın regional və beynəlxalq nəqliyyat dəhlizlərində rolunu daha da gücləndirəcək, eləcə də turizm potensialının reallaşdırılmasına mühüm töhfə verəcək.

Qeyd edək ki, ADY Abşeron dairəvi, Bakı–Qəbələ, Bakı–Balakən və Bakı–Qazax kimi əsas marşrutlar üzrə sərnişindaşımalarını həyata keçirir və bu marşrutların tanıdılması məqsədilə tanıtım materiallarının yerli və beynəlxalq auditoriyaya təqdim olunması, həmçinin ADY-nin rezervasiya platformasının Azerbaijan.travel saytına inteqrasiyası və sistemlərin birgə işi nəzərdə tutulan fəaliyyətlər sırasındadır.

# ADA-da 19-cu Yay Enerji Məktəbi




**ADA Universitetinin İnkişaf və Diplomatiya İnstitutunun, ADA Universiteti Fondu, SOCAR, bp və "Kolin" şirkətlərinin dəstəyi ilə 19-cu Bakı Yay Enerji Məktəbi öz işinə başlayıb. İyulun 4-dək davam edəcək iki həftəlik məktəbdə intensiv sertifikat proqramı dünyanın müxtəlif ölkələrindən hökumət rəsmilərini, enerji və ətraf mühit sahəsində çalışan peşəkarları və aparıcı akademikləri bir araya gətirib.**

Məktəbin açılış mərasimində energetika nazirinin müavini Elnur Soltanov, ADA Universitetinin prorektoru, İnkişaf və Diplomatiya İnstitutunun direktoru Fariz İsmayılzadə, SOCAR-ın vitse-prezidenti Ziba Mustafayeva, bp şirkətinin Xəzər regionu üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli və başqaları iştirak ediblər.

Mərasimdə çıxış edən ADA universitetinin prorektoru Fariz İsmayılzadə bildirib ki, Bakı Yay Enerji Məktəbinin fəaliyyət göstərdiyi dövr ərzində burada minlərlə xarici və azərbaycanlı mütəxəssislər iştirak edib. Onun sözlərinə görə, bu il proqramda 15 ölkədən 47 nəfər təmsil olunur ki, onların da sırasında Azərbaycanla yanaşı, Cənub Qaz Dəhlizi boyunca yerləşən ənənəvi ölkələr – Bolqarıstan, Yunanıstan, Xorvatiya, Qazaxıstan, Türkiyə və İtaliya ilə yanaşı, Çili, ABŞ, Vyetnam, Almaniya, Böyük Britaniya, Pakistan və İspaniya da var.

Bu proqramın 19 il əvvəl istifadəyə verildiyini xatırladan F.İsmayılzadə vurğulayıb ki, ötən müddətdə minlərlə xarici və azərbaycanlı orta səviyyəli mütəxəssis onun iştirakçısı olub. O qeyd edib ki, Xəzər regionunda bərpaolunan enerji mənbələrinin inkişafı, infrastruktur layihələrinin icrası və Mərkəzi Asiya ilə əlaqələrin yaxşılaşdırılması istiqamətində təşəbbüslər fəal şəkildə həyata keçirilir.

Yay məktəbinin açılışında çıxış edən digər natiqlər Azərbaycanın enerji potensialı, "yaşıl" enerji sahəsində həyata keçirilən tədbirlər, yatırılan investisiyalar, ekologiyanın qorunması və digər aktual məsələlər barədə fikir və mülahizələrini bölüşüblər.

# Torpağa düşməsin havayı bir dən...

## *Ölkədə taxıl biçini mütəşəkkil və itkisiz davam edir*

**Azərbaycanda taxıl biçininin qızğın çağıdır. Ölkədə bolluğa zəmin yaradan fermerlər və fərdi təsərrüfat sahibləri məhsulu vaxtında və itkisiz yığmaq üçün bütün imkanları səfərbər ediblər. Kənd Təsərrüfatı Nazirliyində biçinin mütəşəkkil təşkilinə dair yaradılmış Operativ Qərargahın məlumatına görə, ölkə üzrə payızlıq əkin sahələrinin 35,6 faizində biçin başa çatıb.**

Bunun da nəticəsində sahələrdən 1 milyon 875 min tondan çox məhsul yığılıb. Mövsümün əvvəllindən buğda sahələrinin 13,2 faizi, arpa sahələrinin isə 62,1 faizi biçilib. Hazırda taxıl sahələrinin orta məhsuldarlığı buğda üzrə 35,3 faiz, arpa üzrə isə 32,2 faiz təşkil edir. Biçin prosesinə 1604 kombayn cəlb olunub. Bunlardan 598-i "Aqroservis" ASC-nin, 1006-sı isə fiziki və hüquqi şəxslərin balansında olan texnikalardır. Hazırda ən çox kombayn Cəlilabad, Şəki, Ağsu və Kürdəmir rayonlarının təsərrüfatlarında çalışır.



Məlumatda qeyd olunur ki, 2024-2025-ci təsərrüfat ilində əkilmiş 426 min 623 hektar arpa sahəsinin 264 min 861 hektarı biçilib, sahələrdən 852 min 176 ton arpa yığılıb. Artıq Neftçala, Lənkəran, Salyan, Yevlax, Bərdə rayonlarında arpa biçini tam yekunlaşıb. Ağdam, Ağdaş, Cəlilabad, Füzuli, Naftalan, Hacıqabul, Masallı, Saatlı, Sabirabad, Şuşa, Tərtər, Ucar və Zərdabda arpa biçini göstəricisi 90 faizdən çoxdur. Ümumilikdə isə, hazırda ölkəmizin 51 rayonunda biçin aparılır. Biçin prosesinin optimal müddətdə başa çatacağı proqnozlaşdırılır.

Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyinin sədri Sərdar Hacıyev ölkədə taxıl biçininin həlledici mərhələyə qədəm qoyduğunu, əksər rayonlarda prosesin sürətlə davam etdiyini bildirib. Onun sözlərinə görə, Prezident İlham Əliyevin apardığı məqsədyönlü siyasət nəticəsində iqtisadiyyatın digər sahələri kimi aqrar sahə də dayanıqlı inkişaf edir. S.Hacıyev diqqətə çatdırıb ki, kənd təsərrüfatının strateji əhəmiyyətli istehsal sahələrindən biri olan taxılçılığın inkişaf etdirilməsi, məhsul istehsalçılarının keyfiyyətli toxuma olan tələbatının daxili istehsal hesabına təmin olunması prioritet vəzifələrdən biri kimi müəyyən edilib və bu istiqamətdə davamlı olaraq zəruri tədbirlər həyata keçirilir.

Agentlik sədri, həmçinin biçinin mütəşəkkil şəkildə, itkisiz başa çatdırılması üçün tədbirlər planı hazırlandığını, taxılın vaxtında və itkisiz yığılması istiqamətində koordinasiya olunmuş fəaliyyət mühüm əhəmiyyət kəsb etdiyini deyib.

# Gəmi Təmiri Zavodu "yaşıl" enerji ilə işləyir

**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) "Bibiheybət" Gəmi Təmiri Zavodunda quraşdırılmış günəş panelləri vasitəsilə indiyədək 66 min 215,3 kilovat-saat enerji hasil edilib. Bu ilin may ayında isə müəssisədə istehsal edilən elektrik enerjisinin həcmi 18 min 454,3 kilovat-saat təşkil edib. Hətta ayın bəzi günlərində hasilat 800 kilovat-saat həddinə yaxınlaşıb.**

Statistikaya görə, zavodda indiyədək 65 min 946,1 kiloqram karbon qazı emissiyasının qarşısı alınıb. Bu isə 3 min 638 ağacın qorunmasına bərabər ekoloji fayda deməkdir. Eyni zamanda, 26 min 457,8 kiloqram daş kömürə qənaət olunub ki, bu da enerji istehsalında fosil yanacaqlardan istifadəni minimuma endirir.

Xatırladaq ki, "Bibiheybət" Gəmi Təmiri Zavodunda, ümumilikdə, 512 kvadratmetr ərazidə hər biri 690 vatt olmaqla 162 ədəd günəş paneli quraşdırılıb.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

Unutsaq – unudularıq

# Kəngərlilərin görkəmli memar oğlu

**Keçən il Nazirlər Kabinetinin qərarı ilə XX əsr Azərbaycan memarlığının görkəmli nümayəndələrindən biri, SSRİ Dövlət mükafatı laureatı, Əməkdar inşaatçısı Nəsrulla Yaqub oğlu Kəngərlinin xatirəsi əbədiləşdirildi. Onun Bakıda – İnşaatçılar prospekti ilə Bəsti Bağırova küçəsinin kəsişməsində vaxtilə yaşadığı evə xatirə lövhəsinin vurulması unudulmaz memarın irsinə verilən dəyərin, xatirəsinə göstərilən ehtiramın ifadəsi oldu.**

Bu xəbəri eşidəndə məşhur memarın tanınmış həkim oğlu Aqşin Kəngərlinin atası haqqında illər əvvəl dediyi sözlər yadıma düşdü: “Atam sənətini sonsuz məhəbbətlə sevirdi. Müharibədən qayıdarkən özü ilə gətirdiyi yeganə əşya bir memarlıq albomu idi. Həmin albomu tez-tez vərəqləyər, qotika üslublu alman abidələrinin şəkillərinə hər dəfə yeni maraqla baxardı. Öz layihələrinin icrasına isə şəxsən nəzarət edər, tikintilərdən toz-torpaq içində, yorğun, lakin xoş əhvalla qayıdardı. Onun üçün memarlıq yalnız peşə deyildi – milli kimliyimizin, sabaha baxışımızın daş-divara çevrilən ifadəsi idi”.

Aqşin həkim onu da əlavə edirdi ki, atası ömrü boyu Azərbaycanın müstəqilliyi arzusu ilə yaşamışdı və bu xoşbəxtliyi görmək ona nəsib olmuşdu. Dünyasını dəyişməmişdən bir-neçə ay əvvəl deyib: “Düşünməzdim ki, sovet quruluşunun yıxılmasını öz gözlərimlə görəcəyəm. Nəslimizin ən yaxşı oğullarına divan tutmuş hakimiyyətin özünə də düşmən kəsilməsi Yaradanın verdiyi cəza, bizim kimi insanların qəlb yarasına məlhəm oldu. Daha dünyadan bu ağrı ilə köçmərəm”.

O vaxt dəftərçəmə köçürdüyüm bu qeydləri oxuculara Azərbaycan memarlıq sənətinin parlaq simalarından olan Nəsrulla Kəngərli barədə qələmə aldığım bu yazının girişi kimi təqdim edirəm. Tarixdə türk dünyasının şərqindən qərbinə, güneyindən batısına at oynatmış, keçdikləri yerlərdə türk ehramı olan kurqanlar ucaltmış, düşdükləri coğrafiyada obalar salmış, saraylar tikmiş iskitlərdən soyalmış kəngərlər son əsrlərdə Qarabağda və Naxçıvanda məskunlaşmışdır.

Kəngərlilər soyadı ilə tanınmış bu tayfa xalqımıza bir çox igid sərkərdə, müdrik dövlət xadimi, zəkalı alim, istedadlı sənətkar bəxş etmişdir. Bakının, Gəncənin, Sumqayıtın simasına öz möhürünü vurmuş, çoxsaylı memarlıq inciləri bu şəhərlərin yaraşıqlı və möhtəşəm abidəsinə çevrilmiş Nəsrulla Kəngərlinin adı bu sırada şərəfli yer tutur. Kəngərlilərin memar oğlu II Dünya müharibəsinin iştirakçısı kimi "Qırmızı Ulduz" ordeni və medallarla təltif edilmiş, uzun illər pedaqoji fəaliyyət göstərmiş və "Əməkdar inşaatçı" fəxri adına layiq görülmüşdü.

Nəsrulla Kəngərli XX əsr Azərbaycan memarlığının aparıcı simalarından olan Mikayıl Hüseynov, Ənvər Qasımzadə, Davud Axundov kimi görkəmli memarlarla bir sırada dayanaraq, peşəkarlığı və zəhmətkeşliyi ilə seçilmişdir. O, 46 il "Azərdövlətmemarlayihə", "Bakışəhərbaşlayihə", "Azərdövlətlayihə" kimi nüfuzlu layihə institutlarında fəaliyyət göstərmiş, milli memarlığımızın inkişafına layiqli töhfələr vermişdir. Milli memarlığımızın klassikinə



çevrilmiş bu insan daşları danışdıran, milli kimliyi memarlıq dili ilə gələcək nəsillərə ötürən sənətkar sayılır.

Nəsrulla Yaqub oğlu Kəngərli 1913-cü il noyabrın 25-də Naxçıvanda dünyaya göz açmışdır. Babası İsmayıl ağa rus-türk müharibəsində 200 süvariyə rəhbərlik etmiş, hünərinə görə çar hökumətindən rütbə və Naxçıvanda torpaq almışdır. Atası Yaqub Paşa savadlı bir şəxs kimi tanınmış, türk, ərəb, fars, rus dillərini bilmiş, zəngin kitabxana yaratmış, İran və Osmanlı ziyalıları ilə əlaqə saxlamışdır. O, rus alimi K.Smirnova Naxçıvanın tarixini və etnoqrafiyasını öyrənməkdə yardımçı olmuşdur. Yaqub Paşa 1918-ci ildə Naxçıvanda erməni vəhşiliklərinin qarşısını almaqda fədakarlıq göstərmişdir.

Belə bir ailədə dünyaya göz açan Nəsrulla gəncliyində Naxçıvan Pedaqoji Texnikumunu bitirib, muxtar respublikanın kənd məktəblərində müəllimlik etmişdi. Atası Yaqub Paşa erməni donosçuluğu ilə, guya, İran və Türkiyə ilə əlaqə saxlamaqda ittiham edilərək 1937-ci ildə güllələnmişdi. Anası Mina xanım və böyük qardaşları Həsən, Əlmədət və Kamil ailələri ilə birlikdə Qazaxıstana sürgün edilmiş, yalnız 1964-cü ildə bəraət qazanaraq Vətənə dönə bilmişdilər.

Nəsrullanı bu amansız aqibətdən Naxçıvandan uzaqda olması xilas etmişdir. O, Gəncə Toxuculuq İnstitutuna daxil olmuş, bir il sonra isə təhsilini Bakıda Sənaye İnstitutunun memarlıq-inşaat fakültəsində davam etdirmişdi. Lakin gənc memarın həyat yolu rahat olmamışdır. 1941-ci ildə o, təhsilini yarımçıq qoyaraq sovet-alman müharibəsinə yollanmış, 416-cı Azərbaycan diviziyasının tərkibində Qafqazdan Berlinədək döyüş yolu keçmişdir. Müharibədən qayıdan Nəsrulla Kəngərli bundan sonra bütün ömrünü Azərbaycan memarlığının inkişafına həsr etmişdir. Onun ömür yolu peşəkar zəhmət, vətənə sədaqətlə xidmət nümunəsi olmuşdur.

Memarlıq fəaliyyətinə müharibədən sonra başlayan Nəsrulla Kəngərli, uzun illər ərzində paytaxtda müxtəlif yaşayış binalarının, ictimai və inzibati tikililərin layihələndirilməsində yaxından iştirak etmişdir. Onun müəllif olduğu layihələr arasında Bakının Nizami küçəsində, İnşaatçılar prospektində, Nərimanov heykəlinin ətrafında inşa olunmuş yaşayış binaları xüsusilə seçilir. Bu tikililər klassik və müasir memarlıq üslublarının vəhdətini əks etdirərək müəllifinə layiqli nüfuz qazandırmışdır.

Azadlıq və İnşaatçılar prospektlərində, eləcə də paytaxtın digər ərazilərində inşa edilən məktəb binaları bu gün də öz memarlıq gözəlliyi, milli üslublu bəzək elementləri və monumental görkəmi ilə diqqəti cəlb edir. Bu tikililər, eyni zamanda, Azərbaycan memarlıq irsinin dəyərli nümunələri kimi qiymətləndirilir. Bakıda yerləşən Mərkəzi Univermaq, Tibb Universitetinin korpusu və idman kompleksi, Gəncə Dəmiryol Vağzalı, Xankəndidə inzibati bina kimi layihələr də Azərbaycanın memarlıq salnaməsində xüsusi yer tutur. Bu əsərlər Nəsrulla Kəngərlini memarlıq sahəsində akademik bir səviyyəyə yüksəltmişdir.

Onun memarlıq irsi olduqca zəngindir. Sadəcə onu qeyd etmək kifayətdir ki, Sumqayıt şəhərinin baş planı və bu şəhərdəki bir neçə nadir tikili Nəsrulla Kəngərlinin zəkasının məhsuludur. Ümumiyyətlə, 1968–1985-ci illərdə şəhərdə salınmış yaşayış məhəllələri, ictimai və digər təyinatlı binaların layihələri "Azərdövlətlayihə" institutunda onun rəhbərlik etdiyi emalatxanada hazırlanmışdır. Bu kompleks və yaradıcı işinə görə o, SSRİ Nazirlər Sovetinin mükafatına layiq görülmüşdür.

Layihə səviyyəsində yüksək dəyərləndirilən bəzi memarlıq nümunələri – Kənd Təsərrüfatı Nazirliyinin binası, Ticarət evi, inzibati korpus və digər layihələr – bu gün də onun zəngin yaradıcılıq təxəyyülünü nümayiş etdirir. Onun layihələndirdiyi tikililər estetik görünüşü ilə yanaşı, funksional baxımdan da dövrünün qabaqcıl nümunələri sırasında olmuşdur. O, klassik memarlıq ənənələrini müasirliklə ustalıqla sintez edərək həm zamanın tələblərinə cavab verən, həm də milli ruhu əks etdirən əsərlər yaratmışdır.

Nəsrulla Kəngərlinin zəhməti dövlət səviyyəsində yüksək qiymətləndirilmiş, o, bir çox təltif və mükafatlara layiq görülmüşdür. Bu, onun həm peşəkar fəaliyyətinə, həm də vətənə xidmətinə verilən dəyərin bariz nümunəsidir.

1991-ci ildə vəfat edən Nəsrulla Kəngərli qurub-yaratdığı memarlıq nümunələri, elmi-pedaqoji fəaliyyəti və milli kimliyə sadiqliyi ilə bir ziyalı, bir müəllim, böyük vətəndaş idi. Bu gün də Azərbaycan memarlığında onun adı hörmətlə çəkilir, irsi öyrənilir.

***Namiq QƏDİMOĞLU***
***XQ***

## Baş prokuror vətəndaşlarla görüşüb



**İyunun 24-də Baş prokuror Kamran Əliyev Bakı şəhəri Binəqədi Rayon Prokurorluğunun inzibati binasında Binəqədi rayonu və digər bölgələrdən olan vətəndaşları qəbul edib.**

Qəbulda iştirak edən 23 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı, törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları və məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsinə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

***XQ***

## Azərbaycan–Çin teleradio əməkdaşlığı



**Çin Xalq Respublikasına səfər çərçivəsində iyunun 24-də Azərbaycan nümayəndə heyəti Çinin Radio və Televiziya Baş Dövlət İdarəsinin naziri xanım Çao Şumin və qurumun digər yüksəkvəzifəli şəxsləri ilə görüş keçirib.**

Audiovizual Şuranın sədri İsmət Səttarov Azərbaycanla Çin arasında digər sahələrdə olduğu kimi, audiovizual media istiqamətində də əməkdaşlığın dərinləşdirilməsinin vacibliyini vurğulayıb. Şura sədri, həmçinin qeyd edib ki, tənzimləyici qurumlar arasında davamlı və səmərəli əlaqələrin qurulması təcrübə mübadiləsini gücləndirəcək, koordinasiyalı fəaliyyətə töhfə verəcək.

Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov media sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsinin vacibliyini vurğulayaraq, institusional əlaqələrin genişləndirilməsi, birgə layihələrin həyata keçirilməsi, müasir texnologiyaların tətbiqi, peşəkar kadr hazırlığı və qarşılıqlı təcrübə mübadiləsinin təşviqinin əməkdaşlığın əsas istiqamətlərindən olduğunu qeyd edib.

Sonra “Azərbaycan Respublikası Audiovizual Şurası və Çin Xalq Respublikasının Radio Yayımı və Televiziya Baş Dövlət İdarəsi arasında radio və televiziya yayımı sahəsində əməkdaşlıq haqqında Memorandum” imzalanıb. Memorandumun məqsədi radio yayımı və televiziya sahəsində əməkdaşlığın inkişaf etdirilməsi, təcrübə və kadr mübadiləsinin sürətləndirilməsidir.

Qeyd edək ki, Çinə səfər çərçivəsində Azərbaycan nümayəndə heyətinə, həmçinin Prezidentin Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin Media ilə iş sektorunun müdiri Kamran Həsənov, AZƏRTAC-ın İdarə Heyətinin sədri Vüqar Əliyev və “AnewZ” telekanalının icraçı direktoru Rüfət Həmzəyev daxildir.

***XQ***

# Vardanyan zərərçəkmişlərin çoxsaylı ittihamları qarşısında

**Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesi iyunun 24-də davam etdirilib.**





Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət tərkibdə keçirilən açıq məhkəmə iclasında (ehtiyat hakim Günel Səmədova) təqsirləndirilən şəxs bildiyi dildə, yəni, rus dilində tərcüməçi, habelə müdafiəsi üçün özünün seçdiyi vəkillə təmin olunub.

Hakim Zeynal Ağayev dindirmədən əvvəl məhkəmə prosesində ilk dəfə iştirak edən zərərçəkmiş şəxslərə və zərərçəkmiş şəxslərin hüquqi varislərinə qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib.

Əvvəlcə təqsirləndirilən Ruben Vardanyan işə baxan məhkəmə kollegiyasına yenidən etirazını bildirib. Təqsirləndirilən şəxs qeyd edib ki, cari ilin yanvar və fevral aylarında keçirilmiş məhkəmə iclaslarının protokolları ilə tanış olub və həmin protokollarda müdafiə tərəfinin vəsatətlərinə münasibət bildirilməsi onda məhkəmə kollegiyasının iş üzrə obyektiv, qərəzsiz olacağına şübhələr yaradır. Buna görə də məhkəmə kollegiyasına etiraz edir. Təqsirləndirilən şəxsin müdafiəçisi Avraam Berman etirazı müdafiə edib.

Baş prokurorun böyük köməkçisi Vüsal Əliyev etiraza münasibət bildirərək deyib ki, müdafiə tərəfinin məhkəmə iclas protokollarında yazıların düzgünlüyü və tamlığı barədə qeydlərini vermək hüququ var. Məhkəmə iclas protokolunda hər hansı xüsusatın qeyd edilməməsi və ya prosessual iştirakçıların vəsatətinin təmin olunmaması məhkəmə kollegiyasına etiraz üçün əsas hesab edilmir. Bu səbəbdən dövlət ittihamını müdafiə edən prokuror vəsatətin baxılmamış saxlanılmasını məhkəmədən xahiş edib.

Prosesdə iştirak edən zərərçəkmiş şəxslər etirazın təmin olunmamasını məhkəmədən xahiş ediblər.

Məhkəmə vəsatətə baxmaq üçün müşavirəyə gedib. Müşavirədən sonra müdafiə tərəfinin etirazına dair məhkəmə qərarı elan edilib. Qərara əsasən, etiraz baxılmamış saxlanılıb.

İclasa sədrlik edən Zeynal Ağayev qərarı əsaslandıran zaman vurğulayıb ki, müdafiə tərəfi Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsinə əsasən, işə baxan hakimlər kollegiyasının cinayət təqibində maraqlı olmasına dair konkret dəlillər təqdim etməyib.

Sonra məhkəmədə Ermənistanın təcavüzkar müharibəsi və işğalçılıq siyasəti nəticəsində törədilmiş cinayət hadisələri zamanı zərər çəkənlər, habelə zərərçəkmişlərin hüquqi varisləri ifadə veriblər.

Zərərçəkmiş şəxsin hüquqi varisi Elxan Novruzəliyev ifadəsində övladı Orxan Novruzəlizadənin Kəlbəcərdə Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən açılmış atəş nəticəsində həlak olduğunu söyləyib.

Zərərçəkmiş şəxsin hüquqi varisi Məlahət Həsənova ifadəsində övladı Elşad Həsənovun Laçında düşmən tərəfindən açılan atəş nəticəsində həlak olduğunu deyib.

Şaban Bilalov ifadəsində qardaşı Sərxan Bilalovun Ağdərə istiqamətində həlak olduğunu bildirib.

Zərərçəkmiş şəxs Emin Quşçiyev ifadəsində Kəlbəcərdə Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən açılmış atəş nəticəsində yaralandığını qeyd edib.

Zərərçəkən Tural İsmayılzadə isə deyib ki, düşmənin törətdiyi təxribat zamanı qəlpə yaraları alıb. Belə ki, Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələrinin artilleriya silahlarından açdığı atəş nəticəsində mərmilərdən birinin yanına düşərək partlaması nəticəsində sağ əlindən xəsarət alıb. O, Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimlinin sualına cavabında bildirib ki, hadisə vaxtı yanında olan Məhəmməd Qarayev həlak olub, bir neçə nəfər isə yaralanıb.

Zərərçəkən Kənan Qasımov dövlət ittihamçısı Fuad Musayevin sualına cavabında diqqətə çatdırıb ki, Xocavənd rayonu istiqamətində düşmənin atdığı dron mərmisinin yaxınlığına düşərək partlaması nəticəsində yanında olan Murad Axundov və Ərzullah Həsənli həyatlarını itirib, o və yaxınlığındakı digər şəxslər müxtəlif xəsarətlər alıb.

Zərərçəkmiş şəxs Poladxan Babayev dövlət ittihamçısı Təranə Məmmədovanın suallarını cavablandırarkən Şuşa rayonunun Xəlfəli kəndində Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən atılmış minaatan mərmisinin partlaması nəticəsində xəsarət aldığını, həmin vaxt yaxınlığında olan Əlizamin Bədirovun da yaralandığını söyləyib.

Elnur Kələntərov isə bildirib ki, o, Ağdam istiqamətində Ermənistan ordusunun qalıqlarının və qeyri-qanuni erməni silahlı dəstələrinin müxtəlif çaplı artilleriya silahlarından və minaatanlardan atdığı mərminin yaxınlığında partlaması nəticəsində sağ və sol ayaq, sol kürək və üz nahiyələrindən qəlpə yaraları alıb. Zərərçəkən Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramovun sualına cavabında deyib ki, həmin vaxt düşmən fasiləsiz olaraq atəş açıb.

İfadə verən Fərid Məhəmmədov Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən basdırılmış minaya düşərək özünün və Şəhriyar Hüseynovun xəsarət aldığını deyib. Təxliyə zamanı isə daha üç nəfər – Şükür Zeynalov, Kamil Musayev və Rafiq Adışlı yaralanıb.

Nəsimi Mahmudov ifadəsində Ağdərə rayonunun Canyataq kəndində güllə xəsarəti aldığını, ardınca yaralı vəziyyətdə minaatan mərmisinin partlaması nəticəsində ikinci dəfə yaralandığını qeyd edib.

Zərərçəkmiş Rəvan Muradov Kəlbəcərdə düşmənin açdığı atəş nəticəsində yaralandığını söyləyib.

Zərərçəkən Aslan Hacıhəsənov dövlət ittihamçısı Vüsal Abdullayevin sualına cavabında deyib ki, düşmən təxribatı nəticəsində onun yanındakı 4 nəfər həlak olub. Minaatan mərmisinin yaxınlığında partlaması nəticəsində isə o və Xəyal Canbaxışov xəsarət alıblar.

Kənan Alməmmədov Xocavənd rayonunda düşmən tərəfindən açılan atəş nəticəsində qəlpə yarası aldığını deyib.

Zərərçəkmiş şəxs Afiq Kərimov Ağdam rayonunda artilleriya atəşi nəticəsində xəsarət aldığını bildirib.

Vaqif Salmanov Xankəndidə düşmənin minaatandan açdığı atəş nəticəsində yaralandığını vurğulayıb.

Zərərçəkmiş Rafiq Bəkirov Laçın rayonunda Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən minaatandan açılan atəş nəticəsində yaralandığını bildirib.

Zərərçəkmiş şəxs Konsul Qasımov isə ifadəsində Xocalıda Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən açılmış atəşlər nəticəsində özünün, Nihad Seyidzadənin və Murad Hüseynovun müxtəlif növ bədən xəsarətləri aldıqlarını söyləyib.

Məhəmməd Quliyev deyib ki, Xocavənd istiqamətində minaatandan atəş açılması və bu zaman partlamış minanın qəlpələrinin ətrafa yayılması nəticəsində yaralanıb. O, Baş prokurorun böyük köməkçisi Vüsal Əliyevin sualına cavabında qeyd edib ki, həmin vaxt Murad İsgəndərov həlak olub.

Zərərçəkmiş şəxslər Qara Əsgərov, Mahir Mehdiyev, İsgəndər Mustafayev, Rəşid Bəşirov müxtəlif istiqamətlərdə Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən açılmış atəşlər nəticəsində xəsarətlər aldıqlarını diqqətə çatdırıblar.

Məhkəmə prosesində, zərərçəkmiş şəxslərin barələrində keçirilmiş məhkəmə-tibbi ekspertizasının rəyləri də elan edilib.

Məhkəmənin növbəti iclası iyulun 1-nə təyin olunub.

***XQ***

Yeni nəşrlər

# "Molla Nəsrəddin yolu"na qovuşan gülüş

**Soyuq bir qış günündə Ağdaşda dünyaya göz açmasına rəğmən, insanlara isti münasibəti xarakter cizgisi olan Xeyrəddin Qoca xeyirxahlığı, doğma Qulbəndə kəndinin adına uyğun olaraq, yaxşılıqlara və sarıldığı qələmə qul bəndəliyi ilə hörmət-izzət qazanıb. Tanıtımına ehtiyac duyulmayan yazıçı, dramaturq, siyasi və dövlət xadimidir Xeyrəddin Qoca.**



Ömrünün 75-ci zirvəsindən geri baxanda fərəhlənməli, qürur keçirməli tərcümeyi-halı gəlir göz önünə. Fəaliyyətinə "qələm fəhləliyi" – müxbirliklə başlayıb. Sonra YAP-ın məşhur "91-lər"inin üzvü, Milli Məclisin deputatı, neçə il Türkiyə Cümhuriyyətinin İstanbul şəhərində Azərbaycanın baş konsulu da olub, 3-cü dərəcəli "Vətənə xidmətə görə" və "Şöhrət" ordenləri ilə də təltif edilib, eyni zamanda, Prezidentin fərdi təqaüdçüsüdür, amma sadəliyi, səmimiliyi, sədaqəti ilə daha çox tanınır, seçilir, sevilir.

...Xeyrəddin Qocanın 75 illik yubileyi münasibətilə onun haqqında "Molla Nəsrəddin" yolu" adlı yeni kitabın çapdan çıxdığını bilincə oxumaq istədiyimizi söylədik. O da: "1–2 günə gətirərəm", – dedi. Bir də gördük ki, toplunun nüsxələri ilə redaksiyamıza gəlib. Bax, belə sözünə düz adamdır Xeyrəddin Qoca. Yeni kitab onunla bağlı duyğu və düşüncələrimizi bir qədər də aydınlatdı, belə bir ziyalı dostumuzun olması ilə növbəti dəfə öyündük.

Gənc yazıçı Selcan Muradzadənin tərtibatı ilə "Mütərcim" nəşriyyatında çap olunan nəfis topluda son 10 ildə yazıçının haqqında dövrü mətbuatda dərc edilmiş məqalələr, həmçinin yubilyarın yeni hekayələri və pyesləri toplanıb. Bu barədə söz açmazdan öncə bir neçə kəlmə ilə kitabın niyə məhz "Molla Nəsrəddin" yolu" adlandırılmasına münasibətimizi bildirək. Uğurlu addır, çünki Xeyrəddin Qoca yaradıcılıq xisləti ilə daha çox elə "Molla Nəsrəddin" ədəbi məktəbinin layiqli davamçısıdır. Yeri gəlmişkən, toplunun lap əvvəlində dahi bəstəkar, publisist Üzeyir bəy Hacıbəylinin belə bir deyimi verilib: "Molla Nəsrəddini öldürmək olsa da, Molla Nəsrəddinçiliyi öldürmək olmaz". Görünən də budur ki, bu böyük məktəbi Xeyrəddin Qoca kimi layiqli davamçılar bu gün də yaşatmaqdadırlar.

Kitabda AMEA-nın prezidenti, akademik İsa Həbibbəylinin "Satirik qələmlə mübariz keşikdə", akademik Nizami Cəfərovun fikirləri əks olunan "Akademik Nizami Cəfərovun dedikləri", filologiya elmləri doktoru Gülbəniz Babayevanın, filologiya üzrə fəlsəfə doktoru Alqış Musayevin, Sərvaz Hüseynoğlunun dəyərli yazıları, bir sıra qələm adamlarının, elm, mədəniyyət, incəsənət xadimlərinin fikir, mülahizə və düşüncələri yer alıb.

Maraqlıdır ki, məqalələrin hamısında ümummilli lider Heydər Əliyevlə Xeyrəddin Qocanın unudulmaz, xoş münasibətləri və görüşləri haqqında fikirlər qırmızı xətlə keçir. Xatırladılır ki, 1992-ci ildə Yeni Azərbaycan Partiyasının yaradılmasının təşəbbüskarlarından, Ulu öndəri o zaman ölkəni düşdüyü bəlalardan qurtarmaq üçün təkidlə hakimiyyətə qayıtmağa çağıran "91-lər"dən biri Xeyrəddin Qoca olub. O, Yeni Azərbaycan Partiyasının Naxçıvanda keçirilən təsis konfransında iştirak edib, Siyasi Şuranın üzvü seçilib, 1995-ci ildə 1-ci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı mandatına layiq görülüb.

Xeyrəddin Qoca 1997-ci ilin dekabrından 2003-cü ilin mart ayına qədər İstanbulda Azərbaycanın baş konsulu vəzifəsində işləyib. Ona 1-ci dərəcəli Fövqəladə və Səlahiyyətli Səfir rütbəsi verilib. Təbii ki, unudulmaz dahi şəxsiyyətlə yaddaqalan görüşləri, cümləbəcümlə əzbər bildiyi söhbətləri olub və Xeyrəddin Qoca bütün bunlar barədə həm yazılarında, həm də təəssürat və xatirələrində sevgi ilə söz açıb. Burası da var ki, Heydər Əliyev heç də hər kəslə ünsiyyətdə olub, həsbi-hala girməzdi. Yalnız yaxından tanıdığı, saflığına bələd olduğu şəxslərə fikirlərini etibar edərdi. Müəlliflərin bu barədə qeydləri Xeyrəddin Qoca şəxsiyyətinin səciyyəvi portret cizgilərini təşkil edir və hər biri konkret fakt və bilgilərə söykənən elmi, eləcə də oçerkvari xarakter daşıyır.

Akademik İsa Həbibbəyli yazır: "Müstəqillik dövrü Azərbaycan ədəbiyyatında satirik ədəbiyyatın əsas yaradıcılarından biri olan yazıçı-publisist Xeyrəddin Qoca artıq ölkəmizdə bu sahənin ən aparıcı simaları sırasındadır. Çətin və məsuliyyətli yaradıcılıq sahəsi olan satirik ədəbiyyatın böyük ənənələrinin yaşadılması və yeni tarixi dövrə uyğun olaraq yaradıcı şəkildə inkişaf etdirilməsi Xeyrəddin Qocanın ədəbiyyat sahəsindəki əsas uğurudur. O, əvvəlcə tənqidi xarakterli publisist məqalələr yazıb çap etdirməkdən tədricən satirik nəşrə keçmiş və bu istiqamətdə özünü tapmışdır. Artıq Azərbaycan ədəbi-elmi ictimaiyyəti Xeyrəddin Qocanı ciddi satirik yazıçı kimi yaxından tanıyır və onun satira yaradıcılığı sahəsindəki fəaliyyətini yüksək qiymətləndirir".

Ardınca Xeyrəddin Qoca Heydər Əliyevçilik – yeni azərbaycançılıq hərəkatına ürəklə bağlı olan, bu hərəkatın reallığına və gələcəyinə dərindən inanan vətənpərvər Azərbaycan ziyalısı kimi təqdim edilir. 150 illiyini qeyd etməyə hazırlaşdığımız milli mətbuat sahəsində keçdiyi yolun Xeyrəddin Qoca üçün ilk növbədə, həyatı və insanları daha yaxından tanımaq, habelə qələm vərdişləri qazanmaq baxımından böyük məktəbə çevrildiyi əsaslandırılır. Qeyd olunur ki, "Politexnik" qəzetinin müxbirliyindən, ayrı-ayrı qəzet redaksiyalarında daşıdığı baş redaktor müavini vəzifələrindən, "Dan ulduzu" və "Yeni Azərbaycan" qəzetlərinin baş redaktorluğunadək keçilən çətin və məsuliyyətli yolun təcrübəsi onun üçün təkcə qəzet materiallarını oxucuya çatdırmaqdan ötrü yox, həm də həyat materi-




alını dərindən öyrənərək, yazıçı kimi təqdim etmək baxımından ciddi zəmin hazırlamışdır. Beləliklə, maarifçi dünyagörüşü, zəngin həyat təcrübəsi və mətbuat dünyası Xeyrəddin Qocanı yaradıcılıqda və ictimai fəaliyyətdə tanıdan başlıca amil olub.

Akademik Nizami Cəfərov yazır: "O çox səmimi jurnalist, ictimai xadim və ədəbiyyat adamıdır. Bu, onu fərqləndirən xüsusiyyətlərdəndir... Xeyrəddin Qoca zarafat etməkdən çəkinmir və onun ədəbi, yazıçı kimi zarafatlarının mühüm xüsusiyyətlərindən biri odur ki, zarafatlarına birinci növbədə ən çox özü gülür".

Kitabdakı yazısında Sərvaz Hüseynoğlu Xalq yazıçısı Anarın bir fikrini çox yerində işlədib: "Satirik olmaq cəsur olmaqdır, heç nədən qorxmamaqdır. Bu gün həyatımızda olan bir çox nöqsanları görmək və göstərmək böyük cəsarətdir. Xeyrəddin Qoca heç nədən və heç kimdən qorxmur". – Daha bir xarakter cizgisi!

"Molla Nəsrəddin" yolu" kitabında yazıçının 40-a yaxın yeni hekayəsi, "Zamanın ruzigarı", "Bu da axırı.." adlı pyesləri, səhnələşdirilmiş əsərlərinin afişaları, bəzi tamaşalarından səhnələr, ona həsr olunmuş "Dostluq şarj"ları, satirik hekayələrinə çəkilmiş gülüş dolu illüstrasiyalar kitabın məziyyətlərini daha da artırır. Elə hekayələrinin adlarını oxuyan kimi adam bu kitaba sarılmaya bilmir. Bir neçəsini yada salaq: "Abırlı maşın", "Bəs yuxarıdakıların yedikləri?", "Yaltaqlardan vergi", "Lenin diridir, yoxsa ölü?", "Müfəttişin payı", "Mırt" və sair. Yazıçının yeni hekayələri 10 il əvvəl çıxmış "Xeyrəddin Qocanın gülüşü" miniatür kitabını da yadımıza saldı. O vaxt həmkarımız Tahir Aydınoğlu yazmışdı ki, kitab həcmcə ovuca yerləşsə də, içərisində bir dünya gülüş yer alıb. Onu da xatırladıq ki, Xeyrəddin Qocanı satirik ruhuna görə kimi Nəsrəddin Xocaya, kimi Əziz Nesinə, kimi Anton Çexova, kimi də Əbdürrəhim bəy Haqverdiyevə bənzədir. O isə məhz özünəməxsus mənalı gülüş yarada bilir. Bu baxımdan yazıçı Kamran Nəzirlinin kitab üçün qələmə aldığı məqaləni "Allah səni güldürsün, Xeyrəddin!" adlandırması təbii təsir bağışlayır.

Biz də qələm dostumuz və qəzetimizin dostu olan Xeyrəddin Qocaya hər zamankı kimi, mənalı şəkildə gülməyi və güldürməyi arzu edirik.

***Əli NƏCƏFXANLI***
***XQ***

IV Bakı Piano Festivalı

# Melodiyaların əfsunladığı sehrli axşamlar

**Azərbaycan paytaxtında beynəlxalq səviyyəli musiqi bayramı davam edir. Ötən günlər ərzində festival çərçivəsində maraqlı layihə üzrə bir sıra yaddaqalan təqdimatlar olub.**



Konsert salonlarında Fransanın məşhur caz-divası Mina Aqossinin kvarteti, Türkiyənin yenilikçi "Altera Ensemble" qrupu, ADA Universitetində Şahin Növrəslinin çıxışları, "Caz gecəsi", Zaza Xutçişvilinin, Simon Raabın, Liz Rasanın, Mike Del Ferronun performansları gözəl musiqi aurası yaradıb. Xorvatiyadan Lela Kaploviç (vokal), Petar Kulibrk (piano), Filip Pavik (gitara) və Luçiya Kaploviç (skripka) də özlərinin dünyaca məşhur caz qruplarının bacarığını göstəriblər.



IV Bakı Piano Festivalı çərçivəsində Beynəlxalq Muğam Mərkəzində pianoçu Röya Taner (Şimali Kipr), pianoçu Yeganə Axundova (Azərbaycan) və dirijor Valid Ağayevin (Türkiyə) rəhbərliyi altında Bakı Kamera Orkestrinin iştirakı ilə klassik musiqi konsertinə gələnlər Mərkəzin foyesində "Arts Council of Azerbaijan" təşkilatının təşəbbüsü ilə çağdaş rəssamların fortepiano mövzusunda əsərlərindən ibarət sərgi ilə tanış oldular.

**"Arts Council of Azerbaijan"ın rəhbəri Dadaş Məmmədovun sərgi barədə dedikləri:**

– Bakı Piano Festivalına artıq neçə ildir dəstək verir və layihəyə rəssamları da cəlb edə bilirik. Çünki musiqi və rəssamlıq bir-birindən ayrılmaz sahələrdir. Bu festival çərçivəsində biz bir sıra vorkşoplar təşkil etdik. Bu zaman ərsəyə gətirilən əsərlər indi gözləriniz önündədir. Bu gün burada sərgilənən rəsmlər 17 əsərdən ibarət böyük bir kolleksiyadır. Bəzi sessiyalar canlı musiqi və caz improvizasiyalarının müşayiəti ilə təşkil olunub. Bu, həqiqətən də çox gözəldir!

Konsertdən əvvəl musiqiçilər jurnalistlərlə festival təəssüratlarını bölüşdülər.

**Yeganə Axundova – pianoçu və bəstəkar, Əməkdar artist:**

– Belə bir festivalın, xüsusilə də bizim Azərbaycan fortepiano məktəbi üçün çox vacib olan bu tədbirin keçirilməsi, həqiqətən də, möhtəşəm hadisədir. Festivalın özəlliyi ondadır ki, burada tamamilə fərqli musiqi janrları yer alır: klassika, caz və müxtəlif eksperimental çıxışlar. Festivalda həm yerli, həm də xarici məşhur musiqiçilər, eləcə də istedadlı uşaqlar iştirak edirlər. Bu gün, məsələn, mən Şimali Kiprdən olan gözəl pianoçu Röya Taner ilə, Bakı Kamera Orkestrinin dirijoru, gənc və istedadlı musiqiçi Valid Ağayevlə bir səhnəni paylaşacağam. Valid Azərbaycan dirijorluq məktəbinin gələcəyidir və inanıram ki, çox parlaq bir yolu olacaq. Bu festivala görə əsas təşkilatçı olan caz pianoçumuz Şahin Növrəsliyə təşəkkür edirəm. O, Azərbaycan caz məktəbini beynəlxalq arenada tanıdır və biz onunla fəxr edirik.

**Valid Ağayev – Adana şəhərindəki Çukurova Universiteti Dövlət Konservatoriyasının müəllimi, Mersin Şəhər Orkestrinin dirijoru:**

– Konsertdən əvvəl xoş bir həyəcan içindəyəm. Çünki ilk dəfə Yeganə Axundova və heyrətamiz Bakı Kamera Orkestri kollektivi ilə birgə çıxış edəcəyəm. Ümid edirəm ki, hər şey uğurla keçəcək. Şahin və Natavan Növrəsliləri, həmçinin bu axşamın bütün iştirakçılarını möhtəşəm musiqi bayramı münasibətilə təbrik edirəm. Bayram böyük uğurla keçir.

**Röya Taner – pianoçu, Şimali Kipr Türk Respublikasının Əməkdar artisti:**

– Mən Azərbaycana artıq 6-cı dəfədir ki, gəlirəm. Müxtəlif tədbirlərdə, ölkənin müxtəlif səhnələrində çıxış etmişəm. Lakin Bakı Piano Festivalında ilk dəfədir çıxış edirəm. Bu layihənin bir hissəsi olduğum üçün çox şadam. Məni gözəl Bakının gözəl layihəsinə dəvət etdiyinə görə Şahin Növrəsliyə təşəkkür edirəm.

İki hissədən ibarət olan konsert böyük uğurla keçdi. Maraqlı performanslar, ifaçıların virtuoz çıxışları hər kəsdə xoş duyğular yaratdı. Sənətçilər dönə-dönə alqışlandılar. Bir sözlə, çox ecazkar gecə oldu. Caz improvizasiyaları paytaxtın yaz küləkləri ilə bir ahəngdə könülləri oxşadı.

"Rotunda Roof Garden"də isə festival Əməkdar artist Şahin Növrəslinin virtuoz konserti ilə davam etdi. Onun pianoda, Fuad Cəfərin bas gitarada, Elşad Abdurəhimovun nağarada və Braziliyadan gələn xüsusi qonaq Ayzek Cambanın barabanda çıxardıqları "pəstah"lar festivala xüsusi rəng qatdı. Musiqilər caz ənənələrindən, Avropa klassikasından, polifoniya elementlərindən, blüzdən və xalq musiqisindən qaynaqlanan parlaq improvizasiyalar idi. Hər bir nömrədən Şahin bəyin Qərb və Şərq ənənələrini ustalıqla birləşdirdiyi aşkar görünürdü. Buna görə də hər nömrə tamaşaçıda heyrət dolu dərin emosiyalar yaradırdı, hər not sehrli gecənin ab-havasını ötürür və tamaşaçıların diqqətini çəkirdi. Konsert gurultulu alqışlarla başa çatdı.

Festival çərçivəsində "Fortepiano üçün ədəbi etüd" adlı müsabiqəni və buna həsr olunan ədəbi axşamı da qeyd etmək olar. Bakı Piano Festivalı iyunun 28-dək davam edəcək.

***Ə.DOSTƏLİ***
***XQ***

Gənc istedadlar

# Aydanın qrafik nağılları

**Təsviri sənət hər bir rəssamdan bənzərsiz duyum və estetik baxış tələb edir. Buna görə də öz dəsti-xəttini formalaşdırmaq üçün fırça ustası yaxşı təhsil almalı, özəl yaradıcılıq yolu keçməli, fərdi potensialını daim inkişaf etdirməlidir. Bu xüsusiyyətləri özündə birləşdirən gənc rəssamlardan biri də Aydan Vəliəhddir.**







Ötən əsrin 90-cı ilində Bakı şəhərində dünyaya göz açan Aydan ilk bədii təhsilə hələ məktəbli yaşlarında yiyələnib. Binəqədi rayonu 246 saylı liseydə oxuyub, 10 yaşından Tofiq İsmayılov adına Uşaq və Gənclər Yaradıcılıq Sarayında rəsm dərnəyinə gedib və sənətə ilk addımlarını orada atıb. Onun istedadına erkən dövrlərdə bələdçisi müəllimi Reyhan Əliyeva olub.

Yaradıcılıq potensialını inkişaf etdirmək məqsədilə Aydan 2011–2015-ci illərdə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında Qrafika ixtisası üzrə təhsil alıb, burada Xalq rəssamları Cəmil Müfizadə və Arif Hüseynov kimi sənətkarların etimadını doğrultmağa çalışıb. Akademiyada onun "Tıq-tıq xanım" adlı diplom müdafiəsi yüksək qiymətləndirilib.

Gənc rəssamın performansı onun davamlı sənət axtarışında olduğunu, forma və məzmun vəhdətində fərqli yanaşmalar axtardığını göstərir. Rəsmlərində müşahidə edilən həssas duyumu, xüsusilə təbiət motivlərinə estetik yanaşması onun incə ruh dünyasının bariz təzahürüdür. Günün müxtəlif vaxtlarında müşahidə etdiyi mənzərələri, təbiətin ovqat dəyişikliklərini sənət dilinə çevirə bilməsi Aydan Vəliəhdin müşahidə qabiliyyətinin və duyğu zənginliyinin göstəricisidir. Buna misal olaraq ərsəyə gətirdiyi "Bahar gəldi", "Bahar", "İnci çiçəkləri", "Əncirlər" və s. adlı əsərlərini sadalamaq olar. Onun iştirakı ilə reallaşan bir çox sərgi və müsabiqələr sırasında "Şuşa bilmirəm", "Xocalını Unutma və Unutdurma", "Mən fəxr edirəm ki, azərbaycanlıyam", "Xəyalımın illüstrasiyaları", "İstedad sorağında" kimi layihələr xüsusi qeyd olunmalıdır. Aydan Vəliəhd bu layihələrdə fəal iştirak etməklə yanaşı, dəfələrlə diplom və mükafatlara da layiq görülüb.

2015-ci ildən Azərbaycan Rəssamlar İttifaqının gənclər, 2025-ci ildən isə əsas bölməsinin üzvü olan Aydan Vəliəhdin fərdi yaradıcılığı 2019-cu ilin dekabrında tam mənada sənətsevərlərin qarşısında təqdim olunub. Qarışıq texnika və qrafik əsərlərdən ibarət "QRAFİKA-2019" adlı fərdi sərgisində nümayiş olunan 30-dan çox əsər tamaşaçılarda dərin estetik təəssürat yaradıb.

Bu gün də yaradıcılıq yolunu inamla davam etdirən Aydan Vəliəhd sənətdə sadəliklə dərinlik, sükutla danışan forma arasında mükəmməl bir harmoniya yaratmağı bacaran, çağdaş Azərbaycan təsviri sənətində öz yerini formalaşdırmaqda olan istedadlı sənətkar kimi diqqət çəkir.

***Ziyarət Cabarova-QƏHRƏMANOVA,***
***sənətşünas***

# "Bilik olimpi"nin qalibləri

**Bakı Konqres Mərkəzində 2024–2025-ci tədris ili üzrə Respublika Fənn Olimpiadalarının qalibləri üçün təntənəli mükafatlandırma mərasimi keçirilib.**





Əvvəlcə olimpiadanın mühüm məqamlarını və qaliblərin uğurlarını əks etdirən videoçarx nümayiş olunub.

Sonra elm və təhsil naziri Emin Əmrullayev çıxış edib. O, qalib şagirdləri, onların valideynlərini və müəllimlərini təbrik edərək deyib: "Respublika Fənn Olimpiadaları təhsil sistemimizin əsas tədbirlərindəndir. Son illər olimpiadalara 80 mindən çox şagird cəlb olunub. Onların az bir qisminin qalib adını almasına baxmayaraq, burada qazandıqları təcrübələrdən həyatlarının müxtəlif mərhələsində istifadə edəcəklər. Qalib olmaq yalnız bilik deyil, zəhmət və məsuliyyət tələb edir. Bugünkü uğurlar sabahın möhkəm təməlidir".

Bildirilib ki, hazırda Azərbaycanda 30-dan çox lisey və gimnaziya fəaliyyət göstərir və yaxın gələcəkdə bu sayın artırılması nəzərdə tutulur. Məqsəd istedadlı uşaqların vaxtında aşkar edilməsi və onların dərinləşdirilmiş proqramlarla təhsilə yönləndirilməsidir. Fizika, riyaziyyat, kimya və biologiya üzrə təmayüllü təhsil müəssisələri uğurla fəaliyyət göstərir. Xüsusilə Sumqayıt şəhərindəki tətbiqi təmayüllü lisey və gimnaziyalar, eləcə də Mingəçevirdə fəaliyyət göstərən məktəblər ixtisaslaşma istiqamətində ciddi irəliləyiş nümayiş etdirir. Bu modelin bölgələrdə daha da genişləndirilməsi nəzərdə tutulur.

Qeyd edək ki, builki olimpiadalarda 514 şagird qalib adını qazanıb: 95 nəfər 1-ci yerə, 170 nəfər 2-ci yerə, 249 nəfər isə 3-cü yerə layiq görülüb. Ənənəvi xarakter daşıyan bu tədbirdən məqsəd istedadlı şagirdlərin elmi nailiyyətlərini cəmiyyətə tanıtmaq və onların gələcək uğurlarına stimul verməkdir.

***XQ***

# Leyla və Arzu Əliyevalar Xızıda






**İyunun 23-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva Xızı rayonuna səfər ediblər.**

IDEA İctimai Birliyindən bildirilib ki, səfər çərçivəsində Leyla Əliyevanın təşəbbüsü ilə əsaslı şəkildə yenidən qurulan Xızı rayon Uşaq-Gənclər İdman-Şahmat Məktəbinin açılışı olub. Yenilənmiş məktəb binası lazımi tədris avadanlıqları ilə təchiz olunub, uşaqların intellektual inkişafına yönəlmiş təlim şəraiti yaradılıb.

Leyla Əliyevaya məktəbin fəaliyyəti və burada təşkil edilən şahmat dərsləri barədə ətraflı məlumat verilib. Tədbir zamanı məktəblilərə müxtəlif hədiyyələr təqdim olunub. Bundan əlavə Xızı rayonunun Giləzi qəsəbəsində 100-ə yaxın uşağa idman geyim dəstləri və futbol topları təqdim olunub.

***

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva Xızı rayonuna səfəri çərçivəsində Altıağac Milli Parkının ərazisində yerləşən Vəhşi Heyvanlar üçün Reabilitasiya Mərkəzinin yenidən qurulmasının təməlqoyma mərasimində iştirak ediblər.

Burada reabilitasiyaya ehtiyacı olan vəhşi heyvanların, xüsusilə də ayıların təbii yaşam mühitinə qaytarılması üçün zəruri şərait yaradılacaq. Mərkəzdə heyvanların baytarlıq müayinələrindən keçirilməsi, fiziki reabilitasiya prosesləri, davranış bərpası mərhələləri




üzrə proqramlar və xüsusi qidalanma rejimləri tətbiq olunacaq.

Daha sonra Bakı Zooloji Parkında uzunmüddətli reabilitasiya prosesi tamamlanmış və tam sağalmış vəhşi quşlar Leyla Əliyeva və Arzu Əliyevanın iştirakı ilə Altıağac Milli Parkının ərazisində təbiətə buraxılıb. Təbiətə buraxılan quşlar arasında 2 bataqlıq belibağlısı və 1 ağquyruq sahil qartalı var.

IDEA İctimai Birliyi vətəndaşlara müraciət edərək bildirir ki, vəhşi heyvanların ev şəraitində saxlanılması heyvanların həyatına ciddi təhlükə yaranmasına səbəb olur. Eyni zamanda, vətəndaşlardan zəif və ya xəsarət almış vəhşi heyvanlarla rastlaşdıqda onların reabilitasiyaya cəlb olunması üçün Bakı Zooloji Parkının qaynar xəttinə (012 4401096) məlumat vermələri xahiş olunur.

***

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva Xızı rayonuna səfəri çərçivəsində "Gənc arıçı" layihəsinin iştirakçılarından biri olan, Altıağac qəsəbəsində yaşayan Dadaşovlar ailəsinin qonağı olub.

IDEA İctimai Birliyindən bildirilib ki, görüş zamanı ailə üzvləri ilə səmimi söhbət edilib, onların layihə çərçivəsində qazandıqları təcrübə və gələcək planları ilə yaxından maraqlanılıb.

"Gənc arıçı" layihəsinin əsas məqsədi regionlarda gənc ailələrin arıçılıq sahəsinə marağını artırmaq, onların məşğulluğunu və ekoloji cəhətdən dayanıqlı kiçik ailə bizneslərini dəstəkləməkdir.

**Azərbaycan milli mətbuatı – 150**

# İdman jurnalistikamızın qoşa yazarı

*Mirpaşa Miriyev – Aqşin Kazımzadə tandemi çiyin-çiyinə çalışırdı*

**Şanlı tarix – Azərbaycan milli mətbuatının 150 illik yubileyi ərəfəsində diqqətinizə çatdırdığımız foto çox mənalı və məzmunlu bir xatirədir. Fotoda idman jurnalistikamızda dərin iz buraxmış Mirpaşa Miriyev (solda) – Aqşin Kazımzadə tandemi əks olunub.**



Ötən əsrin ikinci yarısında uzun illər ərzində "Azərbaycan bədən tərbiyəçisi" – "Fizkulturnik Azerbaydjana", sonralar isə "İdman" – "Sport" adlanan qəzetlərə birlikdə rəhbərlik etmiş bu iki Əməkdar jurnalist – redaktor və onun müavini daim çiyin-çiyinə işləyərək, qibtəediləcək yaradıcılıq uğurları ilə yadda qalmışlar. Onlardan birincisi idman tariximizdə rekordçu redaktor kimi yaşayır, digəri isə, sözün əsl mənasında, onun sağ əli idi.

Mənə də 1968-ci il iyulun 1-dən etibarən Mirpaşa müəllimlə 87-ci ilədək, A.Kazımzadə ilə də 93-dək birlikdə işləmək, yaxından ünsiyyətdə olmaq, onların yaradıcılığından bəhrələnmək xoşbəxtliyi nəsib olmuşdu. Heyrətamiz dərəcədə maraqlı, güclü tandem idi. Redaktorun mükəmməl təşkilatçılıq bacarığı, səmimiyyəti və hər kəsə qayğıkeşliyi, redaktor müavininin isə respublikanın və dünyanın bir an belə dayanmayan idman həyatında baş verən hadisələri diqqət mərkəzində saxlayıb, operativ yazılarla işıqlandırmaq əzmi bu tandemin başlıca üstünlüyü idi.

M.Miriyev və A.Kazımzadə Azərbaycan idman mətbuatında çox nümunəvi, uzun və şərəfli bir yol keçmiş, idmanımızın daha da təbliğinə və inkişafına öz töhfələrini vermişlər. Mirpaşa müəllimin 37 il – 1950-ci ildən 1987-ci ilədək qəzetə rəhbərlik edib, bu göstəriciyə görə qeyri-rəsmi rekord müəyyənləşdirməsi çox şeyə sübutdur. Bu illər ərzində o, jurnalistika ilə yanaşı, idman meydanlarında da tanınmış insanlarla sıx əməkdaşlıq şəraitində çalışıb, gur vaxtlarında tirajı 120 min nüsxəyə çatan qəzeti yeniyetmələrdən tutmuş yaşlı insanlara, bir neçə nəslin nümayəndələrinədək hamıya sevdirmişdi.

Miriyev kimi, həyatı, onunla da birlikdə mətbuatı yüksək nüfuzla tərk etmiş, 5 Olimpiya oyunlarının, idmanın müxtəlif növləri üzrə dünya və Avropa çempionatlarının birbaşa hadisə yerində şahidi olmuş Kazımzadə də "İdman" – "Sport"da redaktoru ilə birlikdə mübariz bir heyət yaradaraq, ciddi uğurların şahidi olmuşdu.

Çox vacib məqamdır ki, qəzetin rəhbərliyi redaksiyaya işçilər qəbul edərkən yaxşı yazmağı bacarmaqla yanaşı, idmanın ayrı-ayrı növlərinin incəliklərinə bələd olan mütəxəssislərə xüsusi diqqət yetirirdi. Onların öz sıralarına cəlb etdikləri əməkdaşlar arasında idman ustaları və ustalığa namizədlər, ümumittifaq və respublika dərəcəli hakimlər, qrossmeysterlər də az deyildi. Belələrinin hazırladıqları materiallar daha səriştəli, daha dolğun olub günün tələblərinə tam cavab verirdi. Oxucu da məhz buna görə işgüzar kollektivə rəğbətini əsirgəmirdi.

Redaktorla müavininin birgə səyi ilə "İdman" – "Sport"da çox mübariz bir komanda formalaşmışdı. İdman dairələrində heç kim kollektivin gördüyü böyük işlərə biganə deyildi.

Bu gün də adları Azərbaycan idman mətbuatının baniləri sırasında hörmətlə çəkilən, o vaxtlar yüksək peşəkar fəaliyyətləri heç kimdə şəkk- şübhə doğurmayan M.Miriyev 2007-ci ildə 87 yaşında, A.Kazımzadə isə 2011-ci ildə ömrünün 74-cü ilində əbədiyyətə qovuşmuşlar. Hər ikisi də iyun ayında. Üstəlik də, Aqşin müəllim irili-xırdalı minlərlə yazı həsr etdiyi Azərbaycan futbolunun 100 illiyinin qeyd olunduğu günlərdə – iyunun 10-da.

Həqiqətən, unudulmaz tandem idi…

***Oqtay BAYRAMOV,***
***Əməkdar jurnalist***

**“İnşaat Konstruksiyaları Zavodu” ASC-nin 2024-cü il dekabrın 31-nə mühasibat balansı**

**manatla**

| **AKTİVLƏR** | **2024-cü il** | **2023-cü il** |
|---|---|---|
| Torpaq, tikili və avadanlıqlar | 130183.19 | 137034.590 |
| **Cəmi uzunmüddətli aktivlər** | **130183.19** | **137034.90** |
| Ehtiyatlar | 689.52 | 689.00 |
| Qısamüddətli debitor borcları | 1501595 | 1501510.25 |
| Sair qısamüddətli aktivlər | 40.0 | 40.00 |
| Digər aktivlər | 1634644.20 | 1618646.29 |
| **Cəmi qısamüddətli aktivlər** | **3136968.72** | **3120886.06** |
| Cəmi aktivlər | 3267151.91 | 3257920.96 |
| **Kapital və öhdəliklər** | | |
| Kapital | 370930.00 | 370930.00 |
| **Cəmi kapital** | **370930.00** | **370930.00** |
| Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər | 1441419.16 | 1441419.16 |
| **Cəmi uzunmüddətli öhdəliklər** | **1441419.16** | **1441419.16** |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 5511.79 | 7373.56 |
| Sair qısamüddətli öhdəliklər | 1449290.96 | 1438198.24 |
| **Cəmi qısamüddətli öhdəliklər** | **1454802.75** | **1445571.80** |
| Cəmi öhdəliklər | 2896221.91 | 2886990.96 |
| **Cəmi kapital və öhdəliklər** | **3267151.91** | **3257920.96** |

**Mənfəət və zərər haqqında hesabat (xərclərin funksiyaları üzrə)**

| **Mənfəət və zərər haqqında hesabat** | **2024-cü il** | **2023-cü il** |
|---|---|---|
| Əsas əməliyyat gəliri | 17373.03 | 17381.36 |
| Satışın maya dəyəri | 40160.10 | 40727.57 |
| İnzibati xərclər | 1244.85 | 1114.03 |
| Hesabat dövründə xalis mənfəət (zərər) | -24031.92 | -24460.24 |

**Xərclərin xüsusiyyətləri üzrə təsnifat əsasında əməliyyat xərcləri haqqında məlumat**

| | | **2024-cü il** | **2023-cü il** |
|---|---|---|---|
| İşçi heyəti üzrə xərclər | 533 nömrəli hesabın krediti üzrə dövrüyyə | 21840.00 | 21840.00 |
| Amartizasiya xərcləri | 112.№-li hes kredləri üzrə dövrüyyə | 6851.71 | 7212.32 |
| Sair əməliyyat xərcləri | 731 | 739.46 | 876.00 |
| Cəmi | | 29431.17. | 29928.32 |

**BEYNƏLXALQ HƏYAT**

# Raketlərin diqtə etdiyi diplomatiya

**İran iyunun 23-də gecə ABŞ-ın Qətərdə yerləşən Əl-Udeyd aviabazasına raket zərbələri endirib. Ölkənin dövlət televiziya və radio şirkəti (İRİB) xəbər verib ki, hərbi əməliyyat ABŞ-ın İranın nüvə obyektlərinə zərbələrinə cavab olaraq baş tutub. Vaşinqton Tehranın raket zərbəsinə cavab verməyərək tərəfləri atəşkəs elan etməyə çağırıb. İndi vəziyyətin normallaşması tərəflərin çağırışlara reaksiyasından asılı olacaq.**

"New York Times" qəzetinin diplomatik mənbələrə istinadən yaydığı məlumata əsasən, Tehran böyük itkilərin qarşısını almaq məqsədilə hücumdan əvvəl Qətər rəhbərliyini məlumatlandırıb. ABŞ rəsmilərinin "Əl-Cəzirə"yə verdiyi məlumata görə, hücum nəticəsində hər hansı hərbçi itkisi qeydə alınmayıb.

Qətər Xarici İşlər Nazirliyinin sözçüsü, Baş nazirin müşaviri Macid bin Məhəmməd əl-Ənsari İran tərəfindən həyata keçirilən hücumu sərt şəkildə pisləyib. O, bunun Qətər Dövlətinin suverenliyinə və beynəlxalq hüquqa açıq-aşkar zidd olduğunu bildirib. Nazirlik Qətərin cavab vermək hüququnu özündə saxladığını bəyan edib. Qətər rəsmisinin sözlərinə görə, hava bazası hücumdan əvvəl təhlükəsizlik məqsədilə təxliyə olunub və zərbələr nəticəsində heç bir insan itkisi qeydə alınmayıb. Qətər Hərbi Hava Qüvvələrinin raketləri zərərsizləşdirdiyi vurğulanır.

Ərəb Dövlətləri Liqası və Ərəb Parlamenti də hücumu pisləyib. Təşkilatın baş katibi Əhməd Əbul-Ğeyt İranın bu addımını Qətərin suverenliyinə qarşı açıq təca-



vüz və beynəlxalq hüququn pozuntusu kimi qiymətləndirib. Bəyanatda regionda münaqişənin dərinləşməsinin təhlükəli nəticələrə səbəb ola biləcəyi qeyd olunub.

Səudiyyə Ərəbistanı da İranın hərbi əməliyyatını sərt şəkildə qınayaraq Qətərlə həmrəylik nümayiş etdirib. Krallığın Xarici İşlər Nazirliyi bildirib ki, İranın bu addımı mehriban qonşuluq və beynəlxalq hüquq prinsiplərinin kobud şəkildə pozulmasıdır.

Eyni zamanda, CNN telekanalı ABŞ administrasiyasındakı mənbələrə istinadla bildirib ki, İran və İsrail arasında atəşkəs razılaşması əldə olunub. Şərtə əsasən, Tehran İsrailə qarşı hücumlardan çəkindiyi təqdirdə, tərəflər atəşi dayandıracaq. Ağ evin məlumatına görə, razılaşma ABŞ-ın İranın Natanz, Fordo və İsfahan nüvə obyektlərinə endirdiyi zərbələrdən sonra mümkün olub. Prezident Donald Trampın və İsrail Baş naziri Benyamin Netanyahunun telefon danışıqlarından sonra razılaşma baş tutub. Prezident Tramp sosial media hesabında "Atəşkəs artıq qüvvədədir. Xahiş edirəm, onu pozmayın!" – deyə çağırış edib.

Bununla belə, İran tərəfindən İsrailin şimalına yenidən raket atılmasından sonra, İsrail müdafiə naziri İsrael Kats ordusuna Tehrana qarşı hücumların davam etdirilməsi barədə göstəriş verib. Rəsmi bəyanatda qeyd olunur ki, istənilən atəşkəs pozuntusuna qətiyyətlə cavab veriləcək.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

"AZƏRRABİTƏİNŞAAT"
Açıq Tipli Səhmdar Cəmiyyəti
səhmdarlarının nəzərinə!

Hüquqi ünvanı, Bakı şəhəri, Sabunçu rayonu, Bakıxanov Şəhər Tipli Qəsəbə, Bünyadov (Bakıxanov qəsəbəsi) küçəsi 10 "AZƏRRABİTƏİNŞAAT" ATSC səhmdarlarının növbədənkənar illik ümumi yığıncağı 4 avqust 2025-ci il saat 15.00-da Bakı şəhəri, Nəsimi rayonu, Akademik Həsən Əliyev küçəsi 10/61 nömrəli ünvanda yerləşən inzibati binada keçiriləcəkdir.

Səhmdarların ümumi yığıncağının gündəliyi:

1. "AZƏRRABİTƏİNŞAAT" ATSC-nin 2024-cü ilin maliyyə hesabatının təsdiq edilməsi.

"AZƏRRABİTƏİNŞAAT" ATSC səhmdarlarının ümumi yığıncağının gündəliyinin materialları ilə tanış olmaq və əldə etmək məqsədilə Bakı şəhəri, Nəsimi rayonu, Akademik Həsən Əliyev küçəsi 10/61 nömrəli ünvana, 050-215-01-68 nömrəli telefona müraciət etmək olar.

***"AZƏRRABİTƏİNŞAAT" ATSC-nin idarə heyəti***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 129 (30823) 25 iyun 2025-ci il, çərşənbə

İdrakın kodları

# Əbədiyyət kodu: Ölüm, varlıq və sonluğun sirləri

X YAZI

### Ölüm kodlaşması varmı?



İnsanlığın ən qədim sualı budur: "Ölüm nədir və niyə var?" Bəs əgər həyat bir kodun nəticəsidirsə, onda ölüm də kodlaşdırılmış bir hadisədirmi? Bioloji baxımdan ölüm orqanizmin funksiyalarının dayanmasıdır. Ancaq bu sadə texniki tərif varlığın fəlsəfi dərinliklərini izah edə bilmir. Bəlkə də ölüm, həyat kodunun son sətiri, ya da başqa bir kodun – ruhani varlığın başlanğıcıdır.

Genetik sistemlərdə "apoptoz" deyilən təbii hüceyrə ölümü proqramlaşdırılmış şəkildə baş verir. Bu, kainatda kodlaşdırılmış ölümün mikrobioloji nümunəsidir. İnsanın makroölümü də belə bir proqramın nəticəsidirmi? Bəlkə də bədən ölür, amma şüurun başqa qatları yeni bir reallıqda, fərqli bir sistemdə fəaliyyətini davam etdirir.

### Ruh və şüurun davamlığı



Əgər insan şüuru sırf bioloji quruluşa bağlı deyilsə, onun davamlığı mümkündürmü? Süni intellekt sahəsində aparılan tədqiqatlar göstərir ki, məlumat ötürülə və saxlanıla bilir. İnsanın yaddaşı, düşüncə kodları və mənlik hissi də informasiya xarakteri daşıyırsa, niyə onlar "köçürülə" bilməsin?

Burada "ruh" anlayışı öz aktuallığını qoruyur. Ruh, bəlkə, kainatın universal kod bazasına qoşulan, ölümsüz məlumat daşıyıcısıdır. Bizim etdiklərimiz, düşündüklərimiz, hiss etdiklərimiz – hamısı bir növ "əxlaqi kodlaşdırma" ilə qalaktik sistemə ötürülür və orada yeni bir varlıq forması kimi yaşayır.

### Kainatın taleyi – kodun sonu varmı?

Əgər kainat da bir kod sistemidirsə, onun da başlanğıcı və sonu olmalıdır. Böyük Partlayış (Big Bang) bu sistemin işə düşməsi idisə, bəlkə, Böyük Dondurma (Big Freeze) – bütün enerjinin səpələnərək həyatın qeyri-mümkün hala gəlməsi – onun sonu olacaq?

Bəs bu "son", əslində, yeni bir "kod dövrü"nün başlanğıcı deyilmi? Axı kod heç vaxt sadəcə silinmir, o ya yenidən yazılır, ya da başqa bir platformada işləməyə davam edir. Əbədiyyət bəlkə də həyat, ölüm və yenidən doğuluş arasında, bu kodların daimi çevrilişidir.

### Sonluğun sirləri

Sonluq yalnız zaman anlayışına bağlıdır. Amma əgər zaman özü də kodlaşdırılmış bir konstruksiyadırsa, onun içindəki "son" da nisbi və dəyişkən ola bilər. Həyatın "müddəti" deyil, "mənası" əsas kodu müəyyən edir.

İnsan yaşadığı müddət ərzində öz kodunu – xatirələrini, əməllərini, sevgisini və mərhəmətini – əbədiyyətin sisteminə yazır. Və bu kod, ölüm qapısından keçsə belə, haradasa, hansısa bir qatda varlığını davam etdirir.

*Oğuz ARİF*

Kövrək duyğular ağuşunda

**Qardaşım əsgər gedəndə həyətimizdəki yasəmən salxım-salxım gül açmışdı. O, yasəmənin çiçəklərini doyunca qoxladı, ətrini ciyərinə çəkdi. Sonra məni əllərinin arasına alıb başı üzərinə qaldırdı. Sinəsinə sıxdı, alnımdan öpdü, əlindəki yasəmən gülünü yaxama taxdı və dedi:**



# Yasəmən – yar sevən



– Bu yasəmənə yaxşı qulluq et, vaxtında su ver. Susuzluqdan yanmağa qoyma. Dərslərini də yaxşı oxu, anamın sözünə bax, ona kömək et, kişi qırığı!

Yenidən yasəmən ağacına sarı döndü. Güləgülə: "Vətən borcumu yerinə yetirib qayıtdıqdan sonra yenə görüşərik, a yasəmənim", – dedi. Öz-özümə düşündüm, görəsən, qardaşım yasəmən deyəndə niyə dərindən ah çəkdi?! Sanki, ayrılıq qəlbini məngənə kimi sıxırdı. "Yasəmən"ə sözünü köks ötürərək dedi və getdi.

Evimizin doqqaz qapısından çıxanda doyunca onun arxasınca baxdım. Onunla vidalaşanların, yola salanların arasında elə vüqarlı görünürdü ki... Yerişi-duruşu, uca boyu, qəddi- qaməti, əsl kişi dəyanəti, kişi yaraşığı, idmançı görkəmi ilə seçilirdi.

Yaxşı güləşçi kimi rayonda tanınırdı. Dəfələrlə 1-ci yerə çıxmışdı. Bütün yarışlarda, rəqiblərinin kürəyini yerə vurub birincilik qazanmışdı. Rayonun idman şərəfini layiqincə qoruyurdu.

Qardaşımın yaxşı qarmon çalmağı, futbol oynamağı da vardı. Uşaqlıq dostları həyətimizə gələrdi. Həyətimiz qələbəlik olardı. Onlar futbol oynayanda qardaşım və dostları məni əldən düşənəcən "işlədərdilər". Futbol topunu daşımaq, mağazadan nəsə almaq və s. mənim boynumun borcu idi. Yorulub əldən düşsəm də, qardaşımın tapşırıqlarını həvəslə icra edirdim. Onun yanında özümü bəxtəvər sayırdım.

Ailəmiz çoxuşaqlı idi. 12 uşaq böyüyürdü ailəmizdə. O, 5-ci qardaşım idi. Qardaşlarımın sonbeşiyi isə mən idim. Ona görə də meylini daha çox mənə salmışdı. Mənim "Qəhrəman anam" bir zaman ömrünün fərəhli günlərini yaşayırdı. Qardaşım şəhid olanda anamın fərəhli günlərinin çırağı söndü. Sinəsinə bala dağı çəkildi. Ömrünün sonunadək "balam" deyib ağladı. Ağ saçlarının üstündən qara yaylıq bağladı.

...Anamın ağı deyib, oğul deyib, gecə-gündüz ağlamasının təsirindən elə kövrək olmuşdum ki... Yaz, yay, qış, payız anamın əli işdən qalmazdı. Bununla yanaşı, anamın əlində yağı daşsa da, hər gün onu yasəmənin yanında görürdüm. Anam o yasəməni göz yaşları ilə sulayırdı...

Qardaşım şəhid olandan sonra yasəmən də qurumağa başladı. Bircə kötüyü və çılpaq budaqları gözə dəyirdi. Gümüldənə-gümüldənə, qəribə bayatılar çağıra-çağıra ağlayırdı anam:

**Səməni,**
**Gül əkdim, ya səməni.**
**Qurudub yasəməni,**
**Salıbdı yasa məni.**

...Bir yaz günü yasəmən kökündən pöhrə verməyə başladı. Qardaşımın əllərinin sığalına, qayğısına öyrəşən yasəmən hansı ilahi hikmətin təsirindənsə salxım-salxım gül açmışdı. Anam sevincdən ağlayanda da bulud kimi gözlərindən yaş axırdı. Pərişan-pərişan yasəmənlə anam bir-birinə baxırdı.

Dərdi dözülməz ağrı kimi gözlərində yaşa dönmüşdü. İstəkli oğlu geridönməz quş olmuşdu. Anamın gözləri yaşlı idi. Dərdini yasəmənə danışırdı: "Balam sürücülük məktəbində oxuyarkən səni Qarayazıdan gətirib əkmişdi. 8-ci sinfi bitirdikdən sonra sürücülük məktəbində oxumağa getmişdi. Əsgərliyə gedənə qədər az bir vaxt sürücü işlədi. Sürdüyü maşını elə təmiz saxlayırdı ki... Baxanlar deyirdi maşınından gül ətri gəlir."

Qardaşımın dostları nə vaxtsa anama demişdilər ki, oğlunun sevdiyi qızın adı Yasəməndir. Həyətimizdəki yasəmən ağacını da, o, veribmiş.

Qardaşımın vəfatının 20 ili tamam olandan sonra 1-ci oğlum dünyaya gəldi. Dedilər Allah əvəzini verib. Ona qardaşımın adını verdik. Düşündüm ki, qurumuş yasəmənin kökünün illər öncəsi yenidən cana gəlməsi, pöhrələnib şaxələnməsi, gül açması hansısa hikmətdən və mistikadan xəbər verirmiş.

...Yasəmənlərin gül açan mövsümündə anamla bərabər qardaşımın qəbrini ziyarətə gedəndə özümüzlə bir dəstə yasəmən gülü aparmışdıq. Ora çatanda başdaşının yanında gül açmış yasəmən ağacına bənzəyən bir qız gördük. Heyrətdən yerimizdə donub qalmışdıq. Onu tanımırdıq. O, bizi görmürdü. Qardaşımın başdaşından boylanan şəklinə sığınaraq doluxsunmuşdu. Gül ətirli nəfəsi məzara ənbər çiləmişdi. Sən demə, bu, qardaşımın sevdiyi Yasəmən imiş. Onun qəlbindəki məhəbbətin bahar çağını sözlə ifadə etmək çətindir, çox çətindir. İki sevən qəlbin yasəmən ətirli ülfət nişanəsi təsvirə gəlməz. Ayrılıq ülfətə sərhəd çəkəndə, məhəbbət ürəkdə nəğməyə, çiçəyə dönür.

Şəhid qəbirləri heç vaxt tək qalmır. Şəhidlər cənnətdə, gül-çiçək içində uyuyurlar. Təsəllim artır ki, qardaşımın da bəxtinə şəhidlik düşüb...

Onun məzarı bir daha gözlərimdə nurlanan ocağa, sinəmdə isə çarpan ürəyə döndü:

**Ürək bir arzudur, yollarda itən,**
**Ürək heç kiriyən, susan deyilmiş.**
**Hələ indi-indi bilirəm, Vətən,**
**Sənə oğul olmaq asan deyilmiş...**

*Həzi HƏSƏNLİ,*
*şair-publisist*

## İDMAN

### 19 cüdoçumuz Avropa çempionatında




**Ölkəmiz Şimali Makedoniyanın paytaxtı Skopyedə keçiriləcək cüdo üzrə yeniyetmələr arasında Avropa çempionatında 14 çəki dərəcəsində 19 idmançı (10 oğlan, 9 qız) ilə təmsil olunacaq. Yarış sabah başlayacaq və 4 gün davam edəcək. Yığmamız turnirin son günündə qarışıq komanda yarışında mübarizə aparacaq.**

Yeniyetmə oğlanlardan ibarət yığmanın baş məşqçisi Emin İskəndərov, məşqçilər Nicat Şıxəlizadə ilə Kotaro Sasakidir. Yeniyetmə qızlardan ibarət yığmaya isə baş məşqçi Elnur İsmayılov, məşqçi Əmrah Əhmədov rəhbərlik edəcəklər.

### "Neftçi"nin rəqibi bəllidir



**Növbəti mövsüm Azərbaycanı UEFA Çempionlar Liqasında təmsil edəcək "Neftçi"nin qadın futbolçulardan ibarət komandasının turnirdəki rəqibi müəyyənləşib.**

Belə ki, "ağ-qaralar" 4-cü qrupda Türkiyənin "Fomget" kollektivi ilə qarşılaşacaq. Siyasət Əsgərovun komandası yarımfinalda türkləri məğlub edəcəyi halda finalda İsrail təmsilçisi "Kiryat"la münasibətlərini aydınlaşdıracaq.

Qeyd edək ki, "Neftçi" yarımfinal mərhələsindəki matçını iyulun 30-da keçirəcək.

### Hakim Elçin Məsiyev FİFA-dan təyinat alıb



**Azərbaycanın FIFA referisi Elçin Məsiyev UEFA-dan növbəti dəfə təyinat alıb. Belə ki, həmyerlimiz Slovakiyada təşkil edilən 21 yaşadək futbolçulardan ibarət komandalar arasında Avropa çempionatının yarımfinal mərhələsində keçiriləcək İngiltərə - Niderland oyununda 4-cü hakim funksiyasını yerinə yetirəcək. Qarşılaşmanın baş hakimi isə yunanıstanlı Vasilios Fotias olacaq.**

İyunun 25-də keçiriləcək görüş Bakı vaxtı ilə saat 23:00-da başlayacaq. Qeyd edək ki, Elçin Məsiyev daha əvvəl Avropa çempionatında Çexiya - İngiltərə (1:3), Gürcüstan - Portuqaliya (0:4) matçlarını idarə edib, Almaniya - İtaliya görüşündə (3:2) isə dördüncü hakim olub.

*M.HACIXANLI*
*XQ*

HAVA

## Əsasən, yağmursuz...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Şimal-qərb küləyi əsəcək, gündüz mülayim cənub-şərq küləyi ilə əvəzlənəcək. Havanın temperaturu gecə 18-21, gündüz 25-30 dərəcə isti olacaq. Atmosfer təzyiqi norma daxilində - 761 millimetr civə sütunu, nisbi rütubət gecə 70-75, gündüz 40-45 faiz təşkil edəcək.**

Azərbaycanın rayonlarında da havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli az yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi yerlərdə zəif duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 17-21, gündüz 29-33, dağlarda gecə 5-10, gündüz 15-20 dərəcə isti olacağı ehtimal edilir.

*Q.QASIMOV*
*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru, professor Ceyran Mahmudova və universitetin professor-müəllim heyəti Elm və yaradıcılıq işləri üzrə prorektor Sədaqət Əliyevaya anası

**ZƏRİFƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Xalq qəzeti"nin baş redaktoru Əflatun Amaşov Milli Məclisin deputatı Sahib Alıyevə atası

**EYVAZ ALIYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3688
SİFARİŞ 1252
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Məsaim ABDULLAYEV
Çapa imzalanmışdır 00:00